**Cild: 24 Say: 2** **ISSN 2218 – 0346**
**2021**

# AZƏRBAYCAN ARXEOLOGİYASI

**Təsisçi**
Hamlet İsaxanlı

**Baş redaktor**
Qüdrət İsmayılzadə

**Redaksiya heyəti**
Vəli Baxşəliyev, Azərbaycan
Maisə Rəhimova, Azərbaycan
İsmayıl Hacıyev, Azərbaycan
Rauf Munçayev, Rusiya
Anatoli Kantoroviç, Rusiya
Murtazəli Hacıyev, Rusiya
Zurab Maxaradze, Gürcüstan
Mehmet Özdoğan, Türkiyə
Mehmet İşıklı, Türkiyə
Ayman Dosimbayeva, Qazaxıstan
Bauırjan Baytanayev, Qazaxıstan
Andreas Şaxner, Almaniya
Bertyill Lyonnet, Fransa
Yoshihiro Nisyaki, Yaponiya

**Redaktor müavinləri**
Roza Arazova
Tarix Dostiyev
Bəhlul İbrahimli

**Redaktor köməkçiləri**
Sevda Hüseynova
Emil İskəndərov
Söhrab Mustafayev
Ceyran Məmmədova

**Volume: 24 Number: 2** **ISSN 2218-0346**
**2021**

# AZERBAIJAN ARCHAEOLOGY

**Founder**
Hamlet Isaxanli

**Editor-in-Chief**
Qudrat Ismayilzadeh

**Editorial Board**
Vali Bakhshaliyev, Azerbaijan
Maisa Rahimova, Azerbaijan
İsmail Hajiyev, Azerbaijan
Rauf Munchayev, Russia
Anatoliy Kantorovich, Russia
Murtazali Gadjiev, Russia
Zurab Makharzadze, Georgia
Mehmet Ozdoghan, Turkey
Mehmet Ishikli, Turkey
Ayman Dosimbayeva, Kazakhstan
Baujan Baytanayev, Kazakhstan
Andreas Schachner, Germany
Bertille Lyonnet, France
Yoshihiro Nisyaki, Japan

**Editorial Deputies**
Roza Arazova
Tarikh Dostiyev
Bahlul Ibrahimli

**Editorial Assistants**
Sevda Huseynova
Emil İskandarov
Sohrab Mustafayev
Ceyran Mammadova

**Cild: 24 Say:** ***2*** **2021** **ISSN 2218 – 0346**

# АРХЕОЛОГИЯ АЗЕРБАЙДЖАНА

**Учредитель**
Гамлет Исаханлы

**Главный редактор**
Гудрат Исмаилзаде

**Редакционная коллегия**
Вели Бахшалиев, Азербайджан
Маиса Рагимова, Азербайджан
Исмаил Гаджиев, Азербайджан
Рауф Мунчаев, Россия
Анатолий Канторович, Россия
Муртазали Гаджиев, Россия
Зураб Махарадзе, Грузия
Мехмет Оздоган, Турция
Мехмет Ишыклы, Турция
Айман Досимбаева, Казахстан
Бауыржан Байтанаев, Казахстан
Андреас Шахнер, Германия
Бертил Лйоннет, Франция
Йошихиро Нисяки, Япония

**Заместители главного редактора**
Роза Аразова
Тарих Достиев
Бахлул Ибрагимли

**Рабочая группа**
Севда Гусейнова
Эмиль Искендеров
Сохраб Мустафаев
Джейран Мамедова

© COPYRIGHT 2020 Khazar University Press All Rights Reserved

Məhsəti küçəsi, 41, AZ1096, Xəzər Universitəsi,
Bakı şəhəri Azərbaycan Respublikası

Mehseti str., 41, AZ1096 Khazar University,
Baku Republic of Azerbaijan

ул. Мехсети, 41, AZ1096,
Университет Хазар,
Баку, Республика Азербайджан

Üz qabığında:
***Qarabağ. Lələtəpə neolit dövrü yaşayış yeri.***

Cover page depicts:
***Karabakh. Neolithic settlement of Lalatapa.***

На обложке:
***Карабах. Неолитическое поселение Лалатепе.***

Telefon: (99412) 4217927 (219)
Faks: (99412) 4989379
E-mail ünvanları:
contact@khazar.org
jaa@khazar.org
http://www.khazar.org
www.azerbaijanarcheology.com

KHAZAR UNIVERSITY PRES

## İÇİNDƏKİLƏR


***Nəcəf Müseyibli***

Böyük alimin xatirəsinə: Rauf Maqomedoviç Munçayev (1928-2021). .................... 8

***Firuzə Muradova***

Qobustanda “Leylatəpə” mədəniyyəti .................... 16

***Roza Arazova***

Qarabağın erkən əkinçi-maldar tayfalarının daş məmulatları.................... 37

***Bəhlul İbrahimli, Elvin Əliyev, Günay Bayramova***

Göbəklitəpədən Plovdağa .................... 56

***Allahverdi Əlimirzəyev***

Naxçıvan bölgəsinin iki şəhəri Aşşur mətnlərində .................... 67

***Elnur İmanov***

Sım petroqlifləri.................... 75

***Rəhman Abdullayev, Sevinc Şirinli***

Misilsiz abidənin sorağında .................... 81

***Tarix Dostiyev***

Nizami Gəncəvi dövründə Şəmkir şəhərində mədəni həyat.................... 96

***Afaq Quluzadə***

Naxçıvan Dövlət Tarix Muzeyində nümayiş etdirilən mis sərpuşun kitabələri .................... 109

## CONTENTS

*Najaf Museibli*
In memory of the great scientist Rauf Magomedovich Munchayev (1928-2021). .......... 8
*Firuza Muradova*
"Leylatapa" culture in Gobustan .......... 16
*Roza Arazova*
Lithic assemblages of the early farming communities of Karabakh . 37
*Bahlul Ibrahimli, Elvin Aliev, Gunay Bayramova*
From Gobeklıtepe to Plovdag .......... 56
*Allahverdi Alimirzaev*
Assyrian texts about two cities of the Nakhchivan region .......... 67
*Elnur Imanov*
Sym Petroglyphs .......... 75
*Rahman Abdullaev, Sevinj Shirinli*
In search of unique monument .......... 81
*Tarikh Dostiev*
Cultural life of Shamkir city in the Nizami Ganjavis epoch .......... 96
*Afag Guluzadeh*
Inscriptions of copper pots (serpush) preserved in Nakhchivan State History Museum .......... 109

**СОДЕРЖАНИЕ**

*Наджаф Мусеибли*
В память о великом ученном Рауфа Магомедовича Мунчаева (1928-2021). ........ 8
*Фируза Мурадова*
Культура «Лейлатапа» в Гобустане ........ 16
*Роза Аразова*
Каменные изделия раннеземледельческих поселений Гарабаха 37
*Бахлул Ибрагимли, Эльвин Алиев, Гюнай Байрамова*
От Гёбеклитепе до Пловдага ........ 56
*Аллахверди Алимирзоев*
Ассирийские тексты о двух городах Нахчыванского региона..... 67
*Эльнур Иманов*
Петроглифы Сыма ........ 75
*Рахман Абдуллаев, Севиндж Ширинли*
В поисках уникального памятника ........ 81
*Тарих Достиев*
Культурная жизнь города Шамкир в эпоху Низами Гянджеви .. 96
*Афаг Гулузаде*
Надписи на медной посуде (серпуш) хранящейся в Нахчыванском государственном историческом музее........ 109

Azərbaycan Arxeologiyası Volume 24 № 2 2021, 8-15
Khazar University Press DOI: 10.5782/2218-0346.2021.24.2.8

# Böyük alimin xatirəsinə
# Rauf Maqomedoviç Munçayev
# (1928-2021)

2021-ci il iyulun 4-də Moskvada yaşayan həmyerlimiz, dünya şöhrətli arxeoloq Rauf Maqomedoviç Munçayev ömrünün 93-cü ilində vəfat etmişdir. Böyük alimin ölümü Rusiya, Azərbaycan və beynəlxalq elm üçün çox ağır itkidir. Mesopotamiyanın və Qafqazın qədim mədəniyyətlərinin görkəmli tədqiqatçısı olmuş Rauf Munçayev zəngin elmi fəaliyyəti və nəsillərə nümunə olacaq həyat yolu ilə yaddaşlarda qalmışdır.



Yaxın Şərq və Avropa mədəniyyətlərinin qovşağında yerləşən Qafqaz insanlıq tarixinin bütün mərhələlərinə aid abidələrlə zəngindir. Bunlar Daş dövrünə aid ibtidai insan düşərgələri, erkən əkinçilik mədəniyyətləri və Tunc dövrlərinə aid yaşayış məskənləri və kurqanlar, Antik və Orta əsrlərə aid şəhərlər və s. tip abidələrdir. Qafqaz abidələrinin arxeoloji tədqiqinə hələ XIX

əsrdə başlanmışdır. Bütün bu uzun tədqiqat tarixində ən layiqli yerlərdən birini tutan və ən böyük elmi kəşflərə imza atan alimlərdən biri də dünya şöhrətli arxeoloq, həmyerlimiz, Rusiya Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Rauf Munçayev olmuşdur.

Rauf Munçayev 1928-ci il sentyabr ayının 23-də Azərbaycanın ən gözəl guşələrindən biri olan Zaqatala şəhərində anadan olmuşdur. Onun uşaqlıq və yeniyetməlik illəri bu şəhərdə keçmişdir. Rauf Munçayev Zaqatalada rus məktəbində orta təhsil almış və artıq orta təhsilin son illərində, gənc yaşlarında rayonun ictimai işlərində çalışmışdır. Zaqatala mühiti, xüsusilə də ikinci dünya müharibəsinin ağır illəri Rauf Munçayevin bir insan kimi şəxsi keyfiyyətlərinin formalaşmasında mühüm rol oynamışdır. O, xüsusilə də son illər Bakıya hər gəlişində Azərbaycanda yaşadığı uşaqlıq və gənclik illərinin acılı-şirinli xatirələrindən geniş söhbət açır, atasının Zaqatala şəhər qəbiristanlığındakı məzarını ziyarət edirdi. Rauf Munçayevi bu səfərlərində özünün yetirməsi, tanınmış arxeoloq, t.e.d. Şahmərdan Əmirov, hələ aspirantura illərindən yaxın dostluq etdiyi akademik Teymur Bünyadov və bu sətirlərin müəllifi müşayiət etmişlər. 2012-ci ildə Zaqatalaya növbəti səfər zamanı Rauf Munçayev gözlənilmədən uşaqlıq və yeniyetməlik illərini yaşadığı evin qapısını döymüşdür. Həmin evin indiki sahibi olan ailə ağ saçlı bu böyük alimi və onu müşayiət edənləri çox yüksək qonaqpərvərliklə qarşılamış və bu mənzildə ona uzaq illərin xatirələrini bir daha yaşamağa yardımçı olmuşdur.

1945-ci ildə orta məktəbi bitirdikdən sonra Rauf Munçayev Dağıstan dövlət Pedaqoji İnstitutunun tarix fakültəsinə daxil olmuş və 1949-cu ildə ali təhsili uğurla başa çatdırmışdır. 1949-1953-cü illərdə Moskvada SSRİ EA Maddi Mədəniyyət İnstitunun aspiranturasında arxeologiya ixtisası üzrə təhsil almışdır. 1953-cü ildə "Dağıstanın tarixində mis və tunc dövrü (e.ə. III-II minilliklər)" mövzusunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsini almışdır. Sonra bir neçə il Dağıstan ərazisində arxeoloji qazıntılar aparmış, bir sıra abidələr, o cümlədən Qafqaz arxeologiyasında mühüm elmi əhəmiyyətə malik abidələrdən biri olan "Çox" yaşayış yerini aşkar etmişdir. 1955-ci ildən ömrünün sonuna qədər REA Arxeologiya İnstitutunda işləmişdir.

R.Munçayevin uzun illər ərzində elmi fəaliyyətinin, çöl tədqiqatlarının əsas hissəsini Dağıstan, Şimali Osetiya, Çeçenistan, İnquşetiya, Qaraçay-Çərkəz, Stavropol və Şimali Qafqazın digər ərazilərində e.ə. IV-III minilliklərə aid arxeoloji abidələrin öyrənilməsi təşkil etmişdir. Məhz R.Munçayevin




arxeoloji qazıntılarla tədqiqatları nəticəsində Bamut kurqanları, Serjenyurt yaşayış yeri və məzarlığı, Ust-Cequta kurqanları, Vəlikənd kompleksi, Luqovo yaşayış məskəni və s. bu kimi abidələr elmdə Şimali və Şərqi Qafqazın göstərilən minilliklərə aid qədim tarixini əks etdirən etalon abidələr kimi dəyərləndirilir.

1961-ci ildə R.Munçayevin "Şimali-şərqi Qafqazın ən qədim mədəniyyəti" adlı ilk monoqrafiyası nəşr olunmuşdur. Bu əsərdə qeyd edilən regionun xalkolit və ilk tunc dövrü abidələri geniş təhlil edilmiş, onların Yaxın Şərq abidələri ilə müqayisələri aparılmışdır. Növbəti on il müddətində R.Munçayev bu tədqiqatlarını bütün Qafqaz abidələri üzrə daha da genişləndirmiş, bununla əlaqədar olaraq dəfələrlə Dağıstana, Azərbaycana, Gürcüstana, Ermənistana, Böyük Britaniya və İraqa səfərlər etmiş, nəticədə Qafqazın qədim dövr arxeologiyası barədə zəngin elmi informasiya bazası yaratmışdır. Məhz bu gərgin elmi axtarışların nəticəsi olaraq R.Munçayev 1971-ci ildə "Qafqaz eneolit və ilk tunc dövründə" (Кавказ в эпоху энэолита и ранней бронзы) mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1975-ci ildə R.Munçayev doktorluq dissertasiyasını son materialları əlavə etməklə "Qafqaz tunc dövrü ərəfəsində" (Кавказ на заре бронзового века) adlı çox sanballı bir kitab nəşr etdirmişdir. Bu monoqrafiya bu günə qədər bütövlükdə Qafqazın Neolit, Xalkolit və İlk Tunc dövrlərinə aid abidə-

lərinin qazıntılarının yekunlarının bir kitabda ümumiləşdirildiyi yeganə əsər olaraq qalmaqdadır. Bu kitab Qafqazın e.ə. VI-III minilliklər mədəniyyətlərinin tədqiqatları ilə məşğul olan qafqazşünas alimlərin ən çox müraciət etdikləri mühüm elmi informasiya mənbəyidir.

Əlbəttə, Rauf müəllimin elmi fəaliyyətinin əsasını e.ə. IV minilliyə aid Şimali Qafqazın Maykop mədəniyyəti və Yaxın Şərqin bu mədəniyyətlə bağlı arxeoloji komplekslərinin araşdırılması təşkil etmişdir. Abidələrinin ilk dəfə qazıntılarına hələ XIX əsrin sonlarından başlanmış Maykop mədəniyyəti görkəmli qafqazşünas arxeoloqlar A.A.İyessen və Y.İ.Krupnov tərə-findən XX əsrin 60-cı illərinə qədərki mövcud elmi informasiyalar əsasında araşdırılmışdır. Lakin bütövlükdə Avrasiya arxeologiyasında mühüm əhəmiyyət kəsb edən, Rusiya alimləri ilə yanaşı Avropa alimlərinin də diqqət mərkəzində olan Maykop mədəniyyətinin yeri məhz R.Munçayevin arxeoloji qazıntıları, təhlilləri əsasında Qafqaz arxeologiyasında daha dəqiq müəyyənləşdirilmiş, bu mədəniyyətin Mesopotamiya mənşəli olması barədə məsələyə daha ətraflı aydınlıq gətirilmişdir.

Maykop mədəniyyətinin onilliklər ərzində tədqiq edilməsinə baxmayaraq onun kökləri olan ənənələrin Yaxın Şərqdən Şimali Qafqaza hansı istiqamətlərlə necə gedib çatdığı məsələsi Qafqaz arxeologiyasında həllini tapmamış mühüm elmi problem olaraq qalmaqda idi. XX əsrin 80-ci illərində görkəmli Azərbaycan arxeoloqu, R.Munçayevin yaxın dostu olmuş mərhum İdeal Nərimanov Qarabağda Leylatəpə adlı yaşayış məskənində apardığı qazıntılarla eyni adlı mədəniyyət kəşf etmiş oldu. Bu abidənin də arxeoloji materialları Maykop mədəniyyətində olduğu kimi Mesopotamiya ənənələri ilə tam səsləşirdi. Son 15 ildə Azərbaycanda – Ağstafa, Qəbələ, Ağdam, Cəlilabad və s. rayonlarda Leylatəpə mədəniyyətinə aid çoxsaylı abidələrin aşkar edilərək qazılması e.ə. V minilliyin sonu-IV minilliyin birinci yarısında Şimali Mesopotamiya-Şərqi Anadoludan Cənubi Qafqaza, xüsusilə də Azərbaycan ərazisinə kütləvi axınların – miqrasiyaların baş verdiyini və bunun nəticəsində indi elmdə Leylatəpə mədəniyyəti adlandırılan mədəniyyətin yarandığını, onun daşıyıcılarının müəyyən qisminin Şimali Qafqaza köçməsi nəticəsində orada Maykop mədəniyyətinin təşəkkül tapdığını göstərmişdir. Məhz bu səbəbdən R.Munçayev Yaxın Şərq-Qafqaz mədəni ənənələrinin bağlılığı tarixinə dair son on ildəki tədqiqatlarında Leylatəpə mədəniyyəti problemlərini geniş təhlil etmişdir.

Məlumdur ki, Yaxın Şərq, o cümlədən indiki İraq və Suriya ərazilərindəki qədim mədəniyyətlər dünyanın ən qədim sivilizasiya mərkəzlərindən biri

hesab edilir. Məhz bu səbəbdən qədim Mesopotamiya mədəniyyətləri ABŞ və Avropa dövlətlərinin elmi maraq dairəsində olmuş, həmin ölkələrin alimləri hələ XIX əsrdən bu regionda tədqiqatlar aparmağa başlamışlar. Əlbəttə, bu qədim mədəniyyət ocağında digər qüdrətli dövlətlər kimi SSRİ-nin də elmi və bununla yanaşı siyasi maraqları da var idi. Mesopotamiyada çalışacaq ilk sovet arxeoloji ekspedisiyasına rəhbərlik də məhz bacarıqlı təşkilatçı, istedadlı alim R.Munçayevə həvalə edilmişdir. 60-cı illərdə R.Munçayev ardıcıl olaraq Əfqanıstan, Bolqarıstan, Hindistan və Monqolustanda arxeoloji qazıntılarda iştirak edirdi. O 1969-cu ildən 2010-cu ilədək Mesopotamiyada çalışan ilk Sovet-Rusiya arxeoloji ekspedisiyasının rəhbəri olmuşdur. Bu ekspedisiya 1985-ci ilə qədər İraqda, 1988-2010-cu illərdə isə Suriyadakı e.ə. VIII-III minilliklərə aid abidələrdə arxeoloji qazıntılar aparmışdır. Bu ekspedisiyanın tərkibində çalışmış tədqiqatçılar – N.Y.Merpert, N.O.Bader, V.A.Başilov, O.Q.Bolşakov, V.İ.Qulyayev və başqaları Sovet-Rusiya arxeologiya elminin görkəmli nümayəndələri olmuşlar. Qeyd etmək lazımdır ki, ekspedisiyanın rəhbəri R.Munçayevin səyləri nəticəsində onun Azərbaycandan olan yaxın dostu və həmkarı İdeal Nərimanov da bu ekspedisiyanın tərkibinə daxil edilmişdir. Məhz İraq ekspedisiyasındakı 70-ci illərdəki təcrübəsi İ.Nərimanova 80-ci illərin əvvəllərində Qarabağda, Ağdam rayonundakı Xalkolit dövrünə aid Leylatəpə yaşayış yerini aşkar edərək qazdığı zaman tərəddüd etmədən bu abidənin Mesopotamiya mədəniyyətləri ilə sıx bağlı olduğunu söyləməyə imkan vermişdir.

R.Munçayevin rəhbərliyi ilə aparılmış Mesopotamiya tədqiqatları bu qədim sivilizasiyanın ənənələrinin Qafqazda yayılması, neolit-tunc dövrlərində Yaxın Şərq-Qafqaz mədəni-iqtisadi əlaqələrinin tarixinin öyrənilməsi işinə böyük töhfələr vermişdir. Bütün bu mədəni-tarixi proseslərdə Azərbaycan abidələrinin xüsusi yeri vardır və bu abidələrlə bağlı elmi problemlər R.Munçayevin əsərlərində ətraflı işıqlandırılmışdır.

İraqda, Tell-Sotto, Kültəpə, Tell-Maqzaliya, Yarımtəpə abidələrində R.Munçayevin rəhbərlik etdiyi ekspedisiya tərəfindən uzun illər ərzində aparılan qazıntılar sivilizasiyanın beşiyi sayılan qədim Mesopotamiyanın Neolit və Xalkolit mədəniyyətlərinə aid çox zəngin elmi informasiya bazası yaratmış oldu. Görkəmli alimin rəhbərlik etdiyi sovet ekspedisiyasının Şimali Mesopotamiyanın Neolit dövrünün öyrənilməsi üzrə lider mövqeyə yüksəlməsini Qərbi Avropa alimləri də etiraf edirdilər.

Uzun illər ərzində Suriyada apardığı tədqiqatlar R.Munçayevin elmi fəaliyyətinin böyük bir dövrünü təşkil edir. Buradakı e.ə. IV-III minilliklərə

aid I Tell-Xəznə yaşayış yerində 1988-2010-cu illərin çöl mövsümlərində R.Munçayevin rəhbərliyi ilə aparılmış arxeoloji qazıntılar Rusiya arxeologiya elminin Mesopotamiya tədqiqatları tarixinin ən parlaq səhifələridir. Bu qazıntılarda müxtəlif illərdə 20-yə qədər Rusiya mütəxəssisləri iştirak etmişlər. Tell-Xəznədə aparılmış arxeoloji qazıntıların nəticələrinə dair 2004-cü ildə (R.M.Munçayev, N.Y.Merpert və Ş.N.Əmirovun müəllifliyi ilə) və 2016-cı ildə (R.M.Munçayev və Ş.N.Əmirovun müəllifliyi ilə) nəşr olunmuş iki cildlik "I Tell Xəznə. Şimali-şərqi Suriyada e.ə. IV-III minilliklərə aid dini-inzibati mərkəz" («Телль Хазна I. Культово-административный центр IV-III тыс. до н.э. в Северо-восточной Сирии») adlı fundamental əsər qeyd edilən minilliklərə aid Şimali Mesopotamiyanın, eyni zamanda Mesopotamiya Qafqaz əlaqələrinin tarixinin öyrənilməsi üçün əvəzedilməz elmi informasiya mənbəyidir.

Azərbaycan arxeologiyası mövzusu R.Munçayevin elmi yaradıcılığında müəyyən yer tutur. Əlbəttə, e.ə. VI-III minilliklərə aid Yaxın Şərq və Qafqazın bir sıra mədəniyyətlərini, bu regionlar arasındakı mədəni-iqtisadi əlaqələrin tarixini Azərbaycan ərazisindəki abidələri cəlb etmədən tam dolğun şəkildə öyrənmək mümkün deyildir. Bu baxımdan Azərbaycanın onlarla arxeoloji abidələri, bu abidələrdən aşkar olunmuş çoxsaylı maddi mədəniyyət qalıqları R.Munçayevin əsərlərində tədqiqatlara cəlb edilmişdir. Keçən əsrin 70-ci illərinin əvvəllərinə qədərki qazıntıların nəticələrinin ümumiləşdirildiyi, 1975-ci ildə nəşr olunmuş "Qafqaz tunc dövrü ərəfəsində" adlı əsərində görkəmli alim Azərbaycan abidələri barədə də geniş məlumatlar vermişdir. Həmin abidələrə əvvəllər də çoxsaylı əsərlər həsr edilmişdir. Lakin ədalət naminə qeyd etmək lazımdır ki, R.Munçayevin haqqında bəhs edilən monoqrafiyasında təsvirçilikdən daha çox intrepretasiya məsələlərinə yer verilmiş, ilk dəfə olaraq Azərbaycanın Neolit-İlk Tunc dövrü arxeoloji abidələrinin Qafqaz-Yaxın Şərq mədəniyyətləri kontekstində təhlili aparılmış, onların bu nəhəng tarixi-mədəni arealda yeri müəyyən edilmişdir.

Ümumiyyətlə, R.Munçayevin elmi yaradıcılığında Azərbaycan abidələrinə çox tez-tez müraciət edilmişdir. Naxçıvan, Qarabağ, Gəncə-Qazax, Muğan, Quba-Xaçmaz bölgələrində yayılmış Neolit-Tunc dövrü mədəniyyətləri R.Munçayevin əsərlərində dəfələrlə işıqlandırılmışdır. Hələ sovet dövründə nüfuzlu nəşr olan Böyük Sovet Ensiklopediyasında R.Munçayevin Azərbaycanın arxeoloji abidələri barədə məqalələri nəşr edilmişdir. O illərdə R.Munçayev tez-tez Azərbaycana elmi ezamiyyətlərə gəlir, burada aparılmış



arxeoloji qazıntıların nəticələri ilə yaxından tanış olur və azərbaycanlı həmkarları ilə birgə elmi məqalələr nəşr etdirirdi.

Özünün ilk vətəni Azərbaycanla sıx bağlı olan R.Munçayev yaşının az olmadığına baxmayaraq təkcə son illər 5 dəfə (2011, 2012, 2013-cü illərdə və 2016-cı ildə iki dəfə) Azərbaycana gəlmiş, burada keçirilən beynəlxalq konfranslarda və digər elmi tədbirlərdə iştirak etmiş, arxeoloji abidələrdə aparılan qazıntılarla yaxından tanış olmuşdur. 2013-cü ildə keçirilən AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun yaradılmasının 20 illiyinə həsr olunmuş beynəlxalq elmi konfransda R.Munçayev Azərbaycan arxeologiya elminin inkişaf tarixinə aid məruzə ilə çıxış etmişdir. Alimin bu çıxışı bir il sonra "Azərbaycan arxeologiyası və etnoqrafiyası" jurnalında (2014, № 1) "Azərbaycan arxeologiyasının tarixinin bəzi səhifələri" (Некоторые страницы истории Азербайджанской археологии) adı ilə nəşr olunmuşdur. R.Munçayev Bakıya 2016-cı ildəki səfəri zamanı "Qarabağın arxeoloji irsi" mövzusunda keçirilən beynəlxalq konfransda iştirak etmiş və Qarabağın arxeoloji tədqiqatlarında görkəmli arxeoloq İdeal Nərimanovun fəaliyyətinə həsr olunmuş məruzə ilə çıxış etmişdir.

Azərbaycanın arxeoloq kadrlarının yetişməsində R.Munçayevin böyük xidmətləri vardır. O, hələ 50-ci illərin sonlarında özünün yaxın dostları olan İdeal Nərimanov, Cabbar Xəlilov və Teymur Bünyadovun Moskvada keçirilən namizədlik dissertasiyalarının müdafiələrində opponentlik etmişdir. Sonralar bu alimlərin hər biri Azərbaycan arxeologiya və etnoqrafiya elmlərində

məktəblər yaratmış görkəmli tədqiqatçılar oldular. 2016-cı ildə isə R.Munçayev bu sətirlərin müəllifinin doktorluq dissertasiyasına opponentlik etmiş, dəyərli elmi tövsiyələr vermişdir. Bundan əlavə, R.Munçayev bir neçə Azərbaycan aliminin dissertasiyalarının elmi rəhbəri olmuşdur. Sovet arxeologiya elmi mühitində böyük nüfuz sahibi olan R.Munçayev Azərbaycandan olan bir sıra milli kadrların dissertasiya müdafiələri proseslərində lüzumsuz bürokratik əngəllərin qarşısının alınmasında, onların elmi dərəcələr almasında yaxından təşkilati dəstək göstərmişdir.

R.Munçayev görkəmli alim olmaqla yanaşı həm də çox bacarıqlı, yorulmaz elm təşkilatçısı olduğunu əməli fəaliyyəti ilə sübut etmişdir. O, 20 ildən artıq bir müddətdə (1968-1991) SSRİ kimi nəhəng bir ölkənin Elmlər Akademiyasının Arxeologiya İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsində çalışmışdır. 1991-1994-cü illərdə artıq Rusiya EA-nın Arxeologiya İnstitutunun direktoru vəzifəsini icra etmiş, 1994-2003-cü illərdə isə həmin İnstitutun direktoru vəzifəsində çalışmışdır. R.Munçayev bu vəzifələrdə çalışdığı uzun illər ərzində Sovet-Rusiya arxeologiya elminin inkişafında, tədqiqatların genişlənməsində, elmi kadrların yetişməsində müstəsna xidmətlər göstərmişdir. Eyni zamanda onu qeyd etmək vacibdir ki, İnstituta rəhbərlik etdiyi ağır 90-cı illərdə R.Munçayev bu İnstitutun elmi poten-sialını qoruyub saxlamağı bacarmışdır.

Dünya şöhrətli arxeoloq R.Munçayev gərgin və məhsuldar elmi fəaliyyətinə görə Rusiya Federasiyasının bir sıra mükafatlarına layiq görülmüşdür. Bunlardan yalnız bəzilərini qeyd etmək yerinə düşər. Belə ki, o, 1998-ci ildə "Dostluq" ordeni, 2005-ci ildə "Kazanın 1000 illiyi xatirəsinə" medalı, 2009-cu ildə "Şərəf" ordeni ilə təltif edilmişdir. R.Munçayev 1982-ci ildə Dağıstan Respublikasının əməkdar elm xadimi, 1989-cu ildə Rusiya Federasiyasının əməkdar elm xadimi, 2008-ci ildə İnquşetiya Respublikasının əməkdar elm xadimi fəxri adlarına layiq görülmüş, 2013-cü ildə isə Çeçenistan Respublikasının Elmlər Akademiyasının fəxri akademiki seçilmişdir. R.Munçayev 1985-ci ildən Almaniya Arxeologiya İnstitutunun müxbir üzvü, 1990-cı ildən isə İtaliyanın Afrika və Şərq İnstitutunun müxbir üzvü olmuşdur.

Görkəmli alim Rauf Munçayevin adı, zəngin elmi irsi beynəlxalq arxeologiya elminin tarixinə əbədi həkk olunmuşdur.

**Nəcəf Müseyibli**
**AMEA-nın Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor**
**necef_museibli@mail.ru**

Azərbaycan Arxeologiyası Volume 24 № 2 2021, 16-36
Khazar University Press DOI: 10.5782/2218-0346.2021.24.2.16

# Qobustanda "Leylatəpə" mədəniyyəti

**Firuzə Muradova**
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
ash.safar@mail.ru

**Açar sözlər:** Leylatəpə, Qobustan, mədəniyyət, əkinçi-maldar (tayfalar), miqrasiya.

1950-ci illərin əvvəllərinə qədər Kür-Araz Eneoliti adlanan arxeoloji mədəniyyət Azərbaycan və bütün Cənubi Qafqazın qədim əkinçi-maldar mədəniyyəti üçün səciyyəvi hesab edilirdi. Lakin, keçən əsrin 80-cı illərində İ.H.Nərimanov tərəfindən Qarabağda tədqiq edilmiş Leylatəpə yaşayış yerindən mədəni-xronoloji baxımdan fərqli tapıntılar əldə olundu. İ.H.Nərimanov bu abidənin Mesopotamiyadan Cənubi Qafqaza miqrasiya etmiş Ubeyd mədəniyyəti qruplarına aid olduğunu yazmış, 1985-ci ildə onu "Leylatəpə mədəniyyəti" adı altında elmi dövriyyəyə daxil etmişdi.

Tədqiqatçılar Cənubi Qafqazın ən çox və ən sıx əlaqələrinin Yaxın Şərqdə Mesopotamiya ilə bağlı olduğunu xüsusi qeyd etmişlər. Bu mədəniyyət üçün çiy kərpicdən olan düzbucaqlı tikintilər, körpə uşaqların gil qablarda yaşayış yerində dəfn olunması səciyyəvidir.

Leylatəpə yaşayış yerindən əldə olunan gil məmulatı 3 qrupa aiddir: təmiz gildən olan, bitki qarışıqlı və kobud qablar əsasən, dulus çarxında hazırlanmışdır. I-II qrup qablar keyfiyyətli qablara aiddir, üzəri polixrom anqobludur, əsasən bəzəksizdir, tək-tək boyalı və ya kəsmə naxışa rast gəlinir, onlar yumru oturacaqlıdır. III qrup qablar boğazsız, ağız kənarı zəif yana açılan, bəzən çərtmələrlə bəzənmiş, bəzən gövdəsi daraqvarı işlənmişdir, gilində daş qırıntıları vardır.

Qobustanda Böyükdaş dağı Yuxarı Səkidə Ana zağada aşkar edilmiş Leylatəpə mədəniyyətinə aid yaşayış yeri də Ubeyd mədəniyyəti daşıyıcılarına aiddir. "Ana zağa yaşayış yeri" Qobustan ekspedisiyası tərəfindən 1976-1977-ci illərdə aşkar edilib öyrənilmişdir.

Yaşayış yerinin "Ana zağa"nın cənub tərəfində 31 №-li iri qayanın dibində, qaya çıxıntılarının nisbətən az olduğu ərazidə sahəsi 50 $m^2$–dir. Yaşayış yeri qalınlığı 1,7 m olan mədəni təbəqədən ibarətdir. Qazıntı zamanı sarı rəngdə gillə suvanmış döşəmə qalıqları, çox sayda açıq ocaq yerləri, diametri

3 m olan daş tikinti qalığı açılmışdır. Yaşayış yerinin şimal tərəfində kiçik ölçülü əhəngdaşından, ərzaq məhsulları saxlanan ölçüləri 50x70 sm, 40x50 sm, dərinliyi 60-70 sm olan daş tikililər vardır. Onların bəzən bir-birinin üstündə tikildiyi müəyyən olunmuşdur. Bu tikililərin içərisindən dağdağan toxumu, qab qırıqları və sümük qalıqları yığılmışdır.

Yaşayış yerinin tikililəri daş dövrünə aid mədəni təbəqələrin dağılmasına səbəb olmuşdur. Bunu daş dövrü təbəqələrinin maddi-mədəniyyət nümunələrinə üst laylardakı yaşayış yerlərinə aid materiallarla birlikdə, qarışıq halda rast gəlinməsi sübut edir. Yaşayış yerində sağ yanı üstdə, bükülü vəziyyətdə dəfn olunmuş körpəyə aid torpaq qəbir açılmışdır.

Yaşayış yerinin materialları gil qab qırıqları, daşdan əmək alətləri, az miqdarda sümük materialı, metaldan əmək aləti və s. ibarətdir. Materialların əsasını gil məmulatı təşkil edir. Yaşayış yerinin gil qablarının istehsalında Leylatəpədə olduğu kimi təmiz gildən, bitki qarışıqlı gildən, tərkibində qum, daş qırıntıları, balıqqulağı qırıntıları qatılmış gildən istifadə olunmuşdur. Sonuncu qrupu təşkil edən kobud qablar zəif bişirildiyindən çox kövrəkdir və pis saxlanmışdır. Keyfiyyətli gil qabların qırıqları çoxdur, onlar əsas ağız və gövdə framentlərindən ibarətdir.

I qrupa aid olan, təmiz gildən hazırlanmış ağzı qıf formalı, gövdəsi boğmalı, yumru, bəzən düz oturacaqlı qablar yaxşı keyfiyyətli gil qab qrupuna daxildir. Bu qablara aid qırıqlar orta və kiçik ölçülü qablara aiddir. Onların üstü sarı rəngdə anqobla örtülmüşdür. I qrupa aid qab nümunələrinin kiçik ölçülü oxşarları bu gün Cənubi Qafqazda yalnız azərbaycanlıların çay süfrəsini bəzəyən və xalq arasında "armudu stəkan" adlanan şüşə qab nümunələri kimi yaşamaqda davam edir. Yaxşı keyfiyyətli qab qırıqları arasında gilində qum qarışığı olan şar gövdəli, silindrik boğaza malik olanları da vardır.

Gil qab qırıqları arasında Eneolit, Ubeyd və Leylatəpə mədəniyyəti tipli, Kür-Araz əlamətli qab qırıqlarının olması diqqəti cəlb edir.

Eneolit əlamətli, saman qarışıqlı, qalın divarlı (1,3 sm), düz oturacaqlı qab qırıqlarının üstü açıq yaşıl, ağ, sarı rəngdə anqobla örtülmüşdür. Bəzi qırıqların üstü kobud suvaqlıdır. Bunlar az miqdarda düz oturacaqdan və gövdə qırıqlarından ibarətdir.

Qab qırıqları arasında gilinə qırmızı rəngli qatılmış nümunələr vardır. Üstü daraqvari üsulla işlənmiş qab qırıqları arasında iki ədəd qara və şabalıdı rəngli qab qırığı cilalıdır. 2 ədəd qırığın üstü gilənarı rəngli boya ilə örtülmüşdür. Qırıqların arasında Leylatəpə mədəniyyəti üçün səciyyəvi olan qablara aid qırıqlar vardır. Ağız qırıqları arasında keyfiyyətli gildən hazırlanmış

Leylatəpə mədəniyyəti üçün səciyyəvi olan qıf, boru, zəif yana açılan, Kür - Araz mədəniyyəti səciyyəli, ağzının üstü üfüqi vəziyyətdə kəsilmiş, silindr boğazlı qab qırıqları vardır.

Qıf, boru və silindr formalı boğazlar tünd boz rəngdə qablara aiddir. Bunlar narın qum qatışıqlıdır. Qəhvəyi rəngdə qab qırıqları yalnız Leylatəpə mədəniyyəti qabları üçün səciyyəvidir. Bəzən qabların üstü qəhvəyi rəngdə, bəzən sarı gil məhlulu-anqobla suvanmışdır. Saxsı məmulatı əsasən küpə, xeyrə, cam və s. tipli qablardan ibarətdir

Küplər həm keyfiyyətli, həm də bitki qarışıqlı gildən hazırlanmış çox da iri olmayan qablardır. Onların arasında qalın divarlı (1,3-2 sm), lazımınca bişirilmiş, üstü açıq yaşıl rəngdə anqoblanmış, şar gövdəli, yumru oturacaqlı, ağız kənarı alçaq silindr formalı yana açılan küplərə təsadüf olunur. Onlardan birinin ağzının üstü bəzəklidir. Bəzək kəsmə xətlər, çərtmələr, dairəvi və oval batıqlardan ibarətdir. Digər küp nümunələri, oval gövdəli, yumru oturacaqlı, gövdənin davamı nisbətən dar, ağız kənarı qalın və yana açılan qablardır. Bunlar ağzının içi iki batıq xətlə əhatə olunmuş, üstü yaxşı hamarlanmış, küpə tipli qablardır. Onlar küplərdən bir qədər kiçik olması ilə fərqlənir. Qazıntıdan bir ədəd bütöv küp tapılmışdır. Sarımtıl rəngli, yumru oturacaqlı, gövdənin davamı ağız kənarı, yana əyilən qabın hündürlüyü 13 sm, divarının qalınlığı 0,7 sm-dir, qum qatılmış keyfiyyətli gildən hazırlanmış və yaxşı bişirilmişdir. Üzəri yaxşı hamarlanmışdır, üstündə his izi var. Küpə tipli qabların bir qismi şar və ya oval gövdəli, ağız kənarı Leylatəpə qablarında olduğu kimi qıf və ya boru formalı hündür boğazlı, yumru və düz oturacaqlıdır. Küpələrin bir qismi tünd boz rəngdə, qum qarışıqlı gildən hazırlanmış, dar və ya gen, qısa və hündür silindr boğazlıdır. Bəzi küpələrin ağzının üstü çərtmələr, şaquli kəsmə xətlər, oval batıqlarla bəzənmişdir. 1 ədəd sarımtıl küpənin üstü daraqvari üsulla işlənmiş, ağzının üstü çərtmə kəsmə, dairəvi batıqlarla naxışlanmışdır. Bu iki üsuldan ibarət bəzək eyni qabda birlikdə istifadə olunmuşdur. Bu cür naxışlı qab qırığı 2- 3 qaba aiddir. Əldə hazırlanmış düz oturacaqlı küpə qırıqları da tapılmışdır. Küpə qırıqlarının ağzının üstü üfüqi vəziyyətdə kəsilmiş nümunələrinə də rast gəlinmişdir.

Mətbəx qabları sırasına daxil etdiyimiz xeyrə qırıqları o qədər də çox deyil (4 ədəd). Onlar sarımtıl rəngdə, ağzı geniş şəkildə yana açılan, çox da dərin olmayan, (5-8 sm, (d=20-27 sm); gövdə divarının qalınlığı 0,5-1 sm) qum qarışıqlı gildən dulus çarxında hazırlanmış qablardır. Xeyrələrin divarı yuxarı qalxdıqca nazilir və düz ağız kənarı ilə tamamlanır. Onların üstü yaxşı

hamarlanıb, sarımtıl rəngdə anqobla suvanmışdır. Xeyrələr bütün Leylatəpə mədəniyyəti abidələrindən tapılmışdır.

Bir ədəd bütöv cam tapılmışdır. O sarımtıl rəngdə keyfiyyətli gildən əldə hazırlanmışdır. Oturacağı düz, oturacağa düzbucaq altında birləşən gövdə divarı yuxarı qalxdıqca nazilir, düz ağız kənarı ilə tamamlanır, hər iki üzü yaxşı hamarlanmışdır. Hündürlüyü 8-10, gövdə divarının qalınlığı 5-8; diametri 10-14 sm-dir.

Süzgəc tipli gil əşya qırıqları 2 ədəddir. Onlardan biri qəhvəyi rəngdə keyfiyyətli gildən hazırlanıb, yaxşı bişirilmişdir. Gövdə divarına aid qırıqlardan birinin qalınlığı 0,6 sm, ikincisinin qalınlığı 1 smdir. Qırıqlarda qab hələ çiy ikən iç üzdən deşiklər açılmışdır. Kiçik ölçülü, nisbətən nazik divarlı qırığın mətbəx qabı, digərinin isə təsərrüfatda işlədildiyini düşünürük. Üstü deşiklərlə örtülmüş, kobud hazırlanmış gil əşyanın oxşarı Dağıstanda Qinçi yaşayış yerindən tapılmışdır (hündürlüyü 18 sm-ə qədərdir). Bu qab deyil, çünki onun oturacağı yoxdur. Cənubi Qafqaz kompleksində bu cür gil əşyalar yoxdur (Гаджиев, 1966, c. 57-58, рис. 13, 8). Ümumiyyətlə süzgəc tipli gil qab qırıqları Leylatəpə abidələrinin çoxunda təsadüf olunur və sonrakı Kür-Araz mədəniyyəti abidələrində artıb çoxalır.

Qazıntıdan kobud hazırlanmışgil manqalın hündür (10 sm) gövdəsinin qırığı əldə edilmişdir. Ağzının üstü düzdür və onun bir qədər alt hissəsində gövdəni əhatə edən 1 cərgə deşik açılmışdır. İçi və üstü kələ-kötürdür. Bu cür mobil manqal qırıqları Texut yaşayış yerindən çox tapılmışdır (Мунчаев, c.107-108, рис. 12- 5, 6; Торосян, 1976). Bu cür əşyalar Leylatəpə yaşayış yerindən (Нариманов, Ахундов, Алиев, 2007, рис.16-18), Alxantəpədən (Ахундов, 2014), Qobustanda Ana zağa yaşayış yerindən tapılmışdır (Мурадова, 2002, c. 111-113). Belə gil manqallar Cənubi Qafqazın şimal rayonlarının İlk Tunc dövrü abidələri üçün səciyyəvidir. Onlara Şimali və şimali-şərqi Qafqaz abidələrində də təsadüf olunur (Гаджиев, 1991, рис. 31-11).

Yaşayış yerindən gildən hazırlanmış qablardan əlavə başqa əşyalar da tapılmışdır. Bunlardan biri təkər fiqurlarıdır. Onlar sarı, qırmızı rəngdə, gilinə qum qatılmış lazımınca bişirilmiş əşyalardır. Bunlar 10 ədəddir. Ölçüləri müxtəlifdir. Ən böyük fiqurun ölçüsü 10,5, ortadakı deşiyin diametri 1 sm-ə yaxındır. Təkər fiqurları Leylatəpə yaşayış yerindən (Алиев, Нариманов, 2001, c. 47), Naxçıvanda Kültəpə yaşayış yerinin Eneolit təbəqəsindən tapılmışdır (Абибуллаев, 1963, c. 63-65; Абибуллаев, 1982, c. 75, таб. VIII, 14).

Ana zağanın gil əşyaları arasında çoxluq təşkil edən silindr formalı qab altlıqlarının olması ilk tapıntıdır. Onlar xüsusi olaraq yumru və sivri otu-

racaqlı qabları qoymaq üçün qabların hazırlandığı gildən hazırlanmışdır. Bu cür qab altlıqları Leylatəpə mədəniyyətinə aid başqa abidələrdən hələlik məlum deyil.

Ana zağa yaşayış yerindən tapılmış qab qırıqları arasında naxışlı nümunələrə az təsadüf olunmuşdur. Onlar kəsmə xətlər, çərtmələr, oval batıqlardan ibarət olub, qabların ağzının üstündə yerləşmişdir. Kəsmə xətlər əsas kiçik və orta ölçülü küpələrin ağzını bəzəyir. Ayrı-ayrı qab qırıqlarında qoşa konusvari yapma bəzəyə təsadüf olunur ki, bu da sonrakı Kür-Araz mədəniyyətinin gil məmulatı üçün səciyyəvidir. Qab qırıqlarında quş sümüyü və ya qarğı vasitəsilə vurulmuş dairəvi naxış təsadüf olunmuşdur. Bu cür naxış Anadoluda Norşuntəpədə (Houptmann, 1982), Naxçıvan zonasında "Ovçular təpəsində" (Алиев, Нариманов, 2001), "Böyük Kəsikdə" (Müseyibli, 2007, tab. XIX, 57); Qəbələdə "Qala yeri" abidəsinin gil qablarında təsadüf olunmuşdur (Muxtarov, Bədəlova, 2012, tab. VI). Eyni naxış növü Qobustanda Böyükdaş yaşayış yerinin İlk Tunc dövrü Maykop qablarının naxışlanmasında da saxlanmışdır (Muradova, 1979, tab. V, 10).

Qabların naxışlanmasında Yaxın Şərqdə olduğu kimi boyadan geniş istifadə edilməmişdir. Ubeyd mədəniyyəti tayfalarının dulusçuluğunda, boyalı qablar əsas yer tutduğu halda, Cənubi Qafqazda Leylatəpə mədəniyyəti abidələrində boyalı qab qırıqlarına tək-tək təsadüf olunur. Ana zağa yaşayış yerindən qırmızı rəngdə boyanmış qab qırıqlarının tapılması, 2 ədəd qırığın üstünün gilənarı rəngində boyanması boyalı qabların buraya İrandan Urmiya ətrafından gəldiyini deməyə əsas verir. Ubeydlilər köçmə zamanı keçmiş yaşayış yerlərində malik olduqları adət-ənənələri yeni yaşayış yerlərində qismən saxlamağa çalışsalar da, lakin onlar tədricən itirilmişdir. Təbii ki, bir çox hallarda dəyişmiş, yerli şəraitə uyğun adət-ənənələr qəbul edilmişdir. Leylatəpə mədəniyyəti qablarının naxışlanmasında çərtmə, kəsmə xətlərdən daha çox istifadə olunmuşdur (Махмудов, 1984).

Tədqiqatçılar Leylatəpə gil qablarının üstünün daraqvari üsulla işlənməsini dövr fərqi sayır, bu mədəniyyətin əsas əlaməti kimi qiymətləndirirlər. Lakin Kültəpə, Böyük Kəsik, Qinçi abidələrində bu üsuldan istifadə olunmamışdır. Ana zağada qabın ağzının altını 1 cərgə xırda, dairəvi batıq naxış əhatə edir. Gəncəçayda bu cür naxışlı qabla birlikdə kəsmə və çərtmə bəzəklə naxışlanmış qab qırıqları 133 № li düşərgədən tapılmışdır (Nərimanov, 1958, tab. 35, 5, 6, 7). Tədqiqatçılar bu abidəni neolit dövrünə aid etmişlər (Nərimanov, 1958, s. 28). Mədəni təbəqəsinin qalınlığı 20-sm olan bu abidənin qab qırıqları qırmızımtıl rəngdə qab parçalarından ibarətdir, qabların ağzının üstü

düzdür. Düz ağız kənarı kəsmə, oval formalı bəzəklə naxışlanmışdır. Qablar yumru və şiş oturacaqlıdır. Abidənin nazik təbəqəli olması, gil məmulatının səciyyəvi xüsusiyyətlər onu Leylatəpə mədəniyyəti abidələri sırasına aid etməyə imkan verir.

Ana zağa yaşayış yerinin "Leylatəpə" tipli gil qab fraqmentləri qulp hissələri də vardır. Onlar kobud hazırlanmış qablara aid olub, kəsikdə dairəvi, lentvari, seqment, düzbucaqlı, çıxıntı formalı deşikli qulp, qab bişirilənə qədər və ya bişmə zamanı əyilmiş lentvari qulp, quş dimdiyi formalı-qaba yapışan hissədə dairəvi, uc hissədə getdikcə nazilən, ucu aşağı əyilib quş dimdiyinə oxşar forma ilə tamamlanan qulp qırıqlarından ibarətdir. Bəzi qab qırıqlarının üstündə qopmuş, sınmış qulpların yeri saxlanmışdır. Naxçıvanın Son Eneolit abidələrində qulplu qablardan çox istifadə olunmuşdur. Qarabağ abidələrində qulpa nadir hallarda təsadüf olunur. Muğanda qalın təbəqəli Əliköməktəpə abidəsinin bütün laylarında qulp tapılmışdır (Махмудов, 1984, с. 64, рис. 5, 5). Naxçıvanda Ovçular təpəsində kobud yarımşar formalı qulplarla birlikdə tapılan çıxıntı qulplar da vardır. Bir ədəd iri çıxıntı qulp Texutdan məlumdur (Торосян, 1976, с. 80, рис. 15). Çıxıntı qulplara hazırda Qafqazın cənubunda bir çox Eneolit abidələrində rast gəlinir (Абибулаев, 1982, с. 69).

Son Eneolitdən İlk Tunc dövrünə keçid mərhələsində mərgümüşlü metalın - tuncun məişətə daxil olub istehsalatda müəyyən rol oynaması bu dövrdə insanların həyatında indiyə kimi əmək aləti kimi istifadə etdikləri sümük və daş əşyaların rolunu bir qədər azaltmışdır. Eyni vəziyyət Qobustanda "Ana zağa" abidəsində də izlənmişdir. Tapılmış metal əşya yaxşı saxlanmış 1 ədəd mərgümüşlü (1%), 4 tilli tunc bizdən ibarətdir.

Qazıntının daş məmulatı dəndaşı, sürtgəc qırıqları, döymə aləti, balıqçılıqda istifadə olunan tor üçün ağırlıq daşları – pərsənglər, toxavari alət, bir ədəd iy başından ibarətdir. Bunlar yerli əhəng daşından, iy başı isə yastı çay daşındandır. Bir ədəd dən daşına oxşar, lakin işlənmə izi olmayan daş əşyanın kənarları kəsmə xətlərlə naxışlanmışdır. Sümük məmulatı iri heyvanın lülə sümüyündən kəsilib düzəldilmiş 2 ədəd bizdən və bir ədəd uzunluğu 4 sm olan iki tərəfi iti ox ucundan ibarətdir.

Ana Zağanın şərq divarındakı, çox da böyük olmayan sal daşın yaşayış yerinin içinə baxan üzündə başı cənuba, kontur xətlə çəkilmiş öküz təsviri, qərb divarın iç üzündə sitayiş vəziyyətində döymə üsulu ilə çəkilmiş kişi təsviri qeydə alınmışdır. Bu təsvirlər yaşayış yeri sakinlərinin dini görüşlərini əks etdirir.

Sümük məmulatı arasında 1 ədəd əhliləşdirilmiş keçi buynuzunun tapılması Qobustan tədqiqatlarında yenilikdir. Bu, Qobustan maldarlığında keçinin ilk əhliləşdirilməsilə bağlı təsdiqləyici arxeoloji materialdır. Qobustanda düşərgələrdə aparılmış qazıntılardan tapılmış kiçik ölçülü daşlarda, mədəni təbəqənin örtdüyü qaya divarlarında və həmçinin daş dövrü düşərgələrinin yaxınlığındakı qaya və daşlarda keçi şəkli qeydə alınmamışdır. Əldə olunmuş osteoloji qalıqlar içərisində də keçi sümükləri yoxdur. Deməli Qobustanda keçi ilk dəfə e.ə. V minilliyin sonu IV minilliyin əvvəllərində əhliləşdirilmişdir (Cəfərzadə, 1973). İlk dəfə hansı heyvanın əhliləşdirilməsi haqqında sual insanlıq tarixinin ən maraqlı məsələlərindən biri olmuşdur. Keçinin əhliləşdirilməsinə itdən sonra başlanmışdır.

N.N.Sokolov (istisasca zooloq) göstərir ki, keçilərin sinir sistemində bəzi xüsusiyyətlərin olması, onların əhliləşdirilməsində həlledici rol oynamışdır. Qoyun və keçinin, onların ətrafdakılara münasibəti istər vəhşi, istərsə də ev heyvanında müxtəlif olmuş və müxtəlif də qalır. Keçiçilik və qoyunçuluq təsərrüfatında çalışan insanlara və ovçulara bu yaxşı məlumdur. Hər şeydən əvvəl ev keçiləri və vəhşi keçilər başqa heyvanlara nisbətən qorxaqdırlar. Onlar qoyuna nisbətən bir qədər hər şeylə maraqlanan və bir qədər təcavüzkardırlar. Onların özlərini bu cür aparması onların dərin bioloji xüsusiyyətidir. Bu xüsusiyyət bir qədər iri və çox cavan növlər üçün xüsusiyyət təşkil edir. Zooloq, dosent Makkiy göstərir ki, balaca keçilərə qulluq edən insanlara onların necə tez isinişdiyinin şahidi olmuşdur. Qeyd etmək lazımdır ki, ilk əhliləşdirilmiş heyvan olan it də sinir sistemində olan bioloji xüsusiyyətlə fərqlənir və bu da onun başqa heyvanlardan tez əhliləşməsinə səbəb olmuşdur. Bəzi tədqiqatçılar keçi növlərindən ən tez əhliləşən dağ keçisinin olduğunu ehtimal edirlər. Buna səbəb başqa keçi növlərinə görə onun daha qorxaq olmasıdır. Nəzərə almaq lazımdır ki, eyni cinsə aid olan keçinin əhliləşmiş və ya vəhşi olduğunu fərqləndirici əlamətin onun skelet sümüyündə bir neçə nəsildən sonra yarana bilər. Maldarlığın ilkin yarandığı dövrlərdə ev heyvanları öz vəhşi növlərindən bir o qədər də fərqlənmirdilər. Ona görə də mətbəx sümükləri və vəhşi heyvan sümüyü sayılan sümüklər arasında çoxdan əhliləşmiş heyvan sümüyü də ola bilərdi.

Bir çox mənbələrədə keçilərin e.ə. VI-V minilliklərdə əhliləşdirildiyi göstərilir. Misirdə e.ə. V minillikdə onların əcdadlarının çoxdan əhliləşdirilmiş keçilərdən istifadə etdikləri göstərilir. Yaxın Şərqdə və Misirdə son neolit dövründə maldarlıq artıq iqtisadiyyatın əsasını təşkil edirdi. A.A.Formozov

yazırdı: “İbtidai insan 10 min il əvvəl heyvandarlıq üzərində hakim idi, elə bu dövrdə də, bəlkə də bir qədər əvvələ keçinin əhliləşdirilməsini aid etmək olar”.

Qobustanda hələ daş dövrünün müxtəlif mərhələlərində qazıntılardan keçi sümükləri tapılmışdır. Onlar vəhşi heyvan sümükləri arasında tapıldıqlarından vəhşi heyvan sümükləri kimi təqdim olunmuşdur. Əslində bu sümüklər arasındakı keçi sümükləri əhliləşdirilmiş keçiyə də aid ola bilərdi. Tədqiqatçıların əhliləşdirilmiş keçi ilə bağlı fikirlərinə əsaslanıb Qobustandan son eneolit-ilk tunc dövrünə aid Ana zağa yaşayış yerindən tapılmış keçi buynuzunun e.ə. V-IV minillikdən bir neçə əsr qədim olduğunu düşünmək olardı. Ehtimal etmək olar ki, Azərbaycanda vəhşi keçi, qoyun (muflon), vəhşi iri buynuzlu heyvan ilk dəfə dağlıq Qobustanda əhliləşdirilmişdir. İlk dəfə keçi, sonra qoyun, onunla eyni dövrdə vəhşi öküz əhliləşdirilmişdir. Zaqrosda qoyun və keçi e.ə. 8800-8900-cü illərdə əhliləşdirilmişdir (Çığqın. 2016, s. 773).

Ana zağa yaşayış yerində mədəni təbəqənin üst qatında sağ böyrü üstdə, sıx bükülü vəziyyətdə, başı şərqə tərəf dəfn edilmiş körpə uşaq skeleti aşkar edilmişdir. Onun dəfn olunduğu qəbrin forması aydın olmamışdır. Qeyd edək ki, bu qəbir Qobustanda Leylatəpə mədəniyyətinə aid uşaq dəfn edilmiş ilk torpaq qəbirdir. Məlum olduğu kimi, Ubeyd tayfaları Qafqazda məskunlaşdıqları ərazilərdə tədricən yerli adət-ənənələrin təsiri altına düşür, onlardan bir sıra inkişaf etmiş keyfiyyətlər mənimsəyirlər, Belə vəziyyət dəfn adətində də özünü göstərir. Körpələr artıq küpdə yox, torpaq qəbirlərdə dəfn edilirlər. Körpənin torpaq qəbirdə dəfnini yaşayış yerinin İlk Tunc dövrünün ilk mərhələsinin sonlarına, Kür-Araz mədəniyyətinə yaxın olmasıyla da əlaqələndirmək olar. Şimali Ubeyd mədəniyyətinin yaşayış yerlərində yaşlı insanlar yaşayış yerlərindən kənarda kurqanlarda dəfn edilmişlər. Körpə uşaqların küpdə və ya başqa gil qablarda yaşayış yerində evlərin arasında, altında dəfn edildiyi məlumdur. Cənubi Qafqazda körpələrə aid dəfn abidələri Qarabağda Leylatəpə, Ağstafada Böyük Kəsik, Muğanda Alxantəpədə, Qəbələdə Qala yeri, Qobustanda Ana zağa, Naxçıvanda Ovçulartəpəsi, Gürcüstanda Berikldeebi yaşayış yerlərində açılıb öyrənilmişdir. Alxantəpədə də öyrənilmiş uşaq qəbirlərindən biri torpaq qəbirdən ibarətdir (Ахундов, 2014). Körpələrin küpdə dəfn edilməsi adətinə Ağstafada yaşayış yerindən kənarda yaşlıların dəfn olunduğu Soyuqbulaq kurqan qəbristanlığında da rast gəlinmişdir (Мусеибли, 2005).

Leylatəpə mədəniyyəti sakinlərinin böyüklərə və körpələrə aid qəbirlərin yaşayış yerindən kənarda yerləşməsi artıq yaşayış yerlərinə aid ilk xüsusi qəbristanlıqların yarandığını göstərir.

| | 6 | с затупливающей односторонней с брюшка по 2 краям | 1 |
| II | | **Выемчатые пластины:** | **2** |
| | 7 | с выемкой у одного конца | 1 |
| | 8 | с 2 выемками по диагонали | 1 |
| III | | **Пластины с выщербинами на продольных краях:** | **22** |
| | 9 | по 1 краю со стороны брюшка | 6 |
| | 10 | по 2 краям со стороны брюшка и спинки | 16 |
| IV | | **Резцы** | **10** |
| | 11 | срединные | 2 |
| | 12 | угловые | 1 |
| | 13 | на углу сломанной пластины | 7 |
| V | | **Пластины с подтёской:** | **8** |
| | 14 | с одного конца | 2 |
| | 15 | с двух концов | 6 |
| VI | | **Отщепы с подтёской 1 конца** | **3** |
| VII | | **Отщепы с ретушью на боковых краях:** | **21** |
| | 16 | с противолежащей по 2 краям | 10 |
| | 17 | с односторонней по 1 краю со спинки | 11 |
| VII | | **Нуклеус** | **1** |
| | 18 | Конусовидный | 1 |
| IX | | **Отходы производства** | 33 |
| | 19 | Пластины и их обломки без ретуши | 8 |
| | 20 | Отщепы без ретуши | 31 |
| | 21 | Осколки | 4 |
| | | **Всего:** | **133** |

**Таблица 2**

## Типологическая классификация каменных изделий Чалагантепе

| *№ №* | *Наименование типов и подтипов орудий* | *Количество* | | | | |
|---|---|---|---|---|---|---|
| | | *1980г.* | *1983г.* | *1984г.* | *1985г.* | *Всего* |
| I | **Пластины с ретушью:** | 19 | 29 | 10 | 17 | **75** |
| 1 | по 1 боковому краю | 8 | 13 | 2 | 15 | 38 |
| 2 | по 2 боковым краям | 11 | 16 | 8 | 2 | 37 |
| II | **Кремневые пластины с заполировкой:** | 10 | 8 | 17 | 10 | **45** |
| 3 | угловой | 5 | 5 | 14 | 9 | 33 |
| 4 | краевой | 5 | 3 | 3 | 1 | 12 |
| III | **Пластины с выщербинами:** | 14 | 12 | 4 | 1 | **31** |
| 5 | по 1 боковому краю | 4 | 3 | - | - | 7 |
| 6 | по 2 боковым краям | 10 | 9 | 4 | 1 | 24 |
| IV | **Пластины с ретушированной выемкой на боковом крае:** | 4 | 1 | 1 | - | **6** |
| 7 | с одной выемкой | 2 | 1 | 1 | - | 4 |
| 8 | с двумя выемками | 2 | - | - | - | 2 |
| V | **Пластины с ретушью на конце и боковом крае:** | 1 | 3 | | 5 | **9** |
| 9 | по 1 краю и конце, с брюшка | - | 1 | - | 1 | 2 |
| 10 | по 2 краям и конце, со спинки | | 2 | - | 2 | 4 |
| 11 | на конце | 1 | - | - | 2 | 3 |
| VI | **Пластины с ретушью на боковом крае и подтеской:** | 1 | 7 | - | 3 | **11** |
| 12 | одного конца | - | 6 | - | 3 | 9 |
| 13 | двух концов | 1 | 1 | - | - | 2 |
| VII | **Отщепы с подтеской**: | 4 | 7 | - | 3 | **14** |
| 14 | одного конца | 2 | 5 | - | 1 | 8 |
| 15 | двух концов | 2 | 2 | - | 2 | 6 |
| VIII | **Отщепы с ретушью:** | 9 | 5 | - | - | **14** |
| 16 | по 1 краю с брюшка | - | 1 | - | - | 1 |
| 17 | по 1 краю со спинки | 5 | 1 | - | - | 6 |
| 18 | по 2 краям со спинки | - | 1 | - | - | 1 |
| 19 | с противолежащей по 2 краям | - | 1 | - | - | 1 |
| 20 | по 1 краю со спинки и на конце с брюшка | 1 | - | - | - | 1 |
| | по 2 краям со спинки и на конце | | | | | |
| 21 | на конце | 1 | 1 | - | - | 2 |
| 22 | | 2 | - | - | - | 2 |
| IX | **Острия на пластинах:** | - | 2 | 1 | 3 | **6** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 23<br>24 | с симметричным острием<br>с асимметричным острием | -<br>- | 1<br>1 | 1<br>- | 3<br>- | 5<br>1 |
| X<br>25<br>26 | **Резцы:**<br>угловые<br>срединные | 3<br>3<br>- | 3<br>2<br>1 | -<br>-<br>- | 3<br>3<br>- | **9**<br>8<br>1 |
| XI | **Скребки на округлых отщепах:** | - | 3 | - | 2 | **5** |
| XII | **Пластины и их сечения без следов:** | 5 | 14 | 3 | 1 | **23** |
| XIII<br>27<br>28<br>29 | **Нуклеусы:**<br>призматические<br>конусовидные<br>аморфный | -<br>-<br>-<br>- | -<br>1<br>-<br>- | -<br>-<br>-<br>- | -<br>-<br>3<br>1 | **5**<br>1<br>3<br>1 |
| | | | | | **Всего:** | **253** |

## Xülasə

## Qarabağın erkən əkinçi-maldar tayfalarının daş məmulatları.

**Roza Arazova**

Tədqiqatın əsasını Qarabağın erkən əkinçi-maldar tayfalarına aid yaşayış məskənləri olan İlanlıtəpə və Çalağantəpədən aşkar edilmiş daş materialların texniki-tipoloji baxımdan təsnifatı təşkil edir.

İlanlıtəpədə alətlərin hazırlanması üçün xammal olaraq yerli mənşəli obsidian, Çalağantəpədə isə obsidianla yanaşı, əsasən oraq dişlərinin hazırlanması üçün çaxmaqdaşından da istifadə edilmişdir.

Daş məmulatın tədqiqi nəticəsində müəyyən edilmişdir ki, yaşayış məskənlərinin sakinləri yüksək texnoloji potensiala malik idilər. Hər iki abidə də parçalama prosesində lövhə (lamella) texnikası dominant üstünlük təşkil etsə də, nadir hallarda qəlpələmə texnikası ilə hazırlanmış nümunələrə də təsadüf olunur. Alətlərin hazırlanması zamanı retuşlama daha çox yayılmış, nadir hallarda isə kəsmə qırıntı və yontalamaya təsadüf edilir.

Tipoloji analizin nəticələri alət dəstinin içərisində kütləşmiş retuşlu, az hallarda isə itiləşdirici retuşlu lövhələr, çıxıntılı (dişli) lövhələr, itiucluqlular, cilalanmış (hamarlanmış) məmulatlar və qaşovların olduğunu göstərir.

İlanlıtəpə və Çalağantəpənin daş məmulatı bir-birilərilə, həmçinin Azərbaycanın digər neolit və eneolit dövrü abidələrindən aşkar edilmiş daş məmulatı ilə oxşarlıq təşkil etsə də, bu oxşarlıqlarla yanaşı onlar lokal xarakterli fərqliliklərə də malikdirlər.

**Açar sözlər:** Yaşayış yeri, obsidion, çaxmaq daşı, alətlər, tipoloji analiz, lövhələr, rötuş, parıltı.

## Summary

### Lithic assemblages of the early farming communities of Karabakh

**Roza Arazova**

The investigation mainly contains technical-typological classification of the lithic assemblages discovered from Ilanlitepe and Chalagantepe, ancient settlements of the early farming communities of Karabakh. Tools had mainly been made by obsidian in Ilanlitepe, whereas in Chalagantepe together with obsidian, sickle elements had especially been prepared by flint.

The results of lithic investigation show highly technological progress and potential of the ancient inhabitants of these settlements. Although, lamella technique through flaking had been dominant in both ancient settlements, artifacts through knapping technique were also rarely occured. Retouching had mostly been used for making tools, but chip flaking and blading had rarely been determined.

The results of typological analysis demonstrate blunt retouched but very rarely sharpened retouched lamellas, protruding lamellas, arrowheads, polished artifacts and scrapers.

There are both similarities and local differences of the lithic assemblages from Ilanlitepe and Chalagantepe either among themselves or compared to other artifacts discovered from the Neolithic and Chalcolthic settlements of Azerbaijan.


**Keywords:** Settlement, obsidian, flint, tools, typological analysis, plates, retouch, polishing.




Таб.3. Иланлытепе. Обсидиановые изделия



Таб. 4. Иланлытепе. Обсидиановые изделия




Таб. 5. Чалагантепе. Обсидиановые изделия




Таб. 6. Чалагантепе. Кремневые пластины – вкладыши с блеском на краях.




Таб. 7. Чалагантепе. Обсидиановые изделия.

Azərbaycan Arxeologiyası Volume 24 № 2 2021, 56-66
Khazar University Press DOI: 10.5782/2218-0346.2021.24.2.56

# Göbəklitəpədən Plovdağa
## Gilan çay vadisi arxeoloji abidələrinin materialları əsasında

**Bəhlul İbrahimli, Elvin Əliyev, Günay Bayramova**
AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu
ibrahimlib@mail.ru aliyevelvin@yandex.ru
gunaybayramova296@gmail.com

**Açar sözlər:** Göbəklitəpə, Plovdağ, abidə, kult, din.

Dini təsəvvürlərin yaranması qədim cəmiyyətlərdə mənəvi mədəniyyətin inkişafında mühüm rol oynamışdır. Qədim sivilizasiyaların inkişaf etmiş aparıcı elementlərindən biri məhz onların mənəvi mədəniyyətidir. Mənəvi mədəniyyətin maddi sübutları isə ilk növbədə arxeoloqların aşkar etdikləri dini-ictimai tikililər və kult təyinatlı əşyalardır. Buraya qəbir abidələri, qədim məbədlər, eyni zamanda müxtəlif heykəllər, işarələr və s. daxildir. Qədim məbədlər fəaliyyət göstərdiyi dövrdə cəmiyyətə təkcə ideoloji baxımdan təsir etmir, həm də öz təsərrüfatı, cəmiyyətdə nüfuzu ilə iqtisadi və siyasi sahədə də mühüm rol oynayırdı.

XX əsrdə Yaxın Şərq arxeologiyasında kult memarlığı geniş tədqiq olunmuş sahələrdən biridir. Kult memarlığının iki əsas sahəsi məlumdur. Qəbilə və ya böyük ailələrin sitayiş etdikləri əcdad kultuna məxsus tikililər, digəri isə yaşayış yerlərində tikilmiş ictimai ibadət yerləridir. İctimai ibadət yerləri adətən cəmiyyətdə "Allahın evi" kimi qəbul edilirdi.

Keramikaya qədərki Neolit dövrünün ən qədim kult təyinatlı abidələrindən biri 1995-ci ildən türk-alman birgə arxeoloji ekspedisiyası tərəfindən alman arxeoloqu Klaus Şmidtin rəhbərliyi ilə tədqiq olunmuş Göbəklitəpə məbəd kompleksidir. Abidə Şanlı Urfadan 15 km şimal-şərq tərəfdə, təpəlik ərazidə yerləşir. Kompleksin yerləşdiyi təpələrin hündürlüyü 15-20 m, abidənin diametri isə 300 m-dir (8).

Maraqlıdır ki, çoxlu sayda, müxtəlif planda tikililəri olan Göbəklitəpədə qədim insanların məişətinə aid heç bir tapıntı (ocaq yeri və s.) əldə olunmamışdır. Əldə edilən materiallar bu meqalitik kompleksin ritual məqsədlər üçün tikildiyini sübut edir. K.Şmidtin fikrinə görə Göbəklitəpə yığıcı-ovçuların müqəddəs yeri olmuşdur. T.V.Kornienkonun fikrincə, Göbəklitəpə dağ-

larda tikilmiş, böyük əraziyə malik qəbilələrarası ritual kompleksdir. Hündür stelaların mövcudluğu göstərir ki, heç də kompleksin otaqlarının hamısının üstü örtülməmiş, bəzi otaqların üstü açıq olmuşdur (7, s.72).

Abidədə diqqəti cəlb edən "T" formalı, şaquli basdırılmış stelalardır. K.Şmidt onları allahların və totem ruhların simvolu kimi qeyd edir. Məlumdur ki, zaman baxımından Göbəklitəpədən çox uzaq olan antik dövrdə də belə daş və ağac formasında olan allahlara sitayiş edilmişdir. (7, s.38).

Sitayiş yerlərində stelaların qoşa olmasına qədim dünyanın bir çox abidələrində rast gəlinir ki, bu da mifoloji düşüncənin dualist (ikili) xarakteri ilə bağlı olmuşdur.

Göbəklitəpə tipli abidələrin hansı dövrə qədər fəaliyyət göstərdiyi haqqında, hələlik elmdə dəqiq bir fikir yoxdur. Lakin, son illərdə Naxçıvan ərazisində aparılmış arxeoloji tədqiqatlar nəticəsində Tunc dövrünün Erkən və Son mərhələlərinə aid oxşar abidələrin aşkar olunması bu barədə müəyyən fikir söyləməyə imkan verir.

Tədqiq olunan abidələri quruluşuna görə iki qrupa bölmək olar. Onlardan birinci qrup abidələr sadə quruluşa malik olub, yanı üstə qoyulmuş sal daşlarla bir cərgə dairəvi planda işlənmisdir, bir tərəfdən girişi vardır. Diametri 3m-dən çox deyil. Quruluşundan aydın olur ki, onların divarları çox da hündür olmamış, üstü örtülməmişdir. Bu tikililərə Tunc dövrünə aid nekropolların şərq tərəfində, qəbirlər qurtaran yerdə, onların lap yaxınlığında rast gəlinir.

Belə tikililərdən biri II Plovdağ nekropolunun şərq tərəfində, kurqan tipli qəbirlərin lap yaxınlığında aşkar olunmuşdur. Bu tikililərin təyinatını dəqiq müəyyən etmək çətindir. Amma, nekropolda – qəbirlərin yanında tikilməsi onların qəbir abidələri ilə, dəfn adəti ilə bağlı bir kult tikilisi olduğuna dəlalət edir.

İkinci qrup abidələr kult təyinatlı dini komplekslərdir. Belə bir dini kompleks 2012-ci ildə Plovdağın sayca III nekropolunda aşkar olunmuşdu. III nekropolun yerləşdiyi "Qılçıqlı dərə" adlanan yer, cənub tərəfindən başqa üç tərəfi də dağlarla əhatəli bir dərədir. "Qılçıqlı dərə" Orta Tunc dövrünə aid II Plovdağ nekropolu ilə e.ə. VIII-VI əsrlərə aid Muncuqlutəpə nekropollarının arasında yerləşir. III Plovdağ nekropolunu Muncuqlutəpə nekropolundan hündürlüyü 45-50 m olan bir dağ ayırır. Abidələr dərənin içərisində, qismən də dağların yamacında yerləşmişdir. Nekropolun şimal yarısı daş qutu qəbirlərdən (4), cənub yarısı isə kurqanlardan ibarətdir. (3, s. 150-154). Plovdağda aparılan tədqiqatlar göstərir ki, əcdadlar kultu ilə bağlı dini kom-



**Şəkil 1**. III Plovdağ nekropolunda kult təyinatlı dini kompleksin mərkəzi tikilisi.

plekslər ya nekropolların kənarında, ya da nekropolla yaşayış yerinin arasında yerləmişdir.

Kult təyinatlı dini komplekslər mərkəzində dairəvi tikili və onu hər tərəfdən əhatələyən dairəvi və dördbucaqlı (şərq tərəfdə) planda qurulmuş "qurbangah"lardan ibarətdir. Bu komplek xarici görünüşünə görə kurqanları xatırladır. Güclü dağıntıya məruz qalmışdır.

Daxildən diametri 3,5-3,4 m-dir. Divarının eni bəzi yerlərdə dağ daşlarının ölçüsündən asılı olaraq 70 sm-ə qədər, bəzi yerlərdə isə 30 sm-dir. Tikilinin mərkəzi hissəsi – divarı ətraflara nisbətən hündürdür. Ortasında kiçik yastı daşlar palçıqla qat-qat döşənmişdir. Palçıq xüsusi qatqılarla yoğrulduğu üçün çox möhkəmdir. Dairəvi tikilinin daş döşəməsinin üçdən bir hissəsi şimal tərəfdə saxlanmışdır. Qalan yerləri nə vaxtsa dağıdılmışdır. Tikilinin qərb tərəfində divarın bir neçə daşı sökülmüş, lakin kənara atılmamışdır. Bu hadisə ehtimal ki, ya orta əsrlərdə (islam dövründə), ya da son əsrlərdə baş vermişdir. Belə ki onu törədənlər tikilinin qəbir olduğunu düşünmüş, onu qarət etməyə cəhd etmişlər, lakin, heç nə tapmamışlar. Dairəvi tikilinin içərisinin şərq yarısını – döşəmənin dağıdılmış hissəsini materikə qədər təmizlədik. Qazıntı zamanı qəbir izi - kameranın hər hansı bir daşı və ya



**Şəkil 2**. Dini kompleksin aksonometrik planı.

torpaq qəbirin küncü, sümük qalığı, keramika fraqmenti, muncuq və s. aşkar olunmadı. Yuxarıda qeyd etdiyimiz kimi daş döşəmənin bir hissəsi şimal tərəfdə saxlanmışdır və əgər, burada qəbir olsaydı, onun bir tərəfi bu döşəmənin altında olmalı idi. Lakin, burada dəfnə aid heç bir əlamət izlənmədi. Bir sözlə bu tikili dəfn abidəsi deyil!

Sual doğuran tikilinin döşəməsinin bəzi yerlərdə 50 sm qalınlığında olmasıdır. Dairəvi tikilinin şimal tərəfində aparılan qazıntılar zamanı iki daş stelanın aşkar olunması bu suala aydınlıq gətirdi. Görünür, bu daş stelalar dairəvi tikilinin içərisində döşəməyə şaquli vəziyyətdə basdırılmış, nə vaxtsa qəbir dağıdılan vaxt sökülərək kənara atılmışdır.

Qurbangahlar dairəvi tikilinin hər tərəfində, ona bitişik işlənmişdir. Şərq tərəfdəki qurbangahlar dördbucaqlı, qalan yerlərdəki qurbangahlar dairəvi planda qurulmuşdur. Dairəvi tikiliyə bitişik sıradakı qurbangahların döşəməsi ikinci sıra qurbangahların döşəməsindən 25-30 sm hündürdə yerləşir. Qurbangahların yerinə sal daşlar döşənmiş, divarları dağ daşları ilə qurulmuşdur. Divarları dağıldığı üçün onların ilkin hündürlüyünün nə qədər olduğunu öyrənmək mümkün deyil. Yalnız, şimal tərəfdə üç qurbangahın dairəvi tikiliyə bitişik hissəsi 38-40 sm hündürlüyündə saxlanmışdır. Dairəvi tikilinin və onu əhatələyən qurbangahların üstünün örtülüb-örtülməməsi haqqında da dəqiq fikir söyləmək çətindir. Lakin, divarların quruluşu (alçaq olması, tək daşla işlənməsi) kompleksin mərkəzindəki tikilinin üstü açıq, qurbangahların isə üstü örtülü olduğu ehtimalını söyləməyə imkan verir. Bu ehtimalı

gücləndirən şərq tərəfdəki dördbucaqlı qurbangahdan bir ədəd çəhrayı gilli, yarımsferik formalı, düz oturacaqlı, ağzı azca içəri əyilən boşqab tipli qabın aşkar olunmasıdır. Qab qurbangahın üstünə qoyulmuş sal daşın altında idi. Bu fakt dördbucaqlı planda qurulmuş qurbangahların üstünün örtüldüyü ehtimalı təsdiq edir.

Zaman-zaman dağın zirvəsindən axan yağış və qar suları kompleksin üstünü açmış, görünən abidə dağıntıya məruz qalmışdır. İlk dağıdılan da stelaların sökülərək kənara atılması olmuşdur.

Bu tikilinin özü də, ətrafındakı qurbangahlarla birlikdə, iri həcmli dağ daşları ilə işlənmiş böyük bir dairənin və ya aypara formalı tikilinin mərkəzində yerləşir. Böyük dairənin də (ayparanın) ətrafında ona bitişik, bəziləri də divarın üstündə yerləşən dairəvi və dördbucaqlı planda tikililər – qurbangahlar vardır. Böyük dairənin qurbangahları da mərkəzdəki qurbangahlardan böyükdür. Təəssüf ki, böyük dairəvi tikili yalnız şimal tərəfdə saxlanmışdır, yaxud da tikili dairəvi planda deyil, aypara formasında olmuşdur. Güman edirik ki, növbəti qazıntılar kompleksi tam şəkildə açmağa imkan verəcək və onlar arasındakı sahədə hansı tikililərin olduğu müəyyən ediləcəkdir. Hələlik, şimal tərəfdə - mərkəzdəki tikili ilə böyük dairə arasındakı sahədə kromlex içərisində kiçik dördbucaqlı planda sal daşlarla qurulmuş kiçik kamera, şərq tərəfdə isə iri həcmli dağ daşları ilə qurulmuş, təqribən qurbangahlar ölçüsündə dairəvi tikili aşkar edilmişdir. Qeyd edilən tikililərin təyinatını müəyyən etmək hələlik mümkün deyil.

Öz kökünü kurqanlardan alan əcdadlar kultu ilə bağlı tikililər və bu tikililərin inkişaf etmiş forması olan qədim məbədlər öz quruluşuna görə yaşayış evlərinin inkişaf etmiş formasıdır. Bu oxşarlığı Maxta yaşayış yerinin 6-cı kvadratında aşkar edilmiş, ətrafında perimetr üzrə kiçik dördbucaqlı otaqlar olan böyük tikili bir daha təsdiq edir (1, s. 87-96). Qədim cəmiyyətdə dini ideologiya inkişaf etdikcə əsdadlar kultu üçün tikilən sitayiş yerlərini allahlar üçün tikilən məbədlər əvəz etmişdir. Qeyd etmək lazımdır ki, əsdadlar kultu üçün tikilən sitayiş yerləri yaşayış evlərindən kənarda, xüsusən qədim nekropolların şərq – gün çıxan tərəfində tikilirdi. Bu səbəbdən də onların arxeoloji qazıntılar zamanı aşkar olunması, aşkar edilən tikililərin təyinatının müəyyən edilməsi bir qədər çətindir. Amma, məbədlər yaşayış yerinin ən yaxşı yerində, yaxud mərkəzində inşa olunurdu. Əcdadlar kultu dini komplekslərinin yaşı məbədlərdən çox qabaq olsa da, uzun müddət hər iki tip kult kompleksi paralel olaraq da fəaliyyət göstərmişdir.

Bu sahədə arxeoloji tədqiqatların azlığına görə, hələlik, Azərbaycanda xüsusi kult təyinatlı tikililərin yarandığı dövrü və şəraiti geniş şəkildə işıqlandırmaq mümkün deyil. Ona görə də yeni aşkar olunmuş kult təyinatlı dini memarlıq abidələrini yaxın regionlarda yaxşı tədqiq olunmuş analoji abi-dələrlə müqayisəli təhlil vasitəsilə öyrənmək daha məqsədəuyğundur. Uzun bir xronoloji dövrdə bu ərazilərdə eyni dini ideologiyanın mövcudluğu da buna imkan verir. Xüsusən, Anadoluda, Urmiya ətrafında və Naxçıvanda yaşayan qədim tayfalar keramikaya qədərki neolitdən başlayaraq min illərlə eyni inanc sisteminə malik olmuşlar. Ona görə də bu regionlarda aşkar olunmuş dini memarlıq abidələrinin ardıcıl olaraq kompleks şəkildə tədqiqi problemin həllində mühüm rol oynayacaqdır.

III Ploovdağ nekropolunda aşkar olunmuş əcdadlar kultuna aid dini kompleks mahiyyətcə Göbəklitəpə ilə eyni inanc sisteminə daxildir. Göbəklitəpədə aşkar olunan daş stelaların təyinatı tam müəyyən edilməmişdir. Məlumdur ki, abidənin alt təbəqələrində aşkar edilmiş stelaların hündürlüyü 3 m-dən artıq olduğu halda, yuxarı təbəqələrdəki stelaların hündürlüyü ondan iki dəfə az – 1,5 m-ə yaxın olmuşdur (5, s.70). Belə bir ehtimal irəli sürmək olar ki, bu stelalar ayrı-ayrı qəbilələrə aid olmuş, həmin qəbilənin adamları dini ayinləri bu stelanın ətrafında yerinə yetirmişdir. III Plovdağ nekropolundakı əcdadlar kultu kompleksində yuxarıda qeyd etdiyimiz kimi iki daş stela vardır.

Klaus Şmidt Göbəklitəpəni ölülər kultu ilə bağlı monumental bir abidə hesab edir (7, s.125). Bu möhtəşəm abidə uzun zaman ərzində yaranmışdır. T.V.Kornienko Klaus Şmidtinin kitabına yazdığı “Sözardı”nda qeyd edir ki, Göbəklitəpənin tədqiqatçıları belə bir nəticəyə gəlmişlər ki, bu kult mərkəzinin yaranmasında böyük bir regionda yaşayan qəbilələrin bir neçə nəsli iştirak etmişdir (5, s. 311).

Qeyd etdiyimiz kimi, III Plovdağda aşkar edilmiş əcdadlar kultu ilə bağlı dini kompleksi təyinatına və quruluşuna görə Göbəklitəpə abidəsi ilə bir qrupa aid etmək olar. Göbəklitəpə bu inancı daşıyanların mərkəzi məbədi, III Plovdağdakı kompleks isə periferiyada yaşayan və eyni inancı daşıyan kiçik bir qəbilənin və ya bir neçə qəbilənin dini abidəsidir. Məcazi mənada müqayisə etsək, onlar arasındakı fərq Sultan Əhməd camesi ilə bir kənd məscidi arasındakı fərq qədərdir. Çox güman ki, Naxçıvanda yaşayan qədim tayfaların da nümayəndələri ilin müəyyən vaxtında – ola bilsin ki, yaz bayramında Göbəklitəpəni ziyarətə gedirmişlər.

Bu abidələr günəş və ay kultları ilə sıx bağlı olan abidələrdir. Məhz bu dini ideologiyanın sonrakı inkişaf mərhələsində tanrıçılıq dini meydana gəlmişdir. Bu dinin daşıyıcıları olan qədim qəbilələr hələ, Paleolit dövründə Xəzər dənizi ətrafında mütəmadi olaraq köçlər etmiş, köç müddətində bəzi bölgələr onların uzun müddətli dayanacaq nöqtələri olmuşdur. Köçlərin istiqaməti həmişə bir olmamış, obyektiv və subyektiv səbəblərdən qərbdən şərqə, şərqdən qərbə, cənubdan şimala, şimaldan cənuba olaraq dəyişmişdir. Son üç min ildə baş vermiş köçləri, miqrasiyalar nəticəsində arxeoloji mədəniyyətlərin yayılmasını təhlil etdikdə bu böyük köçlərin bəşər tarixində bir qanunauyğunluq təşkil etdiyini görərik. Bəşər tarixində birdəfəlik köçlər və ən azı hər minillikdə bir dəfə eyni istiqamətdə və ya əksinə hərəkət edən köçlər olmuşdur. Təkrarlanan köçlərin min illərlə yaddan çıxmayan marşrutu olmuşdur. Bu köçləri həyata keçirən qəbilələr bəzən marşrutdan kənara çıxmış, digər qəbilələrin məskunlaşdığı ərazilərə axınlar etmişlər. Keramikaya qədərki neolit dövründən başlayaraq bu axınların izlərini müəyyən etmək mümkündür. İstər, qədim sivilizasiyanın mərkəzi sayılan Mesopotamiyada, istərsə də ondan çox-çox uzaqlarda tanrıçılıq dininin yayılması bu axınların nəticəsində baş vermişdir. Son üç min ildə, yazılı mənbələrin də təsdiq etdiyi kimi, bu köçlərin aparıcı qüvvəsi qədim türk tayfaları olmuşdur. Qədim türk tayfaları köç yolları üzərində olan tayfaların da fəal hissəsini hərəkətə gətirmiş, onlar da köç etməyə məcbur olmuşdur. Burada sual doğuran məsələ həmin tayfaların qədim köç yolları üzərində necə və nə zaman məskunlaşmasıdır. Qədim qəbilələrin total yerdəyişməsinə Ümumdünya su basması (Nuhun tufanı) hadisəsi əsas səbəb olmuşdur. Beləliklə, mərkəzi məbədi Göbəklitəpə olan əcdadlar kultunun evolyusion inkişafı nəticəsində yaranan ilk təkallahlılıq tanrıçılıq dini ideologiyası, əsasən Ön Asiyada, Anadoluda, Qafqazlarda, Urmiya gölü ətrafında, Şimali Qara dəniz sahillərində, Uralda, Altaylarda və Mərkəzi Asiyada yaşayan qədim qəbilələr arasında yayılmışdır. Plovdağda aşkar olunmuş dini sitayiş yerləri və məbədlər bu dinin Cənubi Qafqazda islama qədər davam etdiyini söyləməyə əsas verir. Bu dinin əlamətləri Azərbaycan türklərinin dilində, şifahi xalq yaradıcılığında və məişətində bu gün də yaşamaqdadır.

III Plovdağ nekropolundakı Son Tunc-Erkən Dəmir dövrünə aid əcdadlar kultu sitayiş kompleksi e.ə. I minilliyin ortalarına qədər fəaliyyət göstərmişdir. Əgər, atalar (əcdadlar) kultu ilə bağlı dini inanc sistemi Naxçıvan, Urmiya ətrafı və Şərqi Anadolu bölgələrində eneolit dövründən e.ə. I minilliyin ortalarına davam etmişsə, deməli, III Plovdağ nekropolundakı kult

təyinatlı dini kompleksə oxşar abidələr bu ərazilərdə həmin dövrlərdə yayılmış olmalıdır. Doğrudan da, tədqiqatlar genişləndikcə əcdadlar kultu ilə bağlı aşkar olunmuş dini sitayiş yerlərinin sayı da artır. Əlbəttə, bu dini sitayiş komplekslərinin hamısı Göbəklitəpə kimi möhtəşəm deyildir, lakin onlar bir çox cəhətdən xüsusən, plan quruluşuna görə oxşardırlar. Bu oxşarlıq, özünü daha çox mərkəzdə yerləşən dairəvi tikilidə, onu əhatələyən ya dairəvi, ya da dördbucaqlı tikililərdə, daş stelalarda göstərir. Dini sitayiş komplekslərinin daxili quruluşu kurqanların daxili quruluşunu təkrarlayır ki, burada əsas elementlər mərkəzdəki dairəvi tikili və ona aparan dəhlizdir (dromos).

Göbəklitəpə abidəsinin üstünün məqsədli şəkildə örtülməsinə gəldikdə, bu da kurqan gələnəyi ilə səsləşir. Əgər, qədim insanlar kurqanda yatan şəxsi “o dünyaya” yola salıb üstündə müqəddəs tikili – təpə ucaldırdılarsa, əcdadlar dininin daşıyıcıları da uzun yola köç etdikdə dini kompleksin üstünü məqsədli şəkildə basdırmışlar.

Son illərdə aparılan genetik tədqiqatlar Türk tayfalarının genetikasına aid mühüm faktlar üzə çıxarmış, bu faktlar və həmin tayfalara məxsus maddi mədəniyyətin ardıcıl tədqiqi Altay nəzəriyyəsinin əslində heç bir elmi əsasının olmadığını sübut etmişdir. R1a və R1b Y – xromosomlarının Şərqə doğru «səyahətə» Anadolu və Cənubi Azərbaycandan başladıqlarını, bu haploqrupların daşıyıcılarının Qafqaz və Balkanlar üzərindən keçərək, öncə Qafqazda və Avropada məskunlaşdıqlarını, yalnız bundan sonra üzlərini Şərqə tutaraq, Cənubi Sibir, Monqolustan, Altaylar və Şərqi Türküstana çatdıqlarını söyləməyə tam əsas verir (2 s. 402).

Yeri gəlmişkən, qeyd edək ki, qədim türklərin “Ana Vətəni” haqqında indiyə qədər elmdə mövcud olan nəzəriyyələrin heç biri – nə Altay, nə Urmi, nə Kiçik Asiya nəzəriyyələri özünü doğrultmamışdır. Bu haqda həqiqətə uyğun ən düzgün ideya L.Qumilyova məxsusdur. O, sovet sisteminin qəzəbindən qorxaraq tam şəkildə ifadə etməsə də, “Qədim türklər”, “Min il Xəzər ətrafında” kitabları ilə qədim türklərin ana vətəninin harada olduğunu aydın şəkildə ifadə etmiş, göstərmişdir. Sonrakı tarixçilərə yalnız, “min il” sözünə “lər” cəm şəkilçisini artırmaq qalır. Yəni, qədim türk tayfaları min illərlə Göbəklitəpədən Tanrı dağlarına, İtil çayından Xorasana və əksinə köçlər etmiş bu coğrafiyanı öz vətənləri saymışlar. Gücləndikcə bu coğrafiyadan kənarlara – cənub-qərbdə Mesopotamiyaya, Misir tərəflərinə, şimal-qərbdə Şərqi Avropa çöllərinə, cənubda Hindistanın, Çinin içərilərinə, şərqdə Koreyaya, Yaponiyaya, Sibirdən keçib Alyaskaya, şimalda Britaniya adalarına, Buzlu okeana qədər axınlar etmiş, mədəniyyətlər yaratmış, öz izlərini

buraxmışlar. Hara gedirlərsə, getsinlər, Xəzər və ətrafı bu tayfaların "Ana vətəni" olmuşdur. Daha çox, şərqdə Altaylar, qərbdə isə Şərqi Anadolu qədim türklərin daha çox və daha uzun müddətə məskunlaşdığı, neolit dövründən isə oturaq həyata keçdikləri bölgələr olduğundan "Ana vətən" nəzəriyyələri də bu əsasda yaranıb inkişaf etmişdir. Qədim türk tayfalarının yaşadıqları və daimi hərəkət etdikləri coğrafiyanı genetik tədqiqatların nəticələri və arxeoloji mədəniyyətlərin hərtərəfli öyrənilməsi ilə müəyyən etmək mümkündür. Türk respublikalarının bir çoxunda bu artıq istiqamətdə elmi tədqiqatlar aparılır və yaxın gələcəkdə əsaslı elmi nəticələr əldə olunacaqdır.

Ədəbiyyat

1. Aşurov S.H., Baxşəliyev V.B., Hüseynova S.A., Əliyeva F.A. I Maxta qədim yaşayış yerində arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar. 2011. Bakı, AFPoliqrAF, 2012, s. 87-96.
2. Bəxtiyar Tuncay. Kurqanlarda yatan mifoloji təfəkkür və genetik tariximiz. Bakı, Elm və təhsil, 2018, 472 s.
3. İbrahimli B.İ., Qədirzadə Q.İ., Xəlilov T.F. Plovdağın yeni aşkar edilmiş III nekropolu. Azərbaycanda arxeoloji tədqiqatlar. 2012. Bakı, AFPoliqrAF, 2013, s. 150-154.
4. İbrahimli B.İ., Qədirzadə Q.İ., Səfərli F.Y., Xəlilov T.F., İbrahimova C.F., Həsənova L.N. 2015-2016-cı illərdə Plovdağ arxeoloji abidələr kompleksində arxeoloji tədqiqatlar. Azərbaycanda arxeoloji tədqiqatlar. 2015-2016. Bakı, AFPoliqrAF, 2017, s. 155-169.
5. Корниенко Т.В. Первые храмы Месопотамии. Формирование, традиции культового строительства на территории Месопотамии в дописьменную эпоху / отв. ред. Н.Я.Мерперт. – СПБ. Алетейя, 2006. – 312 с.
6. Лосев А.Ф. Античная мифология в ее историческом развитии. Москва: Учпедгиз, 1957, 620 с.
7. Шмидт Клаус. Они построили первые храмы. Таинственные святилища охотников каменного века. Археологические открытия в Гёбеклитепе / перевод с нем. А.С.Пащенко; отв. ред., прим. и послесл. Т.В.Корниенко. Санкт-Петербург, Алетейя, 2011. – 320 с.
8. https://tr.wikipedia.org/wiki/G%C3%B6beklitepe

## Summary

## From Gobeklıtepe to Plovdag

**Bahlul Ibrahimli, Elvin Aliev, Gunay Bayramova**


For many years, despite extensive archaeological research in the South Caucasus, in South Azerbaijan, in Central Asia, in the Altai Territory and in other regions where ancient Turkic tribes lived for many centuries, large religious buildings have not been found. The discovery and excavation of Gobekli Tepe in Turkey opened new pages in the study of the history and culture of the ancient tribes. This religious and cult complex has retained its original appearance, despite its 12 thousand years of age. This was facilitated by the fact that the ancient people, for some reason, buried a religious and cult complex with a layer of soil.

It is interesting that similar monuments were found on the territory of Nakhchivan, which is geographically close to Eastern Anatolia. On the left bank of the Gilanchay, on the declivious downhills of Plovdag, there are several necropolises and settlements that cover the period from the Late Eneolithic (mid-4th millennium) to the middle of the 1st millennium BC. On the eastern outskirts of the Plovdag III necropolis, a religious and cult complex of the Late Bronze Age - Early Iron Age was discovered. The complex consists of a central circular room and small round and quadrangular structures framing it. Near the entrance, two stone steles were found, about 1.7 m high. The complex itself is located in the center of a wide semicircular wall with "sacrificial" chambers. According to the plan and purpose, the cult-religious complex at the Plovdag III necropolis belongs to the group of monuments of Gobekli Tepe.


**Keywords:** Gobeklitepe, Plovdag, monument, cult, religion.

## Резюме

## От Гёбеклитепе до Пловдага

**Бахлул Ибрагимли, Эльвин Алиев, Гюнай Байрамова**

Долгие годы, несмотря на обширные археологические исследования на Южном Кавказе, в Южном Азербайджане, в Центральной Азии, в Алтайском крае и в других регионах, где многие века жили древнетюркские племена, не обнаружены крупные религиозные постройки. Открытие и раскопки Гёбеклитепе в Турции открыли новые страницы в изучении истории и культуры древних племен. Этот религиозно-культовый комплекс сохранил свой первичный вид, несмотря на свой 12-ти тысячелетний возраст. Этому способствовало то, что древние люди по какой-то причине закопали слоем земли религиозно-культовый комплекс.

Интересно, что аналогичные памятники обнаружены на территории Нахчывана, географически близко расположенного с Восточной Анатолией. На левом берегу Гилянчая, на пологих склонах Пловдага расположены несколько некрополей и поселений, которые охватывают период от позднего энеолита (середины IV тысячелетия) до середины I тысячелетия до н.э. На восточной окраине некрополя Пловдаг III был обнаружен религиозно-культовый комплекс эпохи поздней бронзы - раннего железа. Комплекс состоит из центрального круглого помещения и обрамляющих его круглых и четырёхугольных сооружений маленького размера. Рядом с входом обнаружены две каменные стелы высотой около 1,7 м. Сам комплекс расположен в центре широкой полукруглой стены с «жертвенными» камерами. По плану и назначению культово-религиозный комплекс на некрополе Пловдаг III относится к группе памятников Гёбеклитепе.

**Ключевые слова**: Гёбеклитепе, Пловдаг, памятник, культ, религия.

Volume 24 № 2 2021, 67-74
DOI: 10.5782/2218-0346.2021.24.2.67

# Naxçıvan bölgəsinin iki şəhəri Aşşur mətnlərində

**Allahverdi Əlimirzəyev**
AMEA Abbasqulu Ağa Bakıxanov adına Tarix İnistutu
alimirzoev.60@mail.ru

**Açar sözlər***:* Qədim Naxçıvan, mixi yazılar, qədim şəhərlər, Nairi ölkələri, Aşşur-Azərbaycan əlaqələri.

Mixi yazılı kitabələr Azərbaycanın miladaqədərki tarixinin örənilməsində əvəzsiz ilk mənbələrdir. Onların toplanması, tərcümə olunması və təhlil edilərək elmi ictimaiyyətə çatdırılması həmişə diqqət mərkəzində olub. Mixi yazılı ilk mənbələrin cüzi bir qismi Arazdan şimaldakı tarixi torpaqlarımızda baş verənlər haqqında məlumata malikdir. Təqdim olunan məqalədə Şərur və Kilan (və ya Kiran) şəhərlərinin xatırlandığı Aşşur mətnləri nəzərdən keçirilir.

1. Aşşur hökmdarı Tukulti-apal-eşarranın (I Tiqlatpalasar; e.ə. 1114-1076-cı illər) salnaməsi silindr formalı gil əşya üzərinə həkk olunub. Əşya XIX əsrin ortalarında Britaniyanın İraqdakı konsulu Ostin Henri Leyard tərəfindən Kalat-Şerkət şəhərciyindən tapılmışdır. Salnamədə diqqət çəkən məlumatlardan biri Aşşur dövlətinin təcavüzkar siyasətinə qarşı Anadolunun şimal-şərqində yaradılmış “Nairi ölkələri” (mətnlərdə: **KUR. MEŠ. Nairi**) koalisiyası ilə hərbi əməliyyatlara həsr olunub. Etnik tərkibi əsasən hurrilərə qohum tayfalardan ibarət olan bu koalisiya müəyyən vaxtlarda 60, bəzən də 43 subyektlə (mətnlərdə onlar **mātu** “ölkə” kimi təqdim olunurlar) çıxış edirdi. Aşşurdan şimalda və şimal-şərqdə yerləşən irili-xırdalı siyasi qurumlar bu konqlomeratda birləşmişdi. E.ə. IX əsrdə bu konqlomerat Urmiya gölündən cənubda yerləşən Daxili Zamua, Missi, Qizilbunda vilayətlərini də əhatə edirdi. I Tiqlatpalasarın zamanında koalisiyanın tərkibindəki ”ölkələrin” sayı 23-ə düşsə də əhatə etdiyi coğrafi areal cənubda Diyarbəkirdən şimala doğru Çorox vadisinədək uzanırdı (3, c.97, 99, 104, 146). Nairi koalisiyasına daxil olan subyektlərin vahid mərkəzə tabeçiliyi nomunal xarakter daşıyırdı.

I Tiqlatpalasarın salnaməsində, I sütunun 49-83-cü sətirlərində sadalanan subyektlər arasında 15-ci mövqedə yer alan “ölkə” diqqət çəkir; onun adı mixi hecalı işarələrlə **Šu-ru-ri-a** (mixi yazıların transliterasiyasında **-Š-**

fonemi dilimizdəki -**Ş**- səsinə uyğundur) formasında yazılıb (6, text A.O.87.1). Salnamənin şəkil 1-də verilən fraqmentində Himua, Paiteri, Uiram, Şururia, Abaeni, Adaeni, Kirini, Albaia ölkələrinin hökmdarları (**šarrum**; adları göstərilmir) xatırlanır.



Şəkil 1. I Tiqlatpalasarın salnaməsindən fraqment (4, pp.66-67).

2012-ci ildə Naxçıvan şəhərində keçirilmiş beynəlxalq simpoziumda **Šu-ru-ri-ia** yazılışı ilə ifadə olunan toponimin Şərurla əlaqələndirilməsini və hurri-biayni dillərindən tərcümədə "Silah düzəldilən yer" kimi mənalandırılmasını təklif etmişdik (1, s.112-113).

2. Berlindəki Yaxın Şərq muzeyində (Vorderasiatische Museum) 2 hissədən ibarət VAT 18190 + 19203 inventar nömrəli gil kitabə saxlanır. Fraqmentlər alman arxeoloqları tərfindən İraqın Səlahəddin əyalətində, Tulul-əl-Akar qəsəbəsində (qədim Kar-Tukulti-Ninurta; "Tukulti-Ninurtanın ticarət koloniyası") tapılıb. Kar-Tukulti-Ninurta şəhəri o zaman tanrı Aşşurun yeni ibadət mərkəzinə çevrilmişdir.

İşarələrin paleoqrafiyasına əsasən, bir növ mədaxil qaiməsinmi xatırladan bu təsərrüfat mətnini e.ə. I minilliyin birinci sülsünə, böyük ehtimalla II Tukulti-Ninurtanın dövrünə (e.ə. 891-884-cü illər) aid etmək olar. Mətndə (bax: şəkil 2) Katmuhi (digər mətnlərdə Kutmuhi) ölkəsinə (Anadoluda, Tur-Abdin dağlarından şimalda; o zaman artıq Aşşur əyalətinə çevrilmişdi) 7 müxtəlif şəhərdən (**Ha-i-du-ri**, **Şu-hu-ti-pu**, **Šu-ru-ri-a**, **Ki-la-ni**, **Mi-es-ki-lu**, **Ni-it-tak-ku**, **Te-har-ha-ni-be**; bu şəhərlər çərçivədə göstərilir) iri və xırdabuynuzlu heyvanların gətirilməsinin uçotu aparılıb. Haiduri toponimi Urartu mətnlərində dəfələrlə xatırlanan Uduri etno-politonimi ilə (Göyçə gölünün şərq hövzəsinə şamil olunurdu) eyniləşdirilə bilər. Kilani toponimi isə ola bilsin ki, I Tiqlatpalasarın salnaməsində Ki-ri-ni vilayət adı ilə (23 "Nairi ölkəsi"ndən biri) eyniləşdirilməli və XIII əsrdə dağıdılmış Kiran (və ya Gilan, Giran) şəhərinin adının praforması sayılmalıdır. Vaxtı ilə Ordubad rayonunun Kələntər Dizə kəndi yaxınlığında mövcud olmuş Kiran şəhərinin xarabalıqları hazırda "Xarabagilan" adı ilə tanınır. Şəhərin ərazisindəki

təpələrdə salınmış nekropollardan Plovdağda e.ə. III minilliyin sonuna, Muncuqludan, Xalıkeşandan, Mərdangöldən və Dəlmədən e.ə. I minilliyin birinci yarısına aid zəngin maddi mədəniyyət nümunələri aşkara çıxarılıb. Nekropolların e.ə. XIV-VII əsrlərə aid edilən təbəqələrindən xeyli sayda dəyərli artefaktlar (tunc və dəmir əmək alətləri, xeyli sayda serdolik muncuqlar, tunc qolbağlar, sırğalar, müxtəlif formalı keramik qabların qırığları və sümük fraqmentləri, hurri incəsənətinə xas olan silindrik möhür, xəncər, ox ucluqları və s.) üzə çıxarılmışdır. Bu tapıntılar Urmiya hövzəsinin həmdövr məntəqələrindən (Dinhətəpə III-II, Həsənli V-IV, Göytəpə B) əldə olunmuş analoji artefaktlarla eynilik təşkil edir (2, c.7-47)



Şəkil 2. Aşşur təsərrüfat mətnindən fraqment (5, № 65).

Nəzərdən keçirdiyimiz Aşşur təsərrüfat sənədində Şururia şəhərindən (**URU**. ideoqramı; akkadca oxunuşu **ālu**) 23, Kilani şəhərindən 38 baş öküz gətirildiyinə dair məlumat verilir (5, № 65).

3. Aparılan sistemli arxeoloji qazıntılar e.ə. II minilliyin sonu-I minilliyin əvvəllərində (Dəmir dövrünün birinci mərhələsi) Şərur bölgəsinin ictimai həyatında böyük dəyişikliklərin baş verdiyini üzə çıxardı. Tayfadaxili münaqişələr, xarici müdaxilə urbanizasiya dövrünü yaşayan Şərurda sahəsi 3-10 ha arasında dəyişən yaşayış məsknlərinin (Oğlanqala, Şahtaxtı Govurqalası, Qarasu qalası və s.) müdafiə qabiliyyətinin artırılmasını zəruri etmişdir. Qala-şəhər tipli bu məntəqələrdən ən möhtəşəmi – Oğlanqala – Qaratəpə dağının zirvəsində salınmışdır. Ümumi sahəsi təqribən 40 ha olan Oğlanqalanın mərkəzində Narınqala yerləşir. Onun divarları yonulmamış iri ölçülü sal daşlardan, bərkidici məhlul olmadan inşa edilib. Qala tikinti texnikasına görə Van və Urmiya gölləri hövzələrində salınmış urartululara məxsus qalaları

xatırladır. Urartunun hüdudlarına yaxınlıq Oğlanqalanın ictimai həyatına təsirini göstərmişdir. Bu təsir həm tikinti texnikasında, həm də tapılan keramikanın formal əlamətlərində özünü büruzə verir. Ən maraqlı tapıntı üzərində mixi işarələr yazılmış təsərrüfat küpünün parçalarıdır (bax: şəkil 3). Hesab edirlər ki, bu tapıntı Oğlanqalanın sakinlərinin Urartunun mixi yazı sistemi ilə tanış olduqlarını göstərir. Tapıntı haqqında məlumat verən arxeoloqlar hesab etmişlər ki, yeganə salamat qalan işarə Urartuda maye formalı məhsulların ölçü vahidi kimi tədbiq edilən **te-ru-si** terminindəki orta hecanı ifadə edir (8, s.283-284).



Şəkil 3. Təsərrüfat küpünün fraqmenti üzərinə həkk olunmuş mixi işarə (8, s.283-284).

Məlumdur ki, urartulular yazı mədəniyyətini e.ə. IX əsrin sonunda Aşşurda tətbiq edilən şumermənşəli mixi yazı sistemindən mənimsəmiş, işarələrin və omofonların sayını xeyli dərəcədə azaltmaqla sadələşdirmişlər. Bu yazı sistemi urartululara qədər Babil, Het, Mitanni kimi dövlətlərdə də tətbiq olunurdu, lakin bütün hallarda -**RU**- hecası üçün istifadə olunan əsas işarə Oğlanqala qabının üzərindəki işarədən fərqli qrafikaya malikdir. Müqayisə üçün bax (7, № 68). Əslində qabın üzərindəki işarəni "yaşayış yeri" mənasında işlənən **GIŠGAL** şumeroqramından (aşşurluların və babillilərin orfoqrafiyasında **manzāzu**) törəyən  formalı mixi işarə ilə eyniləşdirmək lazımdır. Şumerlilərin tətbiq etdiyi piktoqram, yəni ilkin forma, "ŞƏHƏR"+"SU" ideoqramlarının kombinasiyasından yaranmış liqaturdur (7, № 49x). Deməli işarə tamğa kimi qabın məxsus olduğu şəhəri – su hövzəsi yaxınlığında salınmış Oğlanqalanı – simvolizə edirdi.

Oğlanqalada eyni zamanda üzərində bir işarə qalmış saxsı qab parçaları tapılmışdır. Onların birində "SU" piktoqramından törəmiş  (-A-) işarəsi,

digərində -AM- hecasını ifadə edən mixi işarənin fraqmenti –  – qalıb, başqa bir qabın üzərində 5 ədəd hər biri onluğu bildirən dairəvi formalı işarə (ümumilikdə “50”; ola bilsin ki, qabın tutumunu bildirirdi) yazılıb (8, p.290). Mixi işarələrin paleoqrafiyası baxımından keramika fraqmentlərini II Tukulti-Ninurtanın dövrünə (e.ə.891-884-cü illər), yəni Nairi kon-fe-derasiyası subyektlərinin Aşşur dövlətinin hərbi təzyiqinə məruz qaldığı vaxta aid etmək olar. O vaxt artıq Kutmuhidə Aşşur dövlətinin əyalət sistemi yaradılmışdı və Anadolunun şərqində, eləcə də həmhüdud şimal bölgələrdə yerləşən şəhərlərin və icmaların xəracı burada toplanırdı. Şərur Oğlanqalasının ictimai həyatının ən parlaq mərhələsi də bu dövrə təsadüf edir.

Nəzərdən keçirdiyimiz epiqrafik nümunələr Şərurun və Gilanın ərazisində I-II Dəmir dövrlərində, yəni Urartunun dövlət kimi hələ siyasi arenaya atılmadığı mərhələdə mövcud olmuş lokal siyasi mərkəzlərin Aşşur şahlığı ilə əlaqələr qurduğuna işarə edir. Bu əlaqələr Aşşur şahlığının şimal istiqamətində sonuncu əyaləti olan Kutmuhi (və ya Katmuhi; sonralar Kummuh, Kommaqena) vasitəsilə həyata keçirilirdi. Məlumdur ki, II Tukulti-Ninurta e.ə. 885-ci ildə Tur-Abdin dağları rayonunda (aşşurlular buranı Kaşiyari adlandırırdılar) Nairi koalisiyasına qarşı uğurlu hərbi əməliyyat aparmış, zəngin qənimət (tunc, dəmir, gümüş əşyalar, at və qatırlar) ələ keçirmişdir (6, text A.O.100.5). Lakin, Şururiyadan və Kilanidən daxil olan qaramalı xərac və ya ticari mübadilə predmeti olduğunu iddia etmək mümkün deyil. Menuanın hakimiyyəti dövründə (e.ə. 810-786-cı illər) Nairi konqlomeratının cənub və mərkəzi subyektləri Uraru şahlığının tərkibinə qatıldığından hərbi əməliyyatlar səbəbindən konqlomeratın subyektlərinin Aşşur şahlığı ilə ticari əlaqələri kəsilir.

### Ədəbiyyat

1. Əlimirzəyev A. Azərbaycanın Naxçıvan bölgəsinin Urartu ilə siyasi əlaqələri tarixindən /
Naxçıvan: ilkin şəhər və Duzdağ. 27-28 iyul 2012-ci ildə keçirilmiş beynəlxalq simpoziumun materialları. Naxçıvan, 2013, s.112-114.
2. Асланов Г., Ибрагимов Б., Кашкай С. Древние некрополи Хараба-Гилана. Баку, 2002.
3. Медведская И.Н. История Мидийского царства (VII-VI вв. до н.э.). Санкт-Петербург, 2018.
4. Budge E. A., King L.W. Annals of the Kings of Assyria. Vol. I, London: Harrison and sons printers, 1902.

5. Freydank H. Mittelassyrische Rechtsurkunden und Verwaltungstexte. Band III, Berlin, Gebr. Man-Verlag, 1994.
6. Grayson A. K. The Royal Inscriptions of Mesopotamia. Assyrian Periods. Vol. 2. Assyrian Rulers of the Early First Millenium BC (1114-859 BC). University of Toronto Press, 1990.
7. Labat R. Manuel d'éigraphie Akkadienne (signes, syllabaires, ideogrammes). La $6^0$ edition, Paris, Libraire orientaliste Paul Geuthner S.A., 1988.
8. Ristvet L., Bakhshaliyev V., Gopnik H., Ashurov S. The Origins of Political Complexity in Naxçıvan – Excavations and survey at Oğlanqala 2008-2010 / Austausch und Kulturkontakt im Südkaukasus und seinen angrenzenden regionen in der Spātbronze – Früheisenzeit. Beier und Beran, Langenweissbach, 2012, pp.280-290.

## Summary

### Assyrian texts about two cities of the Nakhchivan region

**Allahverdi Alimirzayev**

At the end of the XII century BC on the territory of Sharur (Nakhchivan region) there was a political entity that was part of the anti-Assyrian military coalition. In the Assyrian cuneiform texts, this political entity was called “Shururia”, which is the original form of the modern name “Sharur”. In the IX century BC. Shururia, like other members of this confederation known as the "Nairian countries", paid tribute to the Assyrians, usually with cattle. This is evidenced by an economic text (time of Tukulti-Ninurta II: 891-884 BC) from the Museum of the Middle East in Berlin. This document also mentions the toponym Kilani (Kirini in the annals of Tiglatpileser I), which is apparently the original form of the name of the medieval city of Kilan (or Kiran) in the Ordubad region of Nakhchivan. The economic text reports on the delivery to the Assyrian province of Katmukhi (north of the mountains Tur-Abdin in Anatolia) from Shururia 23, from Kilani 38 heads of bulls. From the cultural layers of the 9th-5th centuries BC at the Munjuklu necropolis near Kharabagilan (the modern name of the ruins of the city of Kilan), cornelian beads, fragments of ceramics, a dagger, arrowheads, a cylindrical seal, etc. were found.In Sharur itself, the early city culture flourished at that time, the center of which was in the Oghlankala fortress. During excavations there were found fragments of ceramic vessels with cuneiform signs, one of which seems to indicate the city itself.

**Keywords**: ancient Nakhchivan, cuneiform texts, ancient cities, Nairian countries, Assyrian-Azerbaijani relations.

## Резюме


## Ассирийские тексты о двух городах Нахчыванского региона

### Аллахверди Алимирзоев

В конце XII в. до н.э. на территории Шарура (Нахчыванский край) существовало политическое образование, которое входило в состав антиассирийской военной коалиции. В ассирийских клинописных текстах это политическое образование называлось «Шуруриа», что является праформой современного названия «Шарур». В IX в. до н.э. Шуруриа как и другие субъекты этой конфедерации, известной под названием «Наирийские страны», платила дань ассирийцам, обычно крупнорогатым скотом. Об этом свидетельствует хозяйственный текст из музея Ближнего Востока в Берлине. В этом документе упоминается также топоним Килани (в анналах Тиглатпаласара I Кирини), видимо являющийся праформой названия средневекового города Килан (или Киран) Ордубадского района Нахчывана. В хозяйственном тексте Берлинского музея, времени Тукульти-Нинурты II (891-884 гг. до н.э.), сообщается о доставке в ассирийскую провинцию Катмухи (севернее гор Тур-Абдин в Анатолии) из Шурурии 23, из Килани 38 голов быков. Из культурных слоев IX-V вв. до н.э. некрополя Мунджуклу близи Харабагилана (современное название развалин города Килан), были обнаружены бусины из сердолика, обломки керамики, кинжал, наконечники стрел, цилиндрическая печать и т.п. В самом Шаруре в это время процветала раннегородская культура, центр которого находился в крепости Огланкала. При раскопках там были обнаружены фрагменты керамических сосудов с клинописными знаками, один из них, кажется, обозначал название самого города.


**Ключевые слова**: древний Нахчыван, клинописные тексты, древние города, Наирийские страны, ассиро-азербайджанские взаимосвязи.

Azərbaycan Arxeologiyası
Khazar University Press

Volume 24 № 2 2021, 75-80
DOI: 10.5782/2218-0346.2021.24.2.75

# Sım petroqlifləri

**Elnur İmanov**
Gəncə Dövlət Universiteti
elnurimanov@mail.ru

**Açar sözlər:** Qayaüstü təsvirlər, daş, mağara, incəsənət, petroqlif, ovçuluq, qaya

Azərbaycan dünyada qədim qayaüstü təsvirlərin yayıldığı mühüm regionlardan biri hesab olunur. Cənubi Qafqazda qayaüstü təsvir abidələri ilk dəfə ölkəmizdə ötən əsrin 30–cu illərində Qobustanda aşkar olunub (6, s. 55). Sonra 60-70-ci illərdə Gəmiqayada, Kəlbəcərdə, Abşeronun müxtəlif ərazilərində aşkar olunub. Sevindirici haldır ki, qeyd olunan dörd abidə qurupuna beşincisi - yeni aşkar olunmuş Sım qayaüstü təsvirləri əlavə olunur.

Sım kəndi Astara rayonunda, Talış dağlarının ətəklərində, rayon mərkəzindən 45 km məsafədə, gözəl təbiətə malik ərazidir. Kəndin əlverişli iqlimi (yayı quraq keçən mülayim isti), şirin su ehtiyatı (hazırda kənddə 4 şəlalə, 100-ə yaxın bulaq var), zəngin bitki örtüyü (heyvandarlıq üçün bol ot ehtiyatı, relikt şabalıdyarpaq palıd, ipək akasiya, dəmirağac, azat, palıd, vələs, fıstıq, müxtəlif meyvə ağacları bitir) qədim zamanlardan insanların bu yerlərdə məskunlaşmasına imkan yaradıb. Sım kənd orta məktəbinin tarix müəllimi Zikrulla Həmzəyev kənd əhalisinin əsasən hevandarlıq, qismən də əkinçilik təsərrüfatı ilə məşğul olduğunu qeyd etmişdir. Ərazidə xeyli sayda daş qutu qəbirlər, kurqanlar, nekropollar, təbii mağaralar və yaşayış yerlərinin mövcudluğu təsadüfi deyil. Ötən son əsrlərdə rayonun Pensər, Təngərud, Şüvi, Telman və s. kəndlərinin ərazisində kurqanlar öyrənilmiş, aşkar olunmuş materaillar e. ə III minilliyin ortalarında bölgədə metallurgiyanın inkşafını təsdiq etmişdir. Astara rayonu ərazisindəki abidələrin əhəmiyyətli qrupunu yeni aşkar olunmuş qayaüstü təsvirlər – petroqliflər təşkil edir. Petroqliflər Sım kəndində onun ətrafındakı sal daşlarda, qayalıqlarda müxtəlif ölçülərdə və formalarda müşahidə olunur. Onlar daş və qayalara sərt alətlə cızma və oyma üsulu ilə həkk edilib. Məhz bu cür işlənmə texnikasına görə Qobustan təsvirləri ilə oxşarlıq təşkil edir.

Sım təsvirləri kəndin ərazisində və yaxınlğında Üte, Rəvənux, Seyid

Əli və. s. yerlərdə aşkar olunub. Sal daşlar üzərində müxtəlif işarələr, insan təsvirləri, zoomorf rəsmlər, yalaqlar, oyuqlar aşkar edilmişdir. Təsvirlər qədim insanların adət ənənələrini, məişətini, təsərrüfatını, mədəniyyətini və dünyagörüşünü özündə əks etdirir. Bu baxımdan yeni aşkar olunmuş Sım qayaüstü təsvirlərini qiymətli maddi-mədəniyyət nümunələri hesab etmək olar.

Sımdakı təsvirlərin əhəmiyyətli qrupunu heyvan rəsmləri təşkil edir. Rəvənux ərazisindəki mağarada aşkar edilmiş iri buynuzlu heyvan rəsmi bunlar arasında ən çox diqqətçəkəndir. İlk baxışdan marala bənzəsə də buynuzunda şaxələrin olmaması onun maral olmaması barədə fikir söyləməyə əsas verir. Tədqiqatçı alim T. Axundov bu təsvirin öküz-zebu olduğunu qeyd etmişdir (1, s 39). İri buynuzları qövs şəklində təsvir edilən heyvan profildən, tək xətlə, realistik üslubda ustalıqla həkk edilib. Burada heyvanın başı geriyə çevirilmiş vəziyyətdə verilib. Rəssamların belə ustalıqla təsvirlər yarada bilmələrindən görünür ki, onlar bu heyvanı uzun müddət müşahidə edə bilmiş, onun davranışına yaxından bələd olmuşlar. Bu təsvir həm də qədim insanların estetik zövqünün bariz nümunəsidir.

Sım təsvirləri kəndin ətrafındakı qayalıqlarda, dağların ətəklərinə bir qismi də şəxsi həyətyanı sahələrdə aşkar olunub. Belə təsvirlərdən biri də Üte ərazisində, kənd sakini Ruslan Əliyevin həyətyanı sahəsində aşkar edilmişdi. Buradakı daşın üzərində keçi sxematik, tək xəttlə təsvir olunmuşdur. Onun yanında müxtəlif istiqamətlərə uzadılmış xətlər, keçinin buynuzları üzərində isə ona perpendikulyar 11 ədəd kiçik ştrix xətlər verilmişdir. Bu xəttlərin ovsun və ya hansısa rituallarla əlaqəli olduğunu demək olar. Burada daşın bir hissəsi sındığından oradakı süjeti və digər təsvirləri tam aydınlaşdırmaq mümkün olmadı.

Keçilər qədim insanları ət, süd kimi zəruri ərzaq məhsulları ilə təmin etmiş, onun dərisindən məişətdə geniş istifadə edilmişdir. Sonralar heç də təsadüfi deyildir ki, keçi kultu qədim insanların inanc sistemində əsas yerlərdən birini tutmuşdur. Qədim dövrdə dünyanın bir çox xalqlarının mifologiyasında keçi xeyir bərkət, məhsuldarlıq rəmzi kimi göstərilmişdir. Müqayisə üçün qeyd edək ki, Kiçik Qafqaz ərazisindəki Tunc dövrü qayaüstü təsvir abidələrində - Gəmiqayada, Kəlbəcərdə, Göyəm dağında, Zəngəzurda digər heyvanlarla müqaisədə keçi sayca çoxluq təşkil edir.

Bir neçə daşda müşahidə ounan dalğavari təsvirlər isə ilanı xatırladır. Daşların birində rəssam ilanın haça dilini də aydın həkk etmişdir. İlan təsvirlərinin bir çoxu qədim insanların heyvan kultu haqqındakı təsəvvürləri ilə bağlıdır. Azərbaycanın bir çox ərazilərində aşkar edilmiş bəzək əşyalarının,

saxsı məmulatlarının bədii tərtibatında ilan obrazı geniş yer tutur. Bütün bunlar o dövrdə ilanlar haqqındkı dini ideyaların insanların dünyagörüşündə əhəmiyyətli yer tutması ilə bağlı olmuşdur. Dünyada bənzər dalğalı xətlərin yol və ya çay olduğunu da yazırlar.

Qayaüstü təvirlər hazırda Sım kəndində yaşayan şairə xanım Sımlı təxəllüsü ilə şeirlər yazan Aliyə Xalıqovanın yaradıcılığına da öz təsirini göstərmişdir. O, qayalardakı rəsmlərin gözəlliyindən ilhamlanaraq yazır:

*Budur hər bir daş üstündə göz oxşayan şəkillər var*
*Təsdiqləyir lap qədimdən sənətkarlar yaşamışlar.*
*Elə bil ki, təsvir deyil, sanki hər an canlanarlar*
*Milyonları valeh edən maral buna şahid durar*
*Bilinməyir bu torpağın neçə əsr tarixi var...*

Müəllif başqa bir şeirdə isə belə yazır:

*Bu torpağın tarixini vərəqləsək sətir-sətir*
*Başdan başa sorğu sual, təsvirləri dilə gətir.*
*Hər bir daşı, hər naxışı ululardan əmanətdir*
*Öz köksünə qərq eyləyib min bir adət, min ənənə*
*Zaman zaman yuvarlanıb, çətinliyə gərib sinə...*

Sımdakı təsvirlərin bir çoxunun yanında yalaqlara rast gəlinir. Qeyd edək ki, bu cür yalaqlara Qobustanda da rast gəlinir. Müqaisə üçün deyək ki, belə yalaqların Gəmiqayada və Kəlbəcərdə olduğuna elmi ədəbiyyatda rast gəlinmir. Sımdakı yalaqların digər diqqətçəkən tərəfi isə onların yanında bəzən çoxsaylı oyuqların olmasıdır. Yeli əhali bu cür yalaqları "şamdan" adlandırırlar. Onların qədim dövrdə əsasən qida ehtiyatı üçün istifadə olunduğu güman edilir.

Qayalarda müxtəlif rəsmlərin həkk edilməsi bir çox səbəblərlə bağlıdır. Dünyada petroqliflər məhəlli təqvimlər, ərazidə olan yolları, landşaf, coğrafi mövqe, inanc sistemi haqqında məlumatları özündə saxlayır ( 8, s.156).

Təsvirlərin bir qisminin üzərinin mamırlarla örtülməsi, həmçinin atmosfer təsirlərindən aşınması onların aşkar edilib üzərinin köçürülməsində müəyyən qədər çətinliklər yaradır. Lakin bunlar abidənin əhəmiyyətini heç də azaltmır. Sım petroqliflərinin gələcəkdə daha ətraflı öyrənilməsi, Azərbaycan arxeologiyasının, incəsənət tarixinin bir qədər də zənginləşməsinə, bölgədə turizminin inkşafına öz tövhələrini verəcəkdir.

**Ədəbiyyat**

1. Axundov T.İ. Astarada 20 gün. Bakı 2009
2. Cəfərzadə İ.M. Qobustan qayalarında təsvirlər. Azərbaycan Tarixi Muzeyinin əsərləri, II cild. Bakı 1957
3. Muradova F.M. Qobustan Tunc dövründə. Bakı 1979, 245 s.
4. Müseyibli N. Ə. Gəmiqaya. Çaşıoğlu nəşriyyatı, Bakı 2004, 318 s.
5. Rüstəmov C.N. Qobustan dünyası. Azərnəşr, Bakı 1994, 176 s.
6. İsmayılzadə Q.S. Arxeoloqun çöl gündəliyi. Xəzər Universitesi nəşriyyatı, Bakı 2009, 201 s.
7. İsmayılov Q.S. Azərbaycanın yeni Qobustanı. "Elm və həyat" jurnalı, N 6, Bakı 1977
8. İmanov E.M. Petroqliflər, onların coğrafiyası və əhəmiyyəti. AMEA Naxçıvan bölməsi. Axtarışlar IV cild. N 2, Naxçıvan 2015
9. İmanov E.M. Azərbaycanın Tunc dövrü petroqliflərində zoomorf təsvirlər. (Kiçik Qafqaz materialları əsasında) Bakı 2021.

## Summary

## Sym Petroglyphs

### Elnur Imanov

The article is about the recently discovered rock paintings in the area of Sym village. Various animals, human drawings and symbols are depicted here on these rock paintings. These allow us to study the daily life, beliefs and economy of ancient people.The fact that some of the images are covered with moss, as well as erosion by atmospheric influences, makes it difficult to detect and copy them. However, this does not diminish the importance of the monument. Further detailed study of petroglyphs will contribute to the enrichment of Azerbaijani archeology, art history, and the development of tourism in the region.


**Keywords:** Rock carvings, stone, cave, art, petroglyphs, hunting, rock.


## Резюме

## Петроглифы Сыма

### Эльнур Иманов

Статья посвящена обнаруженным наскальным рисункам в районе села Сым близ города Астара. Здесь имеются рисунки различных знаков, животных, а также людей. Эти изображения позволяют нам изучать религиозные верования, повседневную жизнь и хозяйство древних людей. Тот факт, что некоторые изображения покрыты мхом, а также подвергнуты эрозии из-за атмосферных воздействий, затрудняет их обнаружение и копирование. Однако это не умаляет значение памятника. Дальнейшее детальное изучение петроглифов будет способствовать обогащению азербайджанской археологии, истории искусства и развитию туризма в регионе.


**Ключевые слова:** наскальные изображения, камень, пещера, искусство, петроглиф, охота, скала.



**Şəkil 1.** Daş üzərində kiçik oyuqlar.



***Şəkil 2.*** *Keçi təsvirli kompozisiya.*



**Şəkil 3.** Daş üzərində yalaq.



**Şəkil 4.** İribuynuzlu heyvan.

Azərbaycan Arxeologiyası Volume 24 № 2 2021, 81-95
Khazar University Press DOI: 10.5782/2218-0346.2021.24.2.81

# Misilsiz abidənin sorağında

**Rəhman Abdullayev, Sevinc Şirinli**
AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu
rehmanabdullayev@hotmail.com
shirinova-sevinc@mail.ru

**Açar sözlər:** Cingirdağ, Sona qaya, petroqlif, rəqəmsal, qayaüstü incəsənət.

**Giriş**

Qayaüstü təsvirlər hətta insan müdaxiləsi olmadan belə, müxtəlif təbii faktorların təsirindən onilliklər, yüzilliklər ərzində eroziyaya uğrayaraq məhv ola bilir. Bu baxımdan qayaüstü təsvirlərin mümkün qədər tez və ətraflı şəkildə sənədləşdirilməsi arxeologiya elminin qarşısında duran əsas problemlərdən biridir. Dəqiq sənədləşdirilmə qayaüstü təsvirlərin öyrənilməsində fundamental məsələlərdəndir. Böyük elmi əhəmiyyəti ilə yanaşı yerli, həmçinin beynəlxalq diqqəti cəlb etmək, gələcək nəsil üçün onu qorumaq məqsədi ilə bu mədəni irs nümunələrinin mühafizəsinin təşkilində sənədləşdirmə olduqca vacibdir (11). Bundan əlavə açıq havada yerləşən qayaüstü təsvir sahələrinə xas olan təhlükələrin diqqətlə izlənilməsi, onların qarşısının alınması üçün təkliflər planının hazırlanmasında da təsvirlərin qeydiyyatı zamanı toplanmış məlumatlar əsas rol oynayır.

Son illər rəqəmsal texnologiyanın inkişafı demək olar ki, bütün elm sahələrinin qarşısında yeni perspektivlər açmışdır. Arxeologiya və xüsusən qayaüstü incəsənətin öyrənilməsi sahəsində də İT texnologiyalara əsaslanan bir çox yeni, müasir və daha dəqiq nəticələr əldə etməyə imkan verən üsullar tətbiq olunur.

Qobustan qayüstü təsvirlərinin rəqəmsal məlumat bazasının yaradılması məqsədi ilə həyata keçirilmiş layihənin də əsas məqsədi bu yenilikləri tətbiq etməklə Cingirdağ-Yazılıtəpə sahəsində yerləşən üzəri təsvirli qayaların sənədləşdirilməsi idi.

**Mövzunun öyrənilməsi**

Qobustan abidəsi Gəmiqaya, Kəlbəcər, Abşeron qayaüstü təsvir sahələri ilə birlikdə Azərbaycanın əsas qayaüstü incəsənət ocaqlarından biridir. 2007-ci ildə UNESCO-nun "Ümumdünya Mədəni İrs" siyahısına daxil edil-

miş bu nadir abidə hazırda 7000-dən çox qayaüstü təsviri, digər arxeoloji abidələri, bənzərsiz landşaftı ilə bütün dünyada məhşurdur.

1939-cu ildə görkəmli Azərbaycan arxeoloqu İshaq Cəfərzadə tərəfindən Cingirdağ sahəsində ilk qayaüstü təsvirlərin qeydə alınması ilə Qobustanda elmi tədqiqatların əsası qoyuldu. İkinci Dünya müharibəsinin başlanması tədqiqatları dayandırsa da 1945-ci ildən Qobustanda qayaüstü təsvirlərin sistemli öyrənilməsi yenidən davam etdirildi. 1947-ci ildən 1965-ci ilə qədər İ.Cəfərzadənin rəhbərliyi ilə Qobustanda Böyükdaş, Kiçikdaş dağları və Cingirdağ-Yazılıtəpə sahəsində 750-yə qədər daş və qaya üzərində 3500-dən çox təsvir, dəlmə və çapma aşkar edildi (4, 10).

1965-ci ildən başlayaraq, C.Rüstəmovun rəhbərliyi, F.Muradovanın iştirakı ilə Qobustan arxeoloji ekspedisiyası tərəfindən Qobustanda 16 daşaltı sığınacaq tipli düşərgə, dörd Tunc dövrü yaşayış yeri, Yazılıtəpədə pir sahəsi, 40-a qədər kurqan arxeoloji qazıntılar vasitəsilə tədqiq edildi, 6 yerdə yoxlama qazıntısı aparıldı və daha 400-ə yaxın, üzərində insan əli ilə yaradılmış abidə - təsvir, çapma və s. olan daş və qaya aşkar edilib qeydə alındı (4).

Cingirdağ Qobustan Milli Tarix Bədii qoruğunun ərazisinə daxil olan 3 (Böyükdaş və Kiçikdaş dağları ilə birlikdə), Qobustan qayaüstü incəsənətinin yayıldığı 5 (Böyükdaş, Kiçikdaş, Şonqardağ və Şıxqaya dağları ilə birlikdə) dağdan biridir. Üzərindəki qayaüstü təsvir və işarələrə görə yerli əhali bu təpəyə “Yazılıtəpə” adını vermişdir (şəkil 1). Yazılıtəpədəki və Cingirdağın ətəklərində olan qayalarda İ. Cəfərzadə Tunc, Antik və Orta Əsrlər dövrlərinə aid təsvirlər qeydə almışdır. Cingirdağ - Yazılıtəpə sahəsindəki təsvirlərin yaşı Erkən Tunc Dövründən (e.ə 4-3 minilliklər) Orta Əsrlərin sonunadək (XIX əsr) dəyişir. XX əsrin ortalarında İ.Cəfərzadə Cingirdağ-Yazılıtəpə sahəsində apardığı tədqiqat nəticəsində üzərində 164 təsvir, çapma və ya dəlmə olan daş qeydə almışdır. Onlardan 36-sı “Qobustan. Qayaüstü təsvirlər” kitabında nəşr olunmuşdur (12).

M.Fərəcova (1; 8), N.Müseyibli (6; 7), Formozov A.A. (14) müxtəlif nəşrlərdə Cingirdağ-Yazılıtəpə sahəsinin təsvirlərini tədqiqata cəlb etmişlər.

**Tədqiqatın məqsədi və metodologiyası**

Tədqiqatın məqsədi Qobustan qayaüstü təsvirlərinin rəqəmsal məlumat bazasının və yeni kataloqunun yaradılması üçün Cingirdağ-Yazılıtəpə sahəsindəki təsvirli daşların sənədləşdirilməsi idi. Sənədləşdirilmiş materialların elmi, həmçinin menecment məqsədləri üçün istifadəsi də nəzərdə tutulmuşdur. Bu məqsədlərə çatmaq üçün bütün qayaların fotosu çəkilməli, 3D modeli düzəldilməli, qeydiyyat vərəqi hazırlanmalı, GPS koordinatları, dəniz

səviyyəsindən hündürlüyü, ölçüləri, istiqaməti, qaya üzərindəki təsvirlərin üst-üstə düşmələri müəyyən edilməli, lazım gəldikdə estampı çıxarılmalı idi.

Tədqiqatın nəticəsində Qobustan qayaüstü təsvirləri üçün sənədləşdirmə standartının yaradılması da nəzərdə tutulmuşdu. Bundan başqa əvvəlki tədqiqatların nəticələri də nəzərə alınaraq təsvirlərin eroziya səbəbləri müəyyənləşdirilməli, eroziya növlərinin təsirlilik dərəcəsi təsnifləşdirilməli idi.

Petroqliflərin qeydiyyat vərəqində qayalar üzərindəki hər bir təsvir haqqında məlumatlar öz əksini tapmışdır. Təsvirin şibyə ilə örtülməsi və eroziyaya məruz qalması zəif, orta, güclü dərəcələri ilə qeyd edilmişdir. Bundan başqa motivin tipologiyası, təsvirin maksimum ölçüləri, istiqaməti, qaya üzərində yeri, xəttinin dərinliyi, eni və hamarlığı qeydiyyat vərəqində göstərilmişdir.

Fotoçəkiliş, çöl qeydləri, estamp çıxarılması, müxtəlif ölçmələr qayaüstü incəsənətin sənədləşdirilməsinin ənənəvi metodlarıdır. Bu metodların tətbiqi zamanı bəzən tədqiqatçının subyektiv yanaşması (bilərəkdən və ya qeyri-ixtiyari) tədqiqatın sonrakı mərhələlərində obyektiv nəticələr əldə etməyi çətinləşdirir.

Ənənəvi metodların digər çatışmayan cəhəti isə sənədləşdiriləcək qayanın xarakterindən asılı olaraq uzun zaman tələb etməsidir. Təsvirlərin sayı, mürəkkəbliyi və eroziya dərəcəsi bəzən onun ənənəvi metodlarla sənədləşdirilməsini qeyri-mümkün edir və ya tam olaraq sənədləşdirməyə imkan vermir (10, 43,51). Cingirdağ-Yazılıtəpə və Sona qaya sahəsindəki qayaütsü təsvirlərin qeydə alınması aşağıdakı üsulların tətbiqi ilə həyata keçirildi.

**Fotoçəkiliş**

Fotoçəkiliş qayaüstü təsvirlərin sənədləşdirilməsində ən effektiv metodlardan biridir. Petroqliflərin daha yaxşı görünməsi üçün günəş şüalarının qaya səthinə mümkün qədər $180^0$-yə yaxın bucaq altında düşməsi lazımdır. Hər bir qaya üçün gün ərzində təxminən 30-40 dəqiqəlik “yaxşı görünmə” vaxtı mövcuddur. Bu zaman təsvirlərin xətləri dərinlikdən asılı olaraq kölgə əmələ gətirir və kölgə-işıq kontrastı petroqlifləri daha yaxşı görməyə imkan verir. Gələcək tədqiqatlarda, həmçinin turizm və menecment layihələrində istifadə edilmək üçün hər bir qayanın təqribi “yaxşı görünmə” vaxtı qeyd edildi. Ümumiyyətlə petroqliflərin fotolarını çəkmək üçün ən münasib vaxt səhər günəş çıxdıqdan sonra və axşam günəş batmamışdan əvvəldir. Bu saatlarda zəif və yandan düşən günəş işığı qaya üzərindəki dərinliklərin kontrastını artıraraq təsvirləri görünən edir. Günorta saatlarında isə güclü, perpendikulyar və dağınıq günəş işığı güclü parıltı yaradaraq görüntünü çətin-

ləşdirir. Həmçinin bəzən panelin bir hissəsinin kölgədə, digər hissəsinin birbaşa günəş işığı altında qalması obyektivin qaya səthini "oxumasını" mümkünsüz edir.

Patinalaşmanın və şibyə ilə örtülmənin güclü olduğu daha qədim təsvirlər gündüz vaxtı ya çox çətinliklə sezilir, ya da ümumiyyətlə görünmür. Bu problemi aradan qaldırmaq üçün tədqiqatın bəzi fazaları gecə saatlarında həyata keçirildi. Gecə fotoçəkilişi artıq uzun müddətdir ki, Qobustan qayaüstü təsvirlərinin öyrənilməsində tətbiq olunur (13). Gecə, süni işıqla manipulyasiya etməklə qaya səthinin relyefi və təsvirləri daha aydın şəkildə görmək mümkündür. Süni işığın yaratdığı parıltı gecə eskiz çəkməyi çətinləşdirsə də, qayaların üzərindəki petroqlifləri müəyyən etmək və fotolarını çəkmək üçün ideal metoddur. Tədqiqat zamanı bütün qayalar gecə fotoçəkilişi vasitəsilə yoxlanıldı. Gecə süni işıq altında çəkilmiş fotoşəkillər eskizlərin dəqiqləşdirilməsi üçün istifadə edildi (şəkil 2).

**Eskiz**

Təsvirlərin eskizlərinin hazırlanması üçün müxtəlif metodlar tətbiq olunmuşdur. Təsvirlərin şəffaf örtük vasitəsi ilə estampının çıxarılması ilə yanaşı, onların kvadratlara bölünmüş mühəndis dəftərinə köçürülməsi üsulundan da 48 A nömrəli daşın nümunəsində yoxlama məqsədi ilə istifadə edilmişdir. Qeyd edək k, istər vaxt etibarı ilə, istərsə də qayaüstü təsvirlərin "toxunmadan" sənədləşdilməsini həyata keçirmək üçün hər iki üsul qənaətbəxş deyildir.

**Fotoqrammetriya**

Hazırda petroqliflərin sənədləşdirilməsi sahəsində fotoqrammetriya metodundan daha çox istifadə edilir. Qayaüstü təsvirlərin sənədləşdirilməsi zamanı 3D modellərin, ortofotoların, Rəqəmsal Səviyyə Modeli (DEM-Digital Elevation Model) və s. yaradılmasına imkan verən fotoqrammetriya metodundan istifadənin bir çox üstünlükləri mövcuddur. Obyektin bir neçə müxtəlif istiqamətdən çəkilmiş fotosu əsasında yaradılan 3D model daha sonra laborotoriya şəraitində digər sənədləşdirmə metodları ilə müqayisədə daha çox informasiya əldə etməyə imkan verir. Müxtəlif komputer proqramları vasitəsilə 3D modelin rəngini, işıqlanma dərəcəsi və istiqamətini dəyişməklə təsvirlərin daha yaxşı görünüşünü almaq və rəqəmsal eskizlər hazırlamaq mümkündür.

Yazılıtəpə sahəsində relyef və landşaft mürəkkəbliyi səbəbindən indiyədək bəzi daşların foto və ya eskizlərini əldə etmək mümkün olmamışdı. Misal üçün iri, bir neçə ton çəkisi olan 12 və 24 nömrəli qayaların yerdəyiş-

məsi nəticəsində çox sayda qədim təsvirlər daşların yerə oturmuş alt hissəsində qalmışdır. Yer səthi ilə bu qayaların alt səthi arasındakı 20-30 sm boşluqdan təsvirlərin ancaq müəyyən hissələri görünür ki, onları da fotoaparat vasitəsilə çəkmək mümkün deyil. Bu qayaların alt hissəsinin telefon kamerası vasitəsilə kiçik hissələr şəklində fotoları çəkilərək fotoqrammetriya metodu ilə 3D modelləri hazırlandı (şəkil 3).

Qeyd edilən sahələrdəki bütün qayların bu üsulla eskizləri hazırlandı. Sonda eskizlər dəqiqləşdirilmək üçün yerində, qaya üzərindəki təsvirlərlə müqayisə edildi. Həmçinin petroqliflərin daha dəqiq görüntüsünü almaq mümkün olduğundan hazırlanmış bütün eskizlər gecə, süni işıq vasitəsilə qaya üzərindəki təsvirlərlə müqayisə edilidi və dəqiqləşdirildi.

**Yeni aşkar olunmuş qayaüstü təsvirlər**

Yeni aşkar olunmuş təsvirlər əsasən Yazılıtəpə üçün xarakterik olan keçi, maral, şir, antropomorf təsvirlər, müxtəlif abstrakt işarələr, damğalar və araba təsvirləridir.

48A və 19 nömrəli qayalar üzərində qeydə alınmış iki təkərli araba təsviri maraq doğurur. Yüksək dağlıq sahələrdə qeydə alınmış Gəmiqaya (8,19) və Kəlbəcər (2,86) qayaüstü təsvirlərindən fərqli olaraq Qobustanda araba təsvirləri azlıq təşkil edir. Yazılıtəpə sahəsində İ.Cəfərzadə tərəfindən 55 n-li qaya üzərində iki təkərli araba qeydə alınmışdır (12,53). 19 n-li daş üzərindəki 2 heyvan qoşulmuş araba təsviri hələlik Qobustan qayaüstü təsvirlər kolleksiyasında qoşqu ilə çəkilmiş yeganə araba təsviridir (şəkil 4). Qeyd edək ki, Böyükdaş dağının yuxarı səki sahəsində yerləşən Ana Zağan sığınacağının üst təbəqəsindən və Böyükdaş yaşayış yerindən qazıntılar zamanı gil təkər modeli də aşkarlanmışdır (5,92).

Yeni qeydə alınmış petroqliflər arasında antropomorf təsvirlər xüsusi əhəmiyyətə malikdir. Kompleks səhnələrdə, xüsusilə keçi təsvirləri ilə yanaşı rast gəlinən, bənzər stilistik və ikonoqrafik xüsusiyyətlərə malik antropomorf təsvirlər Qobustanın Tunc Dövrü qayaüstü incəsənətinin əsas motivi olan keçi təsvirlərinin semantikasının müəyyənləşdirilməsində mühüm istinad nöqtəsi ola bilər. Digər qrup antropomorf təsvirlər çəkilmə texnikası və stilistik cəhətdən Abşeron ərazisində qeydə alınmış antropomorf təsvirlərlə bənzərdir.

Tədqiqat zamanı qeydə alınan mühüm abidələrdən biri də 2017-ci ildə aşkarlanmış, üzərində müxtəlif ölçülü çapma, novça və damğa təsvirlərinin yerləşdiyi yeni kompleks oldu. Yeni sahə Cingirdağın cənub ətəyindən 2900 metr qərbdə, Torağay palçıq vulkanından şərqdə, Xalid qışlağından 1500 metr cənub-şərqdə yerli əhali tərəfindən Məryəm dərəsi adlanan ərazidə

yerləşir. Şərqdən qərbə doğru təxminən 250 metr məsafədə uzanan bu qayalıq sahəni yerli qışlaqların sakinləri "Sona qaya" adlandırır (şəkil 5).

"Sona qaya" sahəsində 29 ədəd sıra ilə düzülmüş qaya parçaları üzərində müxtəlif ölçüyə malik çapma və oyuqlar, novçalar, 14 ədəd damğa təsviri qeydə alındı. Damğalardan on üçü 17 nömrəli (şəkil 6), biri isə 10 nömrəli qaya üzərindədir. Maraqlı cəhətlərdən biri daşlar üzərindəki çapmalardan bəzilərinə 2 və ya 3 qısa novça əlavə etməklə damğaya bənzər işarələrin alınmasıdır. Qeydə alınan damğalardan ikisi Cingirdağda 123 N-li qaya üzərindəki I qrup damğalarla, biri II qrup damğalarla, səkkizi isə III qrup damğalarla oxşarlıq təşkil edir. Qayada yalnız 1 ədəd dairə formalı işarə vardır. Qeyd edək ki, Cingirdağın şimal-qərb ətəyində yerləşən 123 N-li daşda İ.Cəfərzadə tərəfindən ikisi zoomorf olmaqla 22 damğa təsviri qeydə alınmışdır. Bu damğalar görünüşünə görə İ.Cəfərzadə tərəfindən 3 qrupda birləşdirilmişdir:

I qrupa: dairəcik formasında olub aşağıya doğru çəkilmiş 3 şüa formalı xətlə tamamlanır və bu təsvirlər İ.Cəfərzadə tərəfindən X-XIII əsrlərə aid edilməklə daha qədim hesab edilir.

II qrup: damğalar əvvəlkilərlə eyniyyət təşkil etsədə kənar xətlərin uclarının birləşməsi ilə onlardan fərqlənir.

III qrup: təşkil edən damğalar dairəcikdən aşağıya doğru uzanan 1 düz xətlə tamamlanır. Bu xətt dairəcikdən aşağıda yarım çevrə şəkilli xətlə kəsişir. Nəticədə stilizə olunmuş antropomorf formalı təsvir alınır (12, 63-64).

29 N-li daş üzərində qeydə alınmış maral təsviri Sona qaya sahəsindəki yeganə zoomorf təsvirdir. Maral təsvirinin baş hissəsi qaya üzərində saxlanmamışdır. Heyvanın diz bükümləri qabarıq göstərilmişdir ki, bu da təsvirin hərəkətdə olduğu təssüratı yaradır (şəkil 7).

Sona qaya abidəsinin xronoloji çərçivəsinin müəyyənləşdirilməsində 29 N-li daş üzərində qeydə alınmış maral təsviri mühüm rol oynayır. Son Tunc dövrünə aid edilən bu tip maral təsvirləri Cingirdağ-Yazılıtəpə sahəsində 9, 100, 91 N-li qayalar üzərində qeydə alınmış maral təsvirləri ilə oxşarlıq təşkil edir. Orta əsrlərə aid damğa təsvirləri kompleksdən bu mərhələdə də istifadə edildiyini deməyə imkan verir. Abidənin təyinatını və xronoloji çərçivəsini daha dəqiq müəyyənləşdirilməsi üçün gələcəkdə geniş arxeoloji tədqiqatların aparılması zəruridir.

**Nəticə**

3 il ərzində aparılan tədqiqat nəticəsində əvvəllər 877 təsvirin qeydə alındığı Cingirdağ-Yazılıtəpə ərazisində 541 yeni təsvir qeydə alındı. Onlar-

dan 440-ı əvvəllər qeydə alınmış təsvirli daşlar üzərində, 101-i isə tədqiqat müddəti ərzində aşkar olunmuş 18 yeni təsvirli daşda qeydə alınmışdır. Beləliklə, Cingirdağ-Yazılıtəpə ərazisində 169 təsvirli daşda (tədqiqata qədər 151) 1347 (tədqiqata qədər 877) qayaüstü təsvir, işarə, dəlmə və çapma sənədləşdirilərək qeydiyyata alınmışdır.

Bundan əlavə Sona qaya adlı arxeoloji abidə elmi dövriyyəyə daxil edildi. Həmçinin yaxınlıqda yerləşən qışlaqların ərazilərinə də baxış keçirilmiş, bir neçə üzəri təsvirli qaya aşkarlanaraq qeydiyyata alınmışdır.

Tədqiqatın nəticəsini özündə əks etdirən "Qobustan. Cingirdağ-Yazılıtəpə və Sona qaya petroqliflərinin korpusu" adlı kitab çap olunmuşdur. Həmçinin, toplanmış məlumatların ictimaiyyətə daha geniş formada çatdırılması üçün xüsusi veb saytın yaradılması da nəzərdə tutulur. Qayaüstü təsvirlərin rəqəmsal məlumat bazasının vahid rəqəmsal portalda yerləşdirilərək onlayn formatda hamı üçün əlçatan olması bu abidələrin təbliğatı baxımından olduqca vacibdir. Bu həm də Azərbaycanın zəngin maddi-mədəni irsinin təbliğatına ən böyük töfvə olardı.

**Ədəbiyyat**

**1.** Fərəcova M.N. Azərbaycan qayaüstü incəsənəti. Bakı: ASPOLİQRAF, 2009, 373 s.
**2.** İsmayılzadə Q.S. Dəlidağın qədim qayaüstü təsvirləri // Azərbaycan Arxeologiyası, N 1, 2009, s.83-91
**3.** Rüstəmov C.N. Qobustan-Azərbaycanın qədim mədəniyyət ocağı, Bakı, Nurlar, 2006, 93 s.
**4.** Rüstəmov C.N. Qobustan dünyası. Bakı, Azərnəşr, Bakı, 1994 , 173 s.
**5.** Muradova F.M. Qobustan tunc dövründə. Bakı, YEK, 2011, 225 s.
**6.** Müseyibli N., Qobustan və Gəmiqaya işarələri // Tarix və onun problemləri // N 4, 1998, 18-20
**7.** Müseyibli N. Qobustan və Gəmiqaya petroqliflərində işarə və damğalar, // Azərbaycan arxeologiyası və etnoqrafiyası // N 1, 2003, s.25-31
**8.** Müseyibli N. Gəmiqaya. Bakı, Çaşıoğlu, 2004, 131 s.
**9.** Farajova M., // Gobustan rock art cultural landscape // In: Adoranten, edited by Gerhard Milstreu and Henning Prohl, Goteborg, 2011, pp.41-66
**10.** Loendorf L.,. Rock art recording. In: David S. Whitley (ed.), Handbook of rock art research, Altamira press, Walnut Creek, California, 2001, pp.55-80
**11.** Sanz, I. D., 2014. Rock art recording methods: From traditional to digital. In: C. Smith (ed.), Encyclopedia of Global Archaeology, Springer New York, New York, NY, pp. 6351–6357

**12.** Джафарзаде И., 1973. Гобустан. Наскальные изображения. "Елм", Баку, 346 с.

**13.** Фараджева М., Методы изучения и научного документирования археологического комплекса Гобустан // Azərbaycan Arxeologiyası və Etnoqrafiyası // №2, 2016

**14.** Формозов А. А. Наскальные изображения и их изучение. Наука, Москва, 1987, 108 с.

## Summary

## In search of unique monument

**Rahman Abdullayev, Sevinj Shirinli**

The article is dedicated to the results of research conducted in the Jingirdagh-Yazilytepe area, one of the five sites where Gobustan rock carvings were recorded. In the recent years, the development of digital technology has opened up new perspectives for almost all fields of science. In archeology, and especially in the study of rock art, many new, modern and more accurate methods based on IT technologies are used.

The main purpose of the project, which was implemented to create a digital database of Gobustan rock carvings, was to document the carved rocks in the Jingirdagh-Yazilytepe area by applying these innovations. The documented materials are intended for scientific as well as management purposes. To achieve these goals, all the rocks had to be photographed, a 3D model had to be made, a recording sheet had to be filled out, GPS coordinates, altitude, dimensions, direction, overlaps of images on the rock had to be determined, and tracing method had to be applied if necessary.

As a result of the study, it was planned to create a documentation standard for Gobustan rock images. In addition, taking into account the results of previous studies, the causes of erosion of the images had to be determined, and the effectiveness degree of the erosion types had to be classified.

The recording sheet of the petroglyphs contains information about each image on the rocks. Images are marked with “weak”, “moderate” and “strong” according to the degree of lichen and erosion. In addition, the typology of the motif, the maximum dimensions of the image, direction, location on the rock, the depth, width and smoothness of the line are indicated on the recording sheet.

As a result of the research conducted over 3 years, 541 new images were recorded in the Jingirdagh-Yazilytepe area, where 877 images were previously found. Of these, 440 were recorded on previously discovered rocks and 101 on 18 rocks found during the study period. Thus, in Jingirdagh-Yazilytepe area, 1347 (877 before the study) rock carvings, signs, holes and cupules were documented and registered on the 164 carved rocks (151 before the study).

Furthermore, an archeological monument called Sona Gaya was included in the scientific circulation. The areas of nearby winter pastures were also studied, and several images on the rocks were discovered and registered. The book called "Jingirdagh-Yazilytepe, Sona Gaya petroglyphs corpus" reflecting the results of the research was published.

**Keywords:** Jingirdagh, Sona gaya, petroglyph, digital, rock art.

## Резюме

## В поисках уникального памятника

### Рахман Абдуллаев, Севиндж Ширинли

Статья посвящена результатам исследований, проведенных на территории Джингирдаг-Язылытепе, в одном из пяти участков Гобустана, где зафиксированы наскальные рисунки. В последние годы развитие цифровых технологий открыло новые перспективы практически для всех областей науки. В области археологии и особенно в изучении наскального искусства также используются множество новых, современных и дающих более точные результаты методы, основанные на IT-технологиях.

Основная цель проекта, который был реализован по созданию цифровой базы данных наскальных изображений Гобустана, заключалась в документировании скал с рисунками в участке Джингирдаг-Язылытепе с применением этих нововведений. Предполагалось использование документированных материалов как в научных, так и в управленческих целях. Для достижения этих целей необходимо было сфотографировать все камни, создать 3D-модель, заполнить регистрационную форму, определить координаты GPS, высоту, размеры, направление, перекрытия изображений на скале и при необходимости снять штамп.

По результатам исследования планировалось создать стандарт документации для наскальных рисунков Гобустана. Кроме того, с учетом результатов предыдущих исследований необходимо было определить причины эрозии изображений и расклассифицировать степень влияния типов эрозии.

На регистрационном листе петроглифов отразилась информация о каждом наскальном рисунке. Покрытие рисунков лишайниками и подвержение эрозии отмечены слабыми, средними, сильными степенями. Кроме того, на регистрационном листе указываются типология мотива, максимальные размеры рисунка, направление, расположение на камне, глубина, ширина и плавность линии.

В результате исследования, проведенного за 3 года, было зарегистрировано 541 новое изображение в участке Джингирдаг-Язылытепе, где ранее было записано 877 изображений. Из них 440 были найдены на ранее зарегистрированных камнях и 101 на 18 новых камнях, обнаруженных в течение периода исследования. Так, в участке Джингирдаг-Язылытепе задокументировано и зарегистрировано на 164 камнях (151 до исследования) 1347 (877 до исследования) наскальных рисунков, символов, углублений и выемок.

Кроме того, в научный оборот был включен археологический памятник Сона Гая. Также были обследованы территории близлежащих зимних лагерей,

где были обнаружены и зарегистрированы несколько скал с наскальными изображениями. Была опубликована книга "Джингирдаг-Язылытепе, корпус петроглифов Сона Гая", в которой отражены результаты исследований.

**Ключевые слова**: Джингирдаг, Сона Гая, петроглиф, цифровой, наскальное искусство.



**Şəkil 1.** Cingirdağın şimal-qərb ətəyindən Yazılıtəpənin görünüşü.



**Şəkil 2.** 59 nömrəli daşın gecə görüntüsü (fraqment).




**Şəkil 3.** 24 nömrəli daşın alt hissəsinin eskizi.




**Şəkil 4.** 19 nömrəli daşın eskizi.



**Şəkil 5.** Sona qaya sahəsindəki 22 nömrəli daşın gecə görüntüsü.



**Şəkil 6.** Sona qaya sahəsində üzərində damğa və işarələr olan 17 nömrəli daşın estampı.



**Şəkil 7.** Sona qayada üzərində maral təsviri olan 29 nömrəli daşın 3D modeli.

Azərbaycan Arxeologiyası Volume 24 № 2 2021, 96-108
Khazar University Press DOI: 10.5782/2218-0346.2021.24.2.96

# Nizami Gəncəvi dövründə Şəmkir şəhərində mədəni həyat

**Tarix Dostiyev**
Bakı Dövlət Universiteti
dostiyev.tarikh@mail.ru

**Açar sözlər:** Nizami Gəncəvi, orta əsr Şəmkir şəhəri, şəhər mədəniyyəti, Arran memarlıq məktəbi, müsəlman mədəniyyəti.

XII–XIII əsrin ilk qərinəsində Azərbaycan Atabəylər dövlətinin mədəni mərkəzlərindən biri Şəmkir şəhəri olmuşdur. Yazılı qaynaqlarda bu şəhər haqqında məlumat qeyri-ardıcıl və məhdud olduğundan burada fəaliyyət göstərmiş elm və təhsil müəssisələri, məktəb və mədrəsələr, şəfa evləri və əczaxanalar haqqında birbaşa informasiya yox dərəcəsindədir. Nizami Gəncəvinin yaşayıb yaratdığı Gəncə şəhərinin yaxınlığında yerləşən Şəmkir şəhərində, heç şübhəsiz ki, belə müəssisələr olub. Şəmkir Əbd əl-Abbas ibn Cibril ibn Mikail əl-Varraq əş-Şəmkiri və Əbu-l-Qasim əl-Mucma' ibn Yəhya əş-Şəmkuri kimi məşhur alimlərin anadan olduğu şəhərdir (1, s. 187). XIX əsrin ortalarınadək mövcud olmuş, öz əzəmət və gözəlliyi ilə səyyah və alimləri heyrətləndirən Şəmkir minarəsi, eləcə də arxeoloji qazıntılar zamanı aşkarlanan maddi mədəniyyət qalıqları, xüsusilə dekorativ-tətbiqi sənət nümunələrinin: keramika, metal, şüşə və s. bədii tərtibatı, bəzilərinin üzərində yazıların olması, həmçinin tapılan yazı ləvazimatı şəhər sakinlərinin mədəni səviyyəsi, savadlılıq dərəcəsi haqqında müəyyən mülahizələr irəli sürməyə əsas verir.

Şəmkir şəhəri Arran memarlıq məktəbinin mühüm mərkəzlərindən biri idi. Bişmiş kərpicin dekorativ imkanları orta yüzilliklərdə onun üzlük materialı kimi zəngin bəzək çeşniləri yaratmasını şərtləndirmiş, Arran memarlıq məktəbində "kərpici", "cınağı" naxış motivlərindən geniş istifadə edilmişdir. Şəmkir şəhərinin arxeoloji qazıntılarından üzə çıxarılan tikinti qalıqları əsasında müəyyən etmək olar ki, "cınağı" naxış orta əsr ustalarının ən sevimli kərpic bəzəklərindən olmaqla divar səthlərinə dinamiklik, oynaqlıq gətirirdi. Bu naxış üzlük kərpiclərin ardıcıl olaraq tininə, üfüqi və dikinə düzümü yolu ilə yaradılırdı.



Şəkil 1 Bəzəkli divar qalıqları.

Yaşayış evlərinin, ictimai təyinatlı binaların bədii tərtibatında xüsusi bəzək kərpiclərindən də istifadə olunurdu. Şəhristanın, demək olar ki, mərkəzində aparılan arxeoloji qazıntılar nəticəsində üzə çıxarılmış ictimai təyinatlı kompleksin bəzi otaqların divarına düzbucaq, ücbucaq, trapes, rombşəkilli kicik ölçülü kərpiclərlə həndəsi naxış salınmışdır (şəkil 1). İstehsal olunan bəzi bəzək kərpicləri kitabələrin tərtibi üçün nəzərdə tutulurdu, ərəb əlifbasının hərfləri formasında hazırlanırdı.

XII əsrin ikinci yarısından başlayaraq şəhərdə ictimai və dini binaların bədii tərtibatında kaşılardan istifadə olunmağa başlanır. Onların bəzilərinin üzərində kufi xətli yazılara rast gəlinir.

Arran memarlıq məktəbinin nadir əsərlərindən hesab edilən Şəmkir narınqala divarlarının ucaldılmasında bişmiş kərpic, çaydaşı və yerli ağ daşdan (Zəyəm daşı), əhəngli məhluldan istifadə etməklə qarışıq hörgü üslubu tətbiq olunmuşdur. Ağ daş blokların, qırmızı kərpiclərin və boz-göy çay daşlarının ritmik şəkildə növbələşməsi bir tərəfdən göz oxşayan polixrom divar səthi yaradır, digər tərəfdən istehkama monumentallıq, əzəmət verir (şəkil 2) .

Şəmkir minarəsi XIX əsrin birinci yarısında şəhər yerində olmuş N.Florovskinin müfəssəl yazılı təsvirindən, rəssamlar Dübua de Monpere və Q.Qaqarinin çəkdikləri rəsmlərdən məlumdur. Yetkin üslubu, incə nisbətləri, biçim gözəlliyi ilə diqqəti çəkən bu minarə kirəc məhlulu, qum və xırda daşlardan istifadə etməklə bişmiş kərpicdən inşa edilmişdi. Hündürlüyü təxminən 61 m olmuş bu minarənin kub şəkilli kürsülüyü, yuxarısı karnizlə əhatələnən silindrik formada gövdəsi var idi. Minarə dairəvi tağ sıralı "fənərlə" tamamlanırdı. Karnizin altında kufi xətli kitabə olmuşdur. Şəmkir minarəsi səlcuq dövründə Came məscidləri yanında ucaldılan mil minarələrin mükəmməl örnəklərindən biri idi (2, s. 532).

Şəmkir şəhərinin narınqalasında üzə çıxarılmış əczaxana qalıqları da şəhərin mədəni həyatının göstəricilərindən biri hesab oluna bilər. Kompleksin



Şəkil 2 Narınqalanın cənub divarındakı bürcün hörgüsü.

arxeoloji tədqiqi zamanı əczaxana üçün səciyyəvi olan avadanlıq, həmçinin nəbati qalıqlar tapılıb. Əczaxanada cövhərin çəkilməsində, distillə prosesi üçün istifadə olunan ənbiqlərdən biri, demək olar ki, tam salamat qalmışdı (şəkil 3: 1). Sferokonuslar, boğazında havalandırma üçün kiçik deşiyi olan saxsı qablar, albarello tipli qablar, arakəsmə divarla iki hissəyə ayrılmış şirli saxsı qazan nümunəsi də əczaxana üçün səciyyəvi avadanlıqdır (şəkil 3). Tapıntılar arasında dərmanların hazırlanması və qablaşdırılmasında istifadə olunmuş şüşədən kolba və dərman qablarının fraqmentləri də çoxdur. Kompleksin tədqiqi zamanı aşkarlanmış kömürlənmiş nəbati qalıqlar müalicəvi xassələrə malik olub orta əsrlərdə dərmanların hazırlanmasında xammal kimi istifadə edilirdi.

Şəhərdə abadlıqla əlaqəli problemlərin həlli və sakinlərin sağlam, rahat həyat tərzini təmin edən mühəndis qurğularının mövcudluğu Şəmkirdə mədəni həyatının yüksək səviyyəsindən xəbər verir. Arxeoloji qazıntılar şəhərin küçə və meydanlarının yastı daş, bişmiş kərpic və xırda daşlı, sıxlaşdırılmış torpaq və ya xırda daşlarla əhəngli məhlulun qarışığından ibarət qatla döşəndiyini göstərir. Sakinlərin içməli su ilə təmin edilməsi üçün ətraf ərazilərdəki bulaqların suyu kəhriz və ya tünglərdən quraşdırılmış kəmərlər vasitəsi ilə şəhərə gətirilirdi. Tünglərdən quraşdırılmış kəmərlər həm də şəhər




Şəkil 3 Əczəxanadan tapılan bəzi saxsı qab nümunələri

daxilində suyun paylanmasını təmin edirdi. Ovdan tipli hidrotikinti də su təchizatı ilə əlaqəli maraqlı tikinti qalıqlarındandır. Şəhər abadlığının təminatı ilə bağlı digər istiqamət şəhərin sanitariya-gigiena durumunun nəzarətdə saxlanılması idi. Arxeoloji qazıntılar zamanı şaxələnmiş ümumşəhər kanalizasiya şəbəkəsinin üzə çıxarılması Şəmkirdə sanitariya-gigiena durumunun sağlamlaşmasına yönəlmiş mühəndis qurğularının inşasının diqqət mərkəzində olduğunu təsdiqləyir (3, s. 92-93).

Şəhərlərin mədəni səviyyəsinin və mədəni əlaqələrinin öyrənilməsində mühüm mənbələrdən biri dekorativ-tətbiqi sənət nümunələridir. Nizami Gəncəvi dövrü Şəmkir şəhərində bədii sənət sahələrinin coşqun inkişafı ilə əlamətdar olmuşdur. Bu dövrün bədii sənətkarlıq məmulatı utilitar ehtiyacları ödəməklə yanaşı, həm də bədii-ideya yükü daşıyır, cəmiyyətin estetik ideallarını və incə zövqünü əks etdirirdi. Arxeoloji qazıntılar nəticəsində dövrün dekorativ-tətbiqi sənətlərini səciyyələndirməyə imkan verən xeyli bədii keramika, metal, şüşə, daş, sümük və s. bədii sənət nümunələri tapılmışdır.

Məişətdə geniş istifadə olunan bədii keramika kütləvi tapıntı olduğundan XII-XIII əsrin əvvəllərində şəhər əhalisinin müxtəlif sosial təbəqələrinin bədii zövqünü daha qabarıq əks etdirir, istər bədii işlənməsi, istər forma müxtəlifliyi və mükəmməlliyi, istərsə də naxış motivlərinin zənginliyi ilə fərqlənir. Şirsiz saxsı məmulatı, əsasən, cızma və yapma, bəzi hallarda qazma, kəsmə, basma naxışlarla bəzədilirdi. Bəzi saya qablar hətta forma gözəlliyi - qabın müxtəlif hissələrinin ahəngdarlığı, şaquli və üfüqi xətlərin, maili və əyrilərin uğurlu uzlaşması ilə güclü estetik təsirə malikdir. Şirsiz saxsı məmulat arasında basmanaxışlı qablar dekor zənginliyi ilə daha çox fərqlənirlər. Bu dövrdə hətta iri təsərrüfat küplərinin üzərində möhürlə basılmış təsviri motivli ornamental bəzəklərə təsadüf olunur. Küplərin üzərində möhürlə basılmış qurşaqlardakı təsvirlər çox müxtəlifdir. Burada müxtəlif kompozisiyada "həyat ağacı", keçi, at, maral, quş, it, balıq təsvirləri verilmişdir (şəkil 4: 2). Nümunələrdən birində şahinlə ov səhnəsi təsvir edilmişdir (4, s.18, tablo VI, 3). Küplərin üzərlərindəki ornamental qurşaqlardakı təsvirlərdə heyvanlar ya bir-birinin arxasında adi vəziyyətdə dayanmış və yaxud da onlar bir-birinin ardınca qaçırlar. Bəzi hallarda heyvan təsvirləri iki ağac arasında yerləşir, çox zaman isə onlar ağacın ətrafında üz-üzə dayanmış vəziyyətdədirlər. Bir neçə ornamental qurşaqda bir-birinin arxasında olan heyvan rəsmləri növbə ilə quş (xoruz) rəsmləri ilə əvəz olunur. Heyvan təsvirləri ilə birlikdə verilmiş iri balıq rəsmlərinə də rast gəlinir (4, s. 13-19).

Şəmkirin Nizami Gəncəvi dövrü şirsiz saxsı qablarının bir qrupunu basmanaxışlı bardaqlar təşkil edir. Onların dekorunda həndəsi, nəbati, epiqrafik naxışlara daha çox rast gəlinir, təsvir motivləri də az deyil (4, s. 72-75). Bir nümunədə, bardağın çiyninin fraqmenti üzərində nəbati fonda yırtıcının ot yeyən heyvanı ovlaması səhnəsi təsvir edilib (şəkil 4: 1). Təsvir əsasında yırtıcının ov pələngi, ot yeyən heyvanın isə zebu olduğunu ehtimal etmək olar. Təsvir dinamikliyi, gərginliyi ilə diqqəti çəkir. Təsvirdə diqqəti cəlb edən məqamlardan biri yırtıcı heyvanın boynunda xaltanın olmasıdır. Təsvirdəki bu element təsadüfi olmayıb, görünür, yırtıcı heyvanın ov pələngi olmasını nəzərə çatdırmaq məqsədi daşımışdır. Ov pələngindən istifadə qədimdən məlumdur. “Əcaib əd-Dünya” bu yırtıcının sürətli heyvan olduğunu xüsusi vurğulayır (5, c. 118). Orta əsrlərdə Bizansda, Hindistanda, Müsəlman Şərqində və Qərbi Avropada ov əyləncələrində pələngdən geniş istifadə olunurdu (4, s. 74).




1



2

Şəkil 4. Şirsiz bədii saxsı məmulatı: 1) basma naxışlı bardaq parçası; 2- boyalı, basma naxışlı küplərin fraqmentləri

Təkcə süfrə qabları deyil, hətta mətbəx qablarının zəngin bədii tərtibatı diqqəti cəlb edir. Başlıca mətbəx qabı olan saxsı qazanların müxtəlif üsullarla naxışlanması, bəzən əlavə olaraq firuzəyi fayans və ya şirli saxsı qab qırıntıları ilə inkrustasiya olunması bu dövr üçün səciyyəvidir.

XII-XIII əsrin ilk qərinəsində şirli saxsı məmulatının bədii işlənməsi daha mükəmməl xarakter alır. Dulusçu rəssamlar həndəsi və nəbati naxışları təkmilləşdirməklə yanaşı, öz yaradıcılığında təsvir motivlərinə də geniş yer verirlər.

İslam dininin təsviri sənəti qadağan etməsi barədə elmi ədəbiyyatda rast gəlinən fikirlərlə tam razılaşmaq çətindir. Belə ki, tarixin müxtəlif mərhələlərində, müsəlman aləmin müxtəlif bölgələrində təsviri sənətə münasibət bir mənalı, eyni xarakterli olmamış, sosial-iqtisadi, mədəni-ideoloji durumun xarakterindən asılı olaraq zaman-zaman fərqli münasibət formalaşmışdır. Qeyd etmək lazımdır ki, səlcuqlar dönəmində dekorativ-tətbiqi sənət sahələrində qədim ənənələrin dirçəlməsi, transformasiya olunaraq dövrün sosial, mədəni-ideoloji və fəlsəfi-əxlaqi baxışlarına uyğunlaşdırılması prosesi genişlənmişdi. Dövrün qabaqcıl mütəffəkkirlərinin təsviri sənətə müsbət münasibəti, bədii yaradıcılığın bu sahəsinin yüksək qiymətləndirməsi bədii keramika üzərində heyvan və quşların rəsmlərinin, süjetli səhnələrin təsvirinin geniş yayılmasını ideoloji baxımdan şərtləndirmişdi. Nizami Gəncəvi dövründə dulusçu rəssamlar həndəsi və nəbati naxışları təkmilləşdirməklə yanaşı, öz yaradıcılıqlarında təsvir motivlərinə də müraciət edir, hətta epik mövzularda süjetli səhnələr çəkir, yüksək bədiiliyi ilə fərqlənən gözəl sənət əsərləri yaradırdılar. Xüsusilə məişətdə geniş işlədilən bədii keramika məmulatının zoomorf və antropomorf təsvir motivləri ilə bəzədilməsi geniş yer almışdı (şəkil 5). Canlı varlıqların, xüsusilə insanın rəsminin çəkilməsində şərtilik diqqəti çəkməyə bilməz. Görünür, dulusçu-rəssamlar düşünülmüş şəkildə şərtiliyə yol verirdilər. Bu şərtilik dini tələblərdən irəli gəlirdi.

Məlum olduğu kimi, islam dini canlı varlıqların rəsmini çəkilməsini məqbul saymırdı. Hədislərdə canlı varlıqların təsvirinin çəkilməsi insanın onu yaradan Allah ilə rəqabətə girmək cəhdi kimi qiymətləndirilirdi. Hədislərdən birində bildirilir ki, insan canlı varlıq təsvirini çəkməklə Allahla rəqabətə girmiş olur. Çünki canlı varlıqlara ruh vermək, onu canlandırmaq qüdrəti yalnız Allaha məxsusdur. İnsan cəkdiyi canlı varlıqlara ruh vermək, onları canlandırmaq iqtidarında deyil. Qiyamət günü rəssamlardan çəkdikləri rəsmləri canlandırmaq, onlara ruh vermək tələb olunacaq. Onlar bunu edə bil-

məyəcəklər və onların ruhu çəkdikləri təsvirlərə veriləcək. Rəssamlar Allahı yamsılamamaq, Onunla yarışa girməmək düşüncəsi ilə, çəkdikləri rəsmləri şərtiləşdirirdilər. Bunu da xatırladaq ki, orta əsr müsəlman rəssamlarının yaradıcılıq sahələri sitayişdən uzaq obyektlər, əsasən məişətlə bağlı artefaktlar idi. Hədis şərhçisi ən-Nəva bildirirdi ki, "Təsvir yerə döşənən xalça, başaltı yastıq, dirsəklənmək üçün istifadə olunan mütəkkə, ya etinasız münasibət bəslənən əşyanın üzərindədirsə, bu, qadağan deyildir" ( 6, c. 150). Məşhur ilahiyyatçı əl-Qazəli yazırdı ki, "Rəsmli yastıqlar və xalçalara gəldikdə isə onlar da nimçə, boşqab və qablardakı rəsmlər kimi kimi axmaq fəaliyyətə aid deyil" (7, c. 135). Üzərində təsvir olan məişət əşyaları hətta Məhəmməd peyğəmbərin evində olmuşdur. Əbu Talxi əl-Ənsarinin məlumatına görə, Aişə üzərində təsvirlər olan yasdıqlar tikdiyinə görə Məhəmməd peygəmbərin onu danlamadığını bildirmişdi (8, c. 31).

Şəmkir dulusçu-rəssamları məmulatı bu və ya digər həndəsi, nəbati naxışlar və təsvirlərlə bəzəyərkən dekorun forma ilə uzlaşmasına diqqət verir, əksər hallarda dekor formanın ifadəliyini daha da gücləndirirdi. Polixrom qabların bədii tərtibatında dulusçu-rəssamlar rənglərin seçilməsində, tünd və açıq, soyuq və isti rənglərin ahəngdarlığına nail olmaqda böyük kamillik nümayiş etdirmişlər (9). Dulusçu rəssamlar bəzəkdəki hər bir ayrıntı, hər bir cizgini bir-biri ilə sıx bağlamaqla kompozisiyanın ümumiliyinə və bütövlüyünə nail olurdular. Nizami Gəncəvinin yazdığı kimi:

Bir cizgi naxışdan çıxarsa kənar,
Başqa cizgilər də bütün pozular.

Şəmkir dulusçuları gil parçasından nadir sənət nümunələri yaratmaqla o dövr üçün şəhərin yüksək mədəniyyətini əks etdirən təsvir səhnəli, əlvan və parlaq palitraya malik şirli saxsı qablar istehsal etmişlər.

Şəhər əhalisinin məişətində zərif fayans qab-qacaqdan da geniş istifadə edilirdi. Xüsusilə zərnaxışlı və "minai" tipli fayans qablar yüksək bədiiliyi ilə fərqlənirlər. Forma və dekor müxtəlifliyi ilə fərqlənən zərnaxışlı fayans qabların bədii tərtibatı üçün təsvir motivləri, həndəsi, nəbati və epiqrafik naxışlar səciyyəvidir. Əksər hallarda təsvir və naxışları yazılar müşayiət edir.

Zərnaxışlı fayans qabların məşhur istehsal mərkəzləri Kaşan, Rey, Sultanabad olsa da, belə qablar Arran keramika məktəblərinin başlıca mərkəzlərində, ilk növbədə Gəncə şəhərində də istehsal edilirdi.

"Minai" tipli fayans qab nümunələri texnoloji xüsusiyyətlərinə görə iki qrupa ayrılır: a) ağ, südrəngi şir üzrə polixrom şirlər və şirsiz rənglərlə işlənmiş qablar; b) firuzəyi şir üzrə polixrom şirlər və şirsiz rənglərlə işlənmiş

qablar (10). Birinci qrupa daxil olan nümunələr daha çoxdur və mürəkkəb süjetli, yüksək bədiiliyi ilə fərqlənən, miniatürləri xatırladan nümunələr məhz bu qrupda qərarlaşıb. Misal olaraq kasa tipli qab parçası qeyd etmək olar. Qabın dibində, kompozisiyanın mərkəzində dairə içərisində nəbati fonda atlı təsvir olunub (şəkil 5: 6). At qəhvəyi, qara, mavi rənglərlə işlənərək, qaçış anında təsvir edilib. Süvarinin başının üzərində halə olması onun seçilmiş şəxs olmasına dəlalət edir. Bunu habelə atın bəzədilməsi, quyruğunun isə düyünlənmiş vəziyyətdə təsvir edilməsi də təsdiqləyir. Xatırladaq ki, atın quyruğunun düyünlənməsi adəti səlcuqlarda olmuş və süvarinin əyanlar təbəqəsinə mənsubluğuna dəlalət edir. Döyüşdən öncə atın quyruğunun düyünlənməsi döyüşçünün qələbə uğrunda ölümə hazır olmasının rəmzi hesab edilirdi. Kiçik tutumlu kasa tipli qaba məxsus digər bir fraqment üzərində də süjetli səhnə, çatma qaşlı, iri gözlü, saçları çiyninə tökülmüş atlı təsviri çəkilib. Onun başının üzərində halə vardır. Burada təsvirdəki dinamika, açıq-qəhvəyi, solğun qəhvəyi, boz rəng çalarlarının, qara və qırmızı-qəhvəyi rənglərlə uğurlu ahəngi, süvari və atın təsvir travtovkası bədii ifadəliyi gücləndirir (şəkil 5: 5).

"Minai" tipli fayans qabların üzərindəki süjetli təsvir motivləri, bir növ, o dövrün kitab miniatürlərini xatırladır. Bu nöqteyi-nəzərdən "minai" tipli fayans qabların üzərindəki təsvirlərin İstanbulda Topqapı sarayının kitabxanasında qorunan, miniatürçü rəssam Xoy şəhərindən olan Əbdül Mömin ibn Məhəmmədin "Vərqa və Gülşa" əlyazmasına çəkilmiş miniatürlərlə müqayisəsi diqqətəlayiqdir. İstər ikonoqrafiya, istərsə rəng çalarlarında yaxınlıq o qədər aydın izlənilir ki, hətta "minai" tipli fayans qabların miniatürçi rəssam tərəfindən bəzədildiyini düşünmək olar. Müqayisəli təhlil həm də səlcuqlar dönəmində təsviri sənətdə vahid üslub halında özünü göstərən ikonoqrafik sxemlərin formalaşdığını təsdiqləməyə əsas verir.

Ümumiyyətlə, təsvir motivli "minai" tipli fayans qablar orta əsr dekorativ-tətbiqi sənətin parlaq nümunələri olub maraqlı kompozisiya və kolorit əlvanlığı ilə insanı valeh edir. Bu qabların üzərindəki miniatürlərin şərtiliyinə baxmayaraq onlarda dekorativliyə əsaslanan realist meyl aydın izlənir, əlvan rənglər, ritmik dəyişən cizgilər, kompozisiya aydınlığı bədii ifadəliyi gücləndirir. Bütün bunlar süjetli motivlərə malik "minai" tipli fayans qabların bədii keramikanın nadir örnəkləri sırasına daxil edilməsini şərtləndirir.

"Minai" tipli qabların istehsalına XII əsrin son rübündə başlanılmışdı və Kaşan şəhərində monqol işğalına qədər bu tip qabların istehsalı çiçəklənmə çağını yaşamışdı. Keramika üzərində bu miniatür təsvirlər Azərbaycan




Şəkil 4 . Şirli keramika nümunələri: 1-4- şirli polixrom saxsı qab nümunələri; 5-6- "minai" tipli fayans qab parçaları.

Atabəyləri dövlətində əhalinin məişəti, zövq və əxlaqı, bədii idealları haqqında mötəbər mənbədir.

Nizami Gəncəvi dövründə Şəmkir şəhərində metalın bədii işlənməsi kifayət qədər inkişaf etmişdi, maraqlı torevtika nümunələri istehsal olunurdu. XII əsrə aid edilən metal nimçə orta əsr Azərbaycan torevtikasının nəfis nümunələrindəndir. Nimçədə ərəb əlifbasının kufi xətti ilə həkk olunmuş yazı nəbati naxışla çulğalaşaraq tamlıq, bitkinlik yaradır.

Arxeoloji qazıntılar nəticədə tapılan bədii şüşə məmulatı forma və biçimlərinin gözəlliyi, rənglərinin müxtəlifliyi və parlaqlığı, zərif naxışları ilə fərqlənir. Onların bədii tərtibatı üçün həndəsi kəsmələr, qabarıq və batıq naxışlar, sarğı şəkilli yapışdırmalar, müxtəlif rənglərin "mozaikası" və digər bəzəklər səciyyəvidir.

Yapışdırma naxışlar qabların boğazına və çiyin hissəsinə tutqun-şabalıdı, sarı və firuzəyi rəngli şüşədən ip şəklində düzəldilərək yapışdırılmışdır.

Arxeoloji qazıntılar zamanı aşkarlanmış epiqrafik tapıntıların hər biri böyük tarixi-mədəni əhəmiyyət kəsb edir. Həmin kitabələrdə Azərbaycanın orta çağda sosial-iqtisadi, siyasi və mədəni inkişafının ayrı-ayrı məsələlərinə aydınlıq gətirən məlumatlara, hikmətli kəlamlara, xeyir-dualara və s. rast gəlinir. Azərbaycanın digər şəhərlərində olduğu kimi, Şəmkirdə də müxtəlif təyinatlı keramika, metal, şüşə məmulatında və digər məişət əşyalarında kitabələr əsasən ərəb əlifbasının kufi və nəsx xətlərində həkk edilirdi.

Qazıntılar nəticəsində tapılan yüksək qiymətli fayans qabların üzərindəki yazılarla bərabər, sıravi şəhər sakinlərinin məişətində işlədilən sadə qabların da üzərində yazılara rast gəlinir. Bu isə sadə əhali kütləsinin, o cümlədən adi dulusçuların yazıb-oxumağı bacardıqlarına dəyərli sübutdur.

Şəhərin mədəni həyatında intellektual oyunlar mühüm yer tuturdu. Şəhərdə sakinlərin şahmat və nərd oyunlarına maraq göstərməsi arxeoloji dəlillərlə təsdiqlənir. Şəhər yerindən arxeoloji qazıntılar zamanı ağac və sümükdən hazırlanmış şahmat fiqurlarına rast gəlinib. Şəhər yerindən üzərində sehirli kvadratların cızıldığı bişmiş kərpicin tapılması da intellektual oyunların yayılmasına dəlalət edir.

Bütövlükdə, orta əsr Şəmkir şəhərinin arxeoloji tədqiqinin nəticələri XII-XIII əsrin ilk qərinəsində Azərbaycanın digər şəhərlərində olduğu kimi bu şəhərdə mədəni mühitin yüksək səviyyəsini nümayiş etdirir.

### Ədəbiyyat

1. Ş. əl-Qəlqəşəndi. Sübh əl-ə şə fi sinaat əl-inşa // Orta əsr ərəb mənbələrində Azərbaycan tarixinə aid materiallar. Bakı: "Nurlan". – 2005, s. 176-191
2. Qiyasi C. Azərbaycan memarlığında Səlcuqlar dövrü minarələri //Antik və Orta əsr Azərbaycan şəhərləri:arxeoloji irsi, tarixi və memarlığı. Beynəlxalq elmi konfransın materialları. Bakı, 2012, s. 529-535.
3. Dostiyev T.M. Orta sr Şəmkir şəhərinin abadlığı arxeoloji qazıntılar işığında // Bakı Universitetinin Xəbərləri, humanitar ser., 2015, №1, c. 89-96
4. Dostiyev T.V. Orta əsr Şəmkir şəhərinin keramikası. I Hissə. Şirsiz saxsı məmulatı. Bakı: Apostrof-A, 2020, 224 s.

5. Аджаиб ад-дунья (Чудеса мира). Перевод с персидского Л.П.Смирнова. Москва: Наука, 1993, 544 с.
6. Большаков О.Г. Ислам и изобразительное искусство // Труды Гос. Эрмитажа, т. X, 1969, с. 142-153.
7. Абу Хамид ал-Газали. Воскрешение наук о вере. Москва: Наука, 1980, 376 с.
8. Назарли М.Д. Если кто спросит, от кого (берет начало) живопись, дай следующий ответ... // Классическое искусство исламского мира IX–XIX веков. Девяносто девять имен Всевышнего = Classical Art of Islamic World from IX to XIX Centuries. Ninety-nine Names of God: (выставка, 20 февр. – 19 мая 2013) – Москва: Изд. дом Марджани, 2013, с. 28-33.
9. Достиев Т.М. Поливная керамика средневекового города Шамкир // Поливная керамика Средиземноморья и Причерноморья X—XVIII вв. Том 2. Казань — Кишинев: “Stratum-plus”, 2017, с. 639-674.
10. Dostiyev T.M. Şəmkir şəhər yerindən tapılmış “minai” tipli fayans qablar // Azərbaycan arxeologiyası, 2015, №1, s. 82-92.

## Summary

## Cultural life of Shamkir city in the Nizami Ganjavis epoch

## Tarikh Dostiev

The article is about the cultural life of the city of Shamkir in the Nizami Ganjavis epoch. The city was one of the centers of the Arran School of Architecture. The Shamkir minaret, striking in its beauty for scientists and travelers, testified to the high level of religious architecture in the city. Artistic handicrafts are especially motley and beautiful. Artistic ceramics is the most widespread type of decorative art, and in it the characteristic features of the artistic culture of the era were especially clearly manifested - especially the tendency towards the synthesis of arts, combined with great perfection and harmony with ornament, calligraphy and painting. The archaeological materials determine the facts of playing chess, nard, which were a popular way of spending leisure time.


**Key words:** Nizami Ganjavis epoch, Shamkir, urban culture, Arran architectural school, Muslim culture


## Резюме

## Культурная жизнь города Шамкир в эпоху Низами Гянджеви

## Тарих Достиев

В статье представлена информация о культурной жизни города Шамкир в эпоху Низами Гянджеви. Город был одним из центров Арранской архитектурной школы. Шамкирский минарет, поражающий своей красотой ученых и путешественников, свидетельствовал о высоком уровне культовой архитектуры в городе. Особого разнообразия и большой красоты достигли изделия художественных ремесел. Художественная керамика выступает наиболее массовым видом декоративно-прикладного искусства, и в ней особенно ярко проявились характерные черты художественной культуры эпохи – особенно тенденция к синтезу искусств, с большим совершенством и гармонией сочетавшаяся с орнаментом, каллиграфией и живописью. В археологических материалах зафиксированы факты игры в шахматы, нарды, которые были популярным способом проведения досуга.


**Ключевые слова**: Эпоха Низами Гянджеви, Шамкир, городская культура, Арранская архитектурная школа, мусульманская культура.

Azərbaycan Arxeologiyası Volume 20 № 2 2017, 109-119
Khazar University Press DOI: 10.5782/2218-0346.2017.20.2.109

# Naxçıvan Dövlət Tarix Muzeyində nümayiş etdirilən mis sərpuşun kitabələri

**Afaq Quluzadə**
AMEA Arxeologiya Etnoqrafiya və Antropologiya İnstitutu
afaq-quluzade@mail.ru

**Açar Sözlər:** Naxçıvan Dövlət Tarix Muzeyi, sərpuş, Hafiz Şirazi, qəzəl, ornament.

Sərpuş- سرپوش fars dilindəki سر - üst, üz, baş (burada yerinə görə) və پوشیدن-örtmək, gizlətmək məsdərinin kökü پوش-un birləşməsindən düzəlmiş və üstünü örtmək deməkdir, qapaq mənasında işlənir (1, s.388, 901; 2, c.I, s.315, c.II, s.26). Sərpuş süfrəyə gətirilən xörəklərin soyumaması üçün qabın üzərinə qoyulur. Misdən hazırlanan bu qapaqlar formaca konusvari şəkildədir; aşağı hissəsi enli olmaqla yuxarıya doğru getdikcə daralır və ucu şiş papağa oxşayır. Onların bu şəkildə düzəldilməsi xörəyi bir müddət isti saxlayır. Yastı qapaqdan fərqli olaraq burada isti yeməkdən qalxan buğ yeməyin üzərində qalmayıb yuxarıya toplanır, bu da xörəyin keyfiyyətinə təsir etmədən onun isti qalmasını təmin edir. İncə zövqlə və sənətkarlıqla düzəldilən, həndəsi, nəbati, quş, bəzən insan və heyvan təsvirləri ilə naxışlanan sərpuşlar süfrəyə yaraşıq verirdi. Nəfis tərtibatlı və bahalı sayılan belə qablar orta əsrlərdən bəri əsasən saraylarda –hökmdar və əyanların, varlı şəxslərin istifadəsində olurdu. Sərpuşlar üzərində incə nəbati naxış və təsvirlər nəqş edilməklə yanaşı kiçik poetik nümunələr də yazılırdı. Daha çox məşhur şairlərin divanından götürülən bu seçmələr sərpuşa bir kompozisiya gözəlliyi verməklə, süfrənin də gözoxşayan, zövqlü görünməsinə xidmət edirdi. Bununla yanaşı, məclisdəki savadlı bir şəxs tərəfindən oxunurdusa, məclis əhlində xoş əhval- ruhiyyə yaradır, eyni zamanda şeirin müəllifinə, onun yaradıcılığına maraq oyanırdı. Beləliklə, şair kiçik poetik söhbətlərlə bir növ təbliğ olunurdu. Sərpuş Şərq ölkələrində, xüsusilə İran, Türkiyə və Azərbaycanda daha çox istifadə edilirdi.

XIX əsrin sonlarında rus coğrafiyaşünası, Peterburq Elmlər Akademiyasının müxbir üzvü Qustav İvanoviç Radde Qafqaz muzeyinin (indi Gürcüstan Milli Muzeyi) etnoqrafiya zalında Şirvanın keçmiş əyalətlərindən, İrəvandan gətirilmiş, xörəyin və xüsusilə də plovun üstünü örtmək üçün işlədilən dəbilqəşəkilli metal qapaqların saxlanıldığını qeyd edirdi (3, s.30).

Sərpuşlar xarici görünüşünə görə dəbilqəyə çox oxşayır. Təsadüfi deyil ki, bu oxşarlığa görə, 1950-ci ilin avqust ayında Pyatiqorsk yaxınlığındakı Podkumok çayından təsadüfən tapılan sferokonusvari bürünc əşyanın da dəbilqə olduğu güman edilmişdir. Prof. V.İ.Filonenko 1951-ci ilin fevral ayının 28-də "Şərq epiqrafikası" jurnalının redaksiyasına dəbilqənin şəkli ilə bərabər göndərdiyi məktubunda əşyanın səthində- haşiyə daxilində nəbati ornamentlərin, qadın və quş təsvirlərinin işləndiyini, kartuşlar daxilində farsdilli kitabələrin həkk olunduğunu qeyd edir. O, bu tapıntının gürcü-İran müharibələrinin şahidi ola biləcəyini ehtimal edir. Tanınmış rus şərqşünası V.A. Kraçkovskaya da bu tapıntını dəbilqə hesab edərək onun üzərindəki şeirlərin iranşünaslar tərəfindən ətraflı öyrənilməsini arzuolunan hesab edirdi (4, s. 115, 116). Döyüş zamanı zərbədən qorunmaq üçün başa qoyulan dəbilqələr üzərində qadın və quş təsvirlərinin nəqş olunmasına təsadüf edilmir. V.İ.Filonenkonun qeydlərindən və illüstrasiyadan bürünc əşyanın dəbilqə olmadığı aydın görünür. Əşyanın illüstrasiyada görünən tərəflərindəki kitabələri oxuduq və bu misralar onun sərpuş olduğunu bildirir:

ز روی قاب سرپوش بردار
که یار تعام را نوش کند

*Qabın üzərindən sərpuşu qaldır*
*Ki, yar xörəyi nuş etsin*

Azərbaycanın tarix və incəsənət profilli muzeylərində, şəxsi kolleksiyalarda xalqımızın əsrlər boyu yaratdığı maddi sərvətimizin bir nümunəsi olan incə naxışlı və kitabəli sərpuşlar qorunur. Son illərdə ölkəmizin muzey fondlarında olan mis qablar sırasında sərpuşlar üzərindəki kitabələr də oxunaraq çap etdirilmişdir. Kitabələrin böyük əksəriyyətini Səədi Şirazi və Hafiz Şirazinin beytləri təşkil edir (5; 6; 7).

Naxçıvan Dövlət Tarix Muzeyi ekspozisiyasında nümayiş etdirilən müxtəlif təyinatlı mis məişət əşyaları sırasında öz kompozisiya həlli və kitabə mətnlərinin tərtibi baxımından əsil sənət əsəri olan bir sərpuş (inv. № НИМ-КП-987/ ПБ-38) diqqəti daha çox cəlb edir. Çevrəsi 76 sm, diametri 35 sm, hündürlüyü 36 sm olan konusvari sərpuşun ağzının kənarı bayıra qatlanmışdır. Şərpuşu rahat götürmək ücün onun yuxarı hissəsi on bir ləcəkli gül qonçası şəklində düzəldilərək, kicik konusvari elementlə tamamlanır. Bu element yanan şama bənzədilib. Qabın üzəri cox nəfis şəkildə naxışlanmış və fars dilində kitabələr həkk edilmişdir. Sərpuşun həndəsi ornament, nəbati naxış və kitabələrdən ibarət bəzəyi süjetli və süjetsiz olmaqla doqquz cərgə dairəvi qurşaqda yerləşdirilmişdir. Hər bir qurşaq kənar xətlərlə əhatələnib. *Bir,*

*iki, dörd, beş, altı, səkkiz və doqquzuncu cərgələrin bəzəyi həndəsi, nəbati naxış və quş təsvirlərindən ibarətdir. Kitabələr üçüncü və yeddinci cərgələrdə nəqş edlmişdir*. Hər bir cərgənin arasında, yəni iki, dörd, altı və səkkizinci cərgələrdə onları bir-birindən ayıran ensiz haşiyə şəklindəki qurşaq eyni naxışa - bir-birinə zəncirvari bitişik olan dördbucaqlılardan ibarətdir. İlk baxışda çox sadə görünən bu dördbucaqlılar dördləçəkli çiçəyi təmsil edir.

Qeyd etmək lazımdır ki, haşiyə daxilindəki bu həndəsi ornament motivinin işlənilməsini bir neçə variantda təsvir etmək olar:

a) haşiyənin kənar xətlərindən başlayaraq bir-birinə üzbəüz olan kiçik üçbucaqlar çızılmışdır. Bucaqları bir-birilə birləşən bu həndəsi fiqurların tərəfləri arasındakı boşluqda bir-birilə zəncir şəklində birləşən dördbucaqlılar- romblar əmələ gəlmişdir; üçbucaqlıların daxilində kiçik yarımdairə cızılıb. Dördbucaqlıların daxilində üzbəüz tərəflərə doğru ***X*** şəklində çəkilən xətlər vasitəsilə daha dörd ədəd kiçik dördbucaqlı yaranmışdır. Çarpaz çəkilən bu xətlərin mərkəzində kiçik dairə çəkilib (sxem 1).



sxem 1

b) düz xətlərin haşiyə boyu cəpəki olaraq qalxıb-enmə şəklində cızılması ilə iri üçbucaqlılar əmələ gətirilib. Aşağı kənar xətdə yerinə yetirilən bu üsul yuxarı kənar xətdə təkrar edilmişdir; bu dəfə yaranan üçbucaqlıların bucaqları əvvəlki üçbucaqlıların haşiyənin kənar xəttindəki tərəfinə düşür. Beləliklə, yenə bir-birinə zəncirvari bağlanan kicik dördbucaqlilar yaranır (sxem 2).



sxem 2

c) haşiyə daxilində kiçik dördbucaqlılar cızılmış, digər kiçik elementlər əvvəlki üsulla təkrar edilmişdir (sxem 3).

d) haşiyə daxilində əvvəl bir istiqamətdə iri üçbucaq, sonra yenə eyni ölçüdəki ikincinin bucaqları birincinin boş yerinə düşməklə iri üçbucaqlar cızılmışdır (sxem 4).



sxem 3



sxem 4

Birinci qurşağın bəzək kompozisiyası aşağıdakı kimi qurulub:

Qurşağın aşağı enli hissəsində iki cərgə zanbaq gülü işlənmişdir. Birinci cərgədəki güllər üzü aşağıya doğru, ikincisi isə əksinə olaraq, yuxarıya istiqamətlənmişdir. Birinci cərgədəki gülün budağı azca yuxarı qalxaraq-sağa və sola doğru iki qola ayrılır. Bunlar həmin cərgədəki digər güllərdən ayrılan budaqlarla ikinci cərgədəki gülün üstündə birləşərək sərpuşun yuxarısına doğru uzanır; get-gedə bir-birinə yaxınlaşaraq uzunsov həndəsi fiqur əmələ gətirir. Fiqurun daxilində qoşa yarpaqlı budaq üzərində olan dörd ləçəkli güldən yeni güllər ayrılır; səkkiz ədəd belə gül yuxarıya doğru getdikcə ölçüləri kiçilir.Ölçüsü kiçik olan bəzi çiçəklər svastikaya bənzədilmişdir. Hər iki cərgədəki zanbaq güllərinin daxilindəki nəbati təsvirlər bir-birindən fərqlənir. Birinci cərgədə olan zanbaqların arasındakı boşluqda yerləşdirilən gülün beş ləcəyi görünür; həmin ləcəklərin daxilində nəbati elementlər cızılıb. Bu güllərlə ikinci cərgədəki güllər bir-birinin davamı olaraq nazik budaqla birləşir;

Beşinci qurşaqvari haşiyədə buta təsvirləri nəqş edilmişdir. Butalar digər naxışlara nisbətən iri ölçüdə olduğundan diqqəti daha tez cəlb edir. On bir ədəd butanın hər birinin kənar haşiyəsində çoxlu sayda kiçik romblar (48 ədəd) və onların yan tərəflərində nöqtələr, daxilində isə gül budağı üzərində quş təsviri görünür. Buradakı güllər beş ləçəklidir. Bu süjet butaların hamısında eyni deyil. Belə ki, bir butada təsvir edilən quş qanadlarını yığıb oturmuşsa, digərində sanki pərvazlanıb uçmağa hazırlaşır. Butanın yuxarısında ayrıntı şəklində kiçik yarpaq işlənilib. Butanın özü isə dörd ləcəkli çiçəkdən ayrılan dayaq üzərindədir. On bir ədəd butaların arasında dairələr cızılmış, bunların daxilinə xətt çəkilməklə beşləçəkli çiçək naxışı yaradılmışdır. Bu qurşağın kənar xətləri boyunca nəbati və həndəsi üslubların sintezindən yaranan incə naxışlar nəqş edilmişdir;

Doqquzuncu cərgədə yuxarı hissəsi üç ləçəkli olan düzbucaqlı, onun üstündə ortadakı ləçəyə bitişik olaraq dördbucaqlı işlənmişdir. Yan-yana düzülən bu həndəsi fiqurların arasındakı boşluqda əmələ gələn dördbucaqlı daxilinə xətlər cızılmaqla sxematik olaraq altı ləcəkli çiçək yaradılıb. Həndəsi fiqurların üstündəki birinci dördbucaqlılar bir-birinə bitişdiyi üçün haşiyənin yuxarısında onların arasında yaranan üçbucaqlar daxilinə üç xətt çəkilmişdir. Sərpuşun üzərindəki kompozisiyanı doqquzuncu qurşaq tamamlayır;

Üçüncü cərgədəki qurşaqvari haşiyədə altı kartuş (xonça) daxilində fars dilində kitabələr həkk edilmişdir. Kartuşların hər birinin arasında qoşa kənar xətləri olan səkkiz ədəd həndəsi ornament işlənib. Bu ornament yuxarı hissəsi çatmatağlı olmaqla uzunsov düzbucaqlıdan ibarətdir. Daxilindəki ornament üç və beşinci haşiyələrdə olduğu kimi, iki ədəd kiçik dördbucaqlıdan ibarətdir. Çatmatağın daxilində isə dairə cızılmışdır. Ümumilikdə, bu qurşaqdakı həndəsi ornament insanın sxematik təsvirinə bənzəyir.

Adətən, mis əşyalar üzərində kitabələrin əvvəlini (başlanğıcını) bildirmək üçün birinci və sonuncu kartuşlar arasında iki ədəd ayırıcı, eyni ornament qoşa işlənilir. Burada həkk edilən şeirin əvvəli, əslində **دل** -sözü ilə başlanır, **آشكارا** sözü ilə qurtarır. Fərqləndirici qoşa ornament bu iki sözün arasında olmalı idi, lakin nəqqaş nədənsə, həmin ornamentləri **آشكارا** və **خواهد شد** sözləri arasında nəqş etmiş və burada qəzəl **آشكارا** sözü ilə başlanır. Buna baxmayaraq, XIV əsrdə yaşamış Hafiz Şirazinin on üç beytlik qəzəlinin birinci beytini olduğu kimi yazmaq düzgün olar (8, s.4): **دل ميرود ز دستم صاحبدلان خدارا**

**دردا كه راز پنهان خواهد شد آشكارا**

Burada qəzəlin birinci beyti altı kartuşda verilmişdir:

Beytin hər misrası üç kartuşda olmaqla aşağıdakı kimi yerləşdirilib. Birinci kartuşda: **دل ميرود ز دستم**

Burada **دل**və **ميرود** sözləri bitişik yazılmışdır.

İkinci kartuşda:

**صاحبدلان**

Burada sözün birinci hecası digər üç hecadan yuxarıda nəqş edilərək kartuşun görünüşünə zəriflik verir.

Üçüncü kartuşda:

**خدا را**

İkinci misradakı **دردا**sözü də burada yazılıb.

Dördüncü kartuşda:

**كه راز پنهان**

Beşinci kartuşda:

خواهد شد

Altıncı kartuşda:

آشکارا

Nəqqaş burada da kitabənin görünüşünə yaraşıq üçün sözün sonuncu hecasının ر hərfini ش hərfinin altında, ا hərfini isə üstündə həkk etmişdir.

Nəqqaş bəzi sözlərin sonuna - İkinci kartuşda صاحبدلان, dördüncüdə پنهان , beşinci kartuşda isə خواهد شد sözlərindən sonra orijinalda olmayan ا hərfini əlavə etmişdir. Bu da ola bilsin ki, hərflərin ətrafındakı boşluğu doldurmaq üçündür.

Beytin sətri tərcüməsi belədir:

*Ürək əllimdən gedir Allahın möminləri.*

*Dərddir ki, gizli sirrim aşkar olmaq istədi.*

Yeddinci qurşaqda fars dilində həkk edilən kitabə yuxarıda qeyd edilən qəzəlin ardıdır. Bu kitabə on iki kartuşda yerləşdirilib (8, s.4-5). Kartuşlar arasında birinci kitabədə olduğu kimi, eyni ornament işlənmişdir:

کشتی شکستکانیم ای باد شرطه برخیز
باشد که باز بینم دیدار آشنارا

ای صاحب کرامت شکرانه سلامت
روزی تفقدی کن درویش بینوا را
آیینه سکندر جام جم است بنگر
تا بر تو عرضه دارد احوال ملک دارا

Tərcüməsi:

*Gəmidə oturmuşlarıq, ey səmt küləyi, qalx!*
*Olar ki, yenə görəm dostların üzünü*
*Ey kəramət sahibi, salamatlığa şükür,*
*Bir ruzi yetir binəva dərvişə*
*İsgəndərin güzgüsü mey camıdır, bax ki,*
*Sənə ərzi vardır Dara mülkünün əhvalından*

Kitabənin yazılışında diakritik işarələr qoyulmayıb. Burada "del mirəvəd ze dəstəm" -دل میرود ز دستم sözləri ilə başlanan qəzəlin sətri tərcüməsini veririk.

Mis məişət qabları üzərində *"kəşti"* sözündən sonrakı söz bəzən *"neşəsteqanim"*, bəzən də *"şekəsteqanim"* şəklində nəqş edilmşdir. Hafiz Şirazi divanının əlyazma nüsxələrində bu beytin iki variantda rast gəlinməsi faktına münasibət bildirən Məsiağa Məhəmmədi qeyd edir ki, bu sözlərdən hər hansı

birinin seçilməsi mənada xeyli fərq yaratdığından mübahisələr səngimək bilmirdi. Azərbaycan şairi Saib Təbrizi (1601-1676) yazır ki, bəziləri *"oturmuş" deyirlər, bəziləri "sınmış", Xacə Hafiz olmadığı üçün çətinliyə düşmüşük"* (9, s.31). Bu yazılış fərqi mis qablar üzərində nəqş edilən kitabələrdə də rast gəlinir (7). Batini sufi deyilən Hafiz Şirazinin bu misraları sufizm anlayışları ilə təhlil edilməlidir.

M.X.Nemətin "Sərpuşlar üzərindəki kitabələr" adlı məqaləsində Azərbaycan Milli İncəsənət Muzeyi və Azərbaycan MEA Milli Azərbaycan Tarixi Muzeyi fondlarındakı səkkiz ədəd sərpuş üzərindəki kitabələrdən bəhs edilir (5). Məlum olur ki, onlardan birinin (Rüstəm Mustafayev adına Azərbaycan Milli İncəsənət Muzeyinin fondu, inv. № 1933) yuxarı haşiyəsində, bizim qeyd etdiyimiz sərpuş üzərində olduğu kimi, Hafizin qəzəlindən bir beyt həkk edilmişdir. M.Nemət beytin farsca mətnini aşağıdakı kimi oxumuşdur:

*"Sahib delan xodara/, dərda ke zon bahara/ xahəd şod aşkara. / miravəd ze dəstəm . / Sahebehu Riza Qulu, 1206/".*

Məqalə müəllifi kitabələrin sərpuş üzərində yerləşmə xüsusiyyətlərini –qurşaqvari haşiyədə, yaxud ayrı-ayrı kartuşlar daxilində yazıldığını qeyd etmir. O, görünür ki, beytin ikinci misrasındakı *"dərda ke raz-e ponhan"* ifadəsini *"dərda ke zon bahara"* kimi; qəzəlin başlandığı "del miravəd ze dəstəm" sözlərini isə sonda oxumuşdur. Beyt M.Nemətin Azərbaycan dilinə etdiyi tərcümədə qəribə səslənir: *"Müdriklər Allaha /əfsus ki, o gözəllikdən /aşkar olacaqdır"/* Əlimdən getməyir/ Onun cahibi Riza Qulu. 1206" H.1206=1791/92-ci il. (Bu sərpuşun kitabələri "Azərbaycanın epiqrafik abidələrinin toplusu"nda iki dəfə yazılmışdır) (5).

M.Nemətin Azərbaycan MEA-nın Milli Azərbaycan Tarixi Muzeyinin etnoqrafiya fondunda apardığı araşdırmalara əsasən söyləmək olar ki, həmin beyt sərpuşlarla yanaşı XVIII-XIX əsrlərdə mis taskababı (? Ola bilsin, bu manqaldır) (göstərilən fond, inv. N 7356) və badyalar üzərində (göstərilən fond, inv. NN 4147,5113, 1579, 8444) nəqş edilmişdir. Burada müəllif beytin sətri tərcüməsini yazmışdır: *"Ey, Allaha inanan müdriklər, ürəyim əlimdən gedir. Dərddir ki, gizli sirrim aşkar olmaq istəyir".*

Məşhur İran şairi Şəmsəddin Məhəmməd Hafiz Şirazinin (XİV əsr) bir neçə şeirini Məhəmməd Hadi və Mirzə Ələkbər Sabir Azərbaycan dilinə tərcümə etmişlər. 1967-ci ildə Hafizin seçilmiş şeirləri Əbülfəzl Hüseyni Həsrətin tərcüməsində nəşr edilmişdir. Kitaba ön söz yazan Əkrəm Cəfər yazır ki, "Əlbəttə, tərcümə nöqsansız deyildir, lakin Hafizin şeirini orijinaldakı kimi bədii səviyyəsilə başqa dildə, o cümlədən də, azəricə vermək cox

cətindir. Şair Ə.Hüseyni bu işdə böyük əmək sərf etmiş və deyə bilərik ki, Hafizin bir sıra şeirlərini müvəffəqiyyətlə tərcümə etmişdir.” Hafizin *“del mirəvəd ze dəstəm”* misrası ilə başlanan on üç beytlik qəzəlinin tərcüməsi bu kitabda əksini tapıb. Qəzəlin sərpuş üzərində yazılan beytləri Ə. Hüseyninin tərcüməsində belə səslənir:

*“Könlüm gedir əlimdən, rəhm eylə sən, xudaya!*
*Ey dad! Məxfi sirrim oldu cahanda ifşa*
*Əyləşmişik qayıqda, qalx, ey külək dayanma,*
*Ta bəlkə bir də çatdıq dildarə, aşinaya*
*Qalmaq üçün səlamət, ey sahibi kəramət,*
*Gəl eylə bir səxavət, dərvişi -binəvaya,*
*İsgəndər ayinəsi cami-Cəmə nəzər sal,*
*Onlar desin ki, indi qalmış hayanda Dara* (10, s.14).

Rəvayətə görə, güzgünü İranın Pişdadiyan sülaləsinin altıncı padşahı Cəmşid, digər bir rəvayətə görə isə Makedoniyalı İsgəndər yaratmışdır. Nizami Gəncəvi də, “İsgəndərnamə” poemasında bunu ikincinin adı ilə bağlayır. İsgəndərin güzgüsünü – qədim yunan alimi və İsgəndərin tərbiyəçisi olmuş Aristotelin ixtira etdiyi güzgünü İsgəndəriyyə şəhərində bir qala üzərində qurmuşdular. Onun vasitəsilə düşməni cox uzaq məsafədən görmək olardı. Respublikamızın ərazisindən aşkar edilən arxeoloji materiallar ornament-naxış yaradıcılığının ilk nümunələrinin eramızdan öncə qaya üzərində təşəkkül tapdığını göstərir. Xalq yaradıcılığının bir qolunu təşkil edən bu sənət növü xalçalarımızda, keramika və parça məmulatlarında, memarlıq abidələri, silahlar, bəzək əşyaları üzərində, qəbir daşlarında, taxtadan və xüsusilə, misdən düzəldilmiş əşyalar üzərində minilliklər boyu inkişaf edərək bugünkü yüksək səviyyəyə çatmışdır. Qədim dövrlərdən bəri ornament və naxışların xalqın ətraf mühitə baxışı, dini inamlari, estetik görüşləri ilə bağlı olduğunu nəzərə alsaq, mədəni irsimizin bu sahəsinin tədqiq edilməsi aktual hesab edilməlidir.

## Ədəbiyyat

1. Hatəmi Nəyyerzəman. Farsca-azərbaycanca lüğət. ”Naşer” nəşriyyatı, Tehran, 1999, 1038 s.
2. Рубинчик Ю.А. Персидско-русский словарь. Т. I, с.800. Т. II, «Русский язык», Москва, 1983, с.864.
3. Радде Г. **И**. Краткий очерк развития Кавказского музея. Тифлис, 1891, 87 s.
4. Эпиграфика Востока. Вып.YI, Москва-Ленинград, 1952, с. 115-117.
5. Nemət Məşədixanım. Sərpuşlar üzərindəki kitabələr. “Elm” qəzeti, 2002, s. 4

6. Неймат М.С. Корпус эпиграфических памятников Азербайджана. Том III. Арабо-персо-тюркоязычные надписи Нахчыванской Автономной Республики (XII век -начало XX века). ЙНЭ, Баку, 2001, 216 с. (с иллюстр.).
7. Nemət Məşədixanım. Azərbaycanın epiqrafik abidələri toplusu. C.VI. Mis qablar, silahlar, bayraqlar üzərindəki kitabələr. XVII-XIX əsrlər. "Elm və təhsil", Bakı, 2011, 141 s.
8. دیوان حافظ شیرازی از انتشارات انجمن خوشنویسان ایران چاپ ششم ص454
9. Məhəmmədi Məsiağa. Hafiz Şirazinin dövrü, həyatı və yaradıcılığına bir baxış. Böyük İran şairi Hafiz Şirazi. 14 noyabr 2001-ci ildə keçirilmiş beynəlxalq elmi-ədəbi konfransın materialları. "Adiloğlu", Bakı, 2002, s. 31-40.
10. Hafiz Şirazi. Seçilmiş əsərləri. (Tərcümə edəni Əbülfəz Hüseyni. Müqəddimə, qeydlər, lüğət və redaktə Əkrəm Cəfərindir). Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1967. 248 s.

## Summary

## Inscriptions of copper pots (*serpush*) preserved in Nakhchivan State History Museum

**Afag Guluzadeh**

The article analyzes the composition of the inscriptions' texts beautifully written in Persian on the *serpush*, which is an example of the culinary culture of Azerbaijan, and the features of the location of the inscriptions. The development of geometric ornament motifs in several versions is shown in the article. The author assessed the copper pot displayed in the exposition of the Nakhchivan State History Museum on which Hafiz Shirazi's poems were written as a real work of art in terms of the composition of the inscription texts.

**Keywords:** Nakhchivan State Historical Museum, serpush, Hafiz Shirazi, gazelle, ornament.


## Резюме

## Надписи на медной посуде (серпуш) хранящейся в Нахчыванском государственном историческом музее

**Афаг Гулузаде**

В статье анализируются композиционные особенности и размещение надписей на персидском языке на серпуше - образце кулинарной культуры Азербайджана. В статье показана схема выгравирования одного геометрического орнамента в нескольких вариантах. Медная посуда в экспозиции Государственного исторического музея Нахчывана, на которой написаны стихи Хафиза Ширази, автор оценил как одно из самых лучших произведений искусства.

**Ключевые слова**: Нахчыванский государственный исторический музей, серпуш, Хафиз Ширази, газель, орнамент.



Şəkil 1. Sərpuş